Orucov Tural Əmir oğlu - kiçik çavuş
Ağazadə Emin Valik oğlu - əsgər
Bayramov Cəlal Yaqub oğlu - əsgər
Cəfərov Araz Səmədağa oğlu - əsgər
Dadaşzadə Hüseyin Zülfüqar oğlu - əsgər
Hacıyev Elmaz Elmar oğlu - əsgər
Hacıyev Şükür Aslan oğlu - əsgər
Məmmədov Murad Yusif oğlu - əsgər
Şəfiyev Daşqın Hidayət oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# Şanlı Zəfər yolu ilə

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun otuz ilə yaxın Ermənistanın işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir. Xalqımız heç zaman işğalla barışmamış, itirilmiş ərazilərin gec və ya tez, sülh və ya hərb yolu ilə qaytarılacağına inamla yaşamış, Zəfər gününü böyük ümidlə gözləmişdir.**



Ulu Öndər Heydər Əliyev vaxtilə məcburi köçkünlərlə görüşlərinin birində bu barədə özünəməxsus uzaqgörənliklə deyirdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqın və Ulu Öndərin müqəddəs arzusunu on yeddi il ərzində qətiyyətlə, ardıcıllıqla həyata keçirdiyi hərtərəfli tərəqqi və sürətli inkişaf strategiyası, mükəmməl sosial-iqtisadi islahatlar və müasir ordu quruculuğu sayəsində gerçəkləşdirdi, möhtəşəm Zəfərin, misilsiz Qələbənin memarı və müəllifi kimi adını əbədi olaraq Azərbaycanın indiki və gələcək nəsillərinin yaddaşına, Vətən tarixinə yazdırdı. İndi biz Şuşaya, Ağdama, Laçına, Kəlbəcərə, Füzuliyə, Cəbrayıla, Zəngilana və Qubadlıya da gedə bilirik.

Hələ ötən əsrin sonlarında - müstəqilliyin bərpası ərəfəsində və sonrakı illərdə respublikamızda baş verən hadisələr milli dövlətçiliyimiz üçün ciddi təhlükələr yaratmış və yalnız Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı nəticəsində bu təhlükələrin aradan qaldırılması mümkün olmuş, uğurlu gələcəyin və davamlı yüksəlişin təməli qoyulmuşdur. Bu mənada, əminliklə deyə bilərik ki, 1990-cı illərin əvvəllərində məğlubiyyət və məhrumiyyətlərlə üzləşən xalqımızda Qələbəyə inamı məhz Ulu Öndər Heydər Əliyev yaratmışdır. Bu baxımdan qüdrətli Azərbaycan dövlətini ötən il erməni faşizmi üzərində böyük Zəfərə gətirib çıxaran mühüm amillərdən bir neçəsini xatırlatmağı zəruri hesab edirik.

Bu Qələbənin kökündə unudulmaz Heydər Əliyevin gərgin səyləri nəticəsində hələ sovetlər dönəmində, 1971-ci ildə böyük uzaqgörənliklə Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşmış hərbi internat məktəbinin - indiki liseyin yaranması dayanır. Çünki 44 günlük Vətən müharibəsində fədakarlıqla döyüşən zabitlərimizin, peşəkar hərbçilərimizin əksəriyyəti həmin liseyin yetirmələri idi.

Bu Qələbənin kökündə ötən əsrin 70-80-ci illərində Azərbaycanın sosial-iqtisadi yüksəlişi hesabına güclü iqtisadi potensialın yaradılması dayanır. Çünki ölkəmizin müstəqilliyi dövründə, xüsusən, cənab İlham Əliyevin hakimiyyəti illərində həmin potensial məqsədyönlü şəkildə daha da gücləndirilmiş, sonralar Azərbaycanın böyük iqtisadi uğurları üçün baza rolunu oynamışdır. Müharibədə Qələbə çalmaq, otuz ilə yaxın davam edən işğala son qoymaq üçün ordunun döyüş qabiliyyəti ilə yanaşı, dövlətin iqtisadi potensialının da mühüm rol oynadığı heç kimə sirr deyil.

Bu Qələbənin kökündə müstəqil ölkənin dövlət başçısı kimi Heydər Əliyevin Azərbaycanı dünyaya tanıtması, böyük dövlətlərlə, mötəbər beynəlxalq qurumlarla, dünya siyasətində mühüm rol oynayan nüfuzlu dairələr və mərkəzlərlə qurduğu səmərəli əməkdaşlıq praktikası dayanır. 44 günlük Vətən müharibəsi dövründə cənab İlham Əliyevin beynəlxalq qurumların nümayəndələri ilə danışıqları, dünyanın nüfuzlu mətbuat orqanlarına müsahibələri, Azərbaycanın haqq işinin dünya xalqlarına çatdırılması bu tarixi təcrübənin real nəticəsi olmuşdur.

Bu Qələbənin kökündə Heydər Əliyevin memarı, banisi və müəllifi olduğu uğurlu neft strategiyası dayanır. Bu strategiyanın qarşıya qoyduğu sosial, iqtisadi və siyasi hədəflər - neft gəlirlərindən səmərəli istifadə olunması ölkəmizin uzunmüddətli və hərtərəfli inkişafının əsasını qoymuşdur. 1994-cü ilin 20 sentyabrında bağlanılmış "Əsrin müqaviləsi" ilə həyata keçirilməyə başlanan möhtəşəm neft strategiyası təkcə Azərbaycanı iqtisadi tənəzzüldən çıxarmaq, ölkənin sosial-iqtisadi yüksəlişini təmin etmək məqsədi daşımırdı. Bu strategiya Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının bazis rolunu oynamaqla yanaşı, daha uzunmüddətli siyasi hədəflərə malik idi. 44 günlük müharibə zamanı biz yenidən həmin hədəfləri daha aydın görmək və qiymətləndirmək imkanı qazandıq.

Bu böyük Qələbənin kökündə dayanan ən başlıca amil isə Ümummilli Liderin Azərbaycana öz siyasi varisi olan İlham Əliyev kimi Prezident, Sərkərdə bəxş etməsidir.

Ulu Öndər hələ 2003-cü ilin oktyabr ayının ortalarında xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman Heydər Əliyevin uzaqgörənliyini, dahiliyini və müdrikliyini bir daha təsdiq etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ən vacib və taleyüklü məsələni həll etdi - Vətən torpaqları düşmən tapdağından azad olundu, Ermənistanın işğalına son qoyuldu!

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də - Şuşa şəhərinin işğaldan azad edildiyi gün Qarabağ uğrunda canından keçən igid oğullarımızın uyuduğu Şəhidlər Xiyabanından xalqımıza müraciət edərkən Ulu Öndərin ürəkləri riqqətə gətirən sözlərinə qayıdaraq demişdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Ötən il sentyabrın 27-dən başlanan Zəfər tariximizin xronikası, hər günü, hər anı xalqımız üçün şərəf və qürur mənbəyidir. Həmin gün Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında təcavüzkarı sülhə məcbur etmək məqsədilə qətiyyətli əks-hücum əməliyyatlarına başladı, hər günü əsrə bərabər 44 gün çəkən hərbi əməliyyatların gedişində möhtəşəm qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Ən başlıcası, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının erməni silahlı birləşmələrinin işğal olunmuş torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edən, lakin ikili standartlar üzündən illər ərzində kağız üzərində qalan qətnamələrinin icrasını özü təmin etdi.

Rəşadətli və müzəffər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ölkəmizin işğal altında olan əraziləri - ümumən 300-dən çox şəhər, qəsəbə, kənd, çoxsaylı strateji yüksəkliklər düşmən tapdağından azad edildi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi qəhrəman əsgər və zabitlərimizin şücaəti və igidliyi ilə keçirilmiş hərbi əməliyyatlar nəticəsində işğaldan qurtuldu.

Savaş meydanının son zirvəsi - alınmaz Şuşa qalasının azad edilməsi ayrıca bir qəhrəmanlıq dastanı, Zəfər xronikasının baş səhifəsidir. Qəhrəman Azərbaycan hərbçiləri, əsgər və zabitləri çətin relyef şəraitində yorulmadan, tərəddüd etmədən addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini misilsiz cəsarət və mərdliklə yarıb keçdilər. Yaralanan və həlak olan döyüş dostlarını yerdə qoymayıb çiyinlərinə alaraq, başlarına yağan güllə yağışı altında sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşlə Şuşanı işğalçılardan azad etdilər.

Dünya hərb tarixində dərsliklərə düşən taktika, görünməmiş qətiyyət, hünər və fədakarlıq nümunəsi sayılan rəşadətli hücum əməliyyatı ilə möcüzə göstərərək, faktiki olaraq, Ermənistan ordusunu və Ermənistan dövlətini diz çökməyə, ağ bayraq qaldıraraq təslim olmağa və kapitulyasiya aktını imzalamağa məcbur etdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik və peşəkarlıq məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin döyüş meydanındakı zəfər yürüşü siyasi müstəvidə qazanılan parlaq qələbə ilə başa çatdı. Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyini dərk edən düşmən məğlubiyyətini etiraf edərək, işğal altında saxladığı, güclü mühəndis-istehkam qurğuları və minalanmış sahələri ilə ordumuzu saysız-hesabsız itkilərə məruz qoymaq istədiyi Ağdam rayonunu, eləcə də təbii istehkam rolu oynayan mürəkkəb relyefə malik Laçın və Kəlbəcər rayonlarını döyüşsüz, qan tökülmədən Azərbaycan Respublikasına qaytarmağa məcbur oldu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilk dəfə dövlət başçısı seçildiyi 2003-cü ildən bu günədək həyata keçirdiyi irimiqyaslı, uzaqgörən və çoxcəhətli siyasi, iqtisadi, hərbi quruculuq strategiyası, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun möhkəmləndirilməsi, Azərbaycan haqqında həqiqətlərin və ölkəmizin haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətində gerçəkləşdirdiyi çoxşaxəli fəaliyyətinin nəticəsi olaraq xalqımıza görünməmiş müsibətlər, itkilər, əzablar gətirmiş ümummilli problemimiz olan münaqişəni hərbi-siyasi yolla həll etdi.

Əslində, cənab İlham Əliyev Prezident seçildiyi ilk günlərdən Qarabağ probleminin sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunacağına ümid etdiyini bildirir, lakin problemin həll olunmadığı təqdirdə hərbi yola əl atılacağını gizlətmirdi. Lakin istər bu problemin həllinə məsul olan beynəlxalq birliyin nümayəndələri, istər ayrı-ayrı maraqlı siyasi dairələr, istərsə də təcavüzkar Ermənistan rəhbərliyi bu bəyanatların daxili auditoriya üçün nəzərdə tutulan siyasi ritorika olduğunu güman edir, Azərbaycan xalqının bir zaman işğalla barışacağını gözləyirdi. İlham Əliyev isə dəfələrlə xalqımızın işğal faktı ilə barışmayacağını, lazım gəlsə, problemin hərb yolu ilə həll ediləcəyini vurğulayırdı. Görünür, Azərbaycan Prezidentinin öz xalqı qarşısında verdiyi hər bir vədə əməl etdiyini bilməyənlər və ya bilmək istəməyənlər bu reallığı dərk etmək iqtidarında deyildi. Zaman gəldi, Ali Baş Komandan problemin həll edilmək vaxtı olduğunu nəzərə alaraq orduya düşmən təxribatına nəinki sərt cavab vermək, hətta daha da irəli gedərək onları torpaqlarımızdan qovub çıxarmaq əmrini verdi.

Dünyada gedən ictimai-siyasi prosesləri diqqətlə izləyib təhlil edən Ali Baş Komandan məhz lazımi anda, lazımi yerdə taleyüklü qərarlar qəbul etməklə ordumuzu Zəfər yoluna çıxardı. Çünki dövlətimizin başçısı nəyin nə zaman və necə edilməli olduğunu yaxşı bilirdi.

Gündəlik fəaliyyəti, diqqət və qayğısı ilə dünyanın güclü orduları sırasına çıxardığı rəşadətli Azərbaycan Ordusuna torpaqlarımızın düşmən əsarətindən azad olunması üçün özünün cəsarətli, qətiyyətli və inamlı "İrəli" əmri ilə, hərbi əməliyyatlara bilavasitə başçılıq edərək, ölkəmizə qarşı yönəlmiş bütün təzyiqlərin qarşısına sipər çəkərək Ali Baş Komandan İlham Əliyev 30 illik işğala 44 gün ərzində son qoyan mahir sərkərdə və lider olaraq şanlı bir tarix yazdı, qalibiyyət bayrağımızı işğaldan azad olunmuş ərazilərimizdə zirvələrə ucaltdı.

Dövlət başçısı seçildikdən etibarən Prezident İlham Əliyevin ardıcıl olaraq həyata keçirdiyi məqsədyönlü və genişmiqyaslı islahatlar ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini misilsiz dərəcədə artıraraq Vətən müharibəsində parlaq qələbənin qazanılması üçün möhkəm zəmin yaratdı. Azərbaycanın iqtisadi, hərbi gücünü və potensialını məharətlə işə salan Müzəffər Ali Baş Komandan döyüş meydanındakı qələbələri tarixi əhəmiyyətli siyasi qələbəyə çevirə bildi.

Bu gün valyuta ehtiyatları artıq 53 milyard dolları ötən Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzidir və müstəqil dövlətçiliyimiz özünün çoxəsrlik tarixinin ən sürətli inkişaf və yüksəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin ilk ilində ölkəmizin müdafiə xərcləri cəmi 0,9 milyard manat olduğu halda, 2020-ci ildə həmin göstərici 3,9 milyard manata çatmış, Azərbaycan Ordusu dünyanın ən döyüş qabiliyyətli ordularından birinə çevrilmişdir. 44 günlük Vətən müharibəsinin yekunu ölkəmizin iqtisadi, siyasi və hərbi cəhətdən regionda lider, dünya miqyasında böyük nüfuz qazanmış, qətiyyətli mövqeyi olan qüdrətli dövlət olduğunu bir daha təsdiq etmişdir. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları sayəsində bütün parametrlər üzrə özünün böyük resurs üstünlüyünü yaratmış Azərbaycan geosiyasi prosesləri öz xeyrinə dəyişməklə yanaşı, regionun iqtisadi coğrafiyasını yeni formata salmışdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu Vətən müharibəsində dünya hərb tarixində görünməmiş nümunə, müharibə qanunlarına ən ciddi şəkildə əməl etməklə müasir döyüş taktikası, texnoloji üstünlük nümayiş etdirmişdir.

Əksəriyyəti Birinci Qarabağ müharibəsindən sonra dünyaya gələn, hətta Qarabağ torpaqlarını görməyən, ancaq illər boyu bu torpaqların azad edilməsi eşqi ilə yaşayan və ölümün gözünə dik baxan igid əsgərlərimiz Ali Baş Komandanın əmrini mərdlik və fədakarlıqla yerinə yetirərək tariximizin qəhrəmanlıq, şərəf və milli qürur səhifəsini yazdılar, Torpağı Vətənə qaytardılar, Vətəni bütöv etdilər.

Savaş günlərində Azərbaycan Ordusunun dayanmadan irəliləməsi, işğalçıya aman vermədən endirdiyi zərbələr ilə yanaşı, onun qüdrətli Sərkərdəsinin dəmir yumruğu, dəmir məntiqi və dəmir iradəsi daim düşməni lərzəyə saldı. Hərb sənətinin bütün incəliklərindən məharətlə istifadə edən Ali Baş Komandanımızın mütəmadi olaraq xalqa müraciətləri, açıq, inamlı və qətiyyətli çıxışları, xarici KİV-ə müsahibələri, düşmənə daha sarsıdıcı, mənəvi-psixoloji zərbələr vurmaqla çatdırması Zəfər gününün yaxınlaşmasında mühüm rol oynadı.

Bu gün birmənalı şəkildə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbəmiz bütün uğurlarımızın zirvəsi, Azərbaycan tarixində baş vermiş ən böyük və şanlı hadisədir.

Vətən müharibəsində Qələbə, Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan əsgərinin qanı, canı bahasına və əməyi nəticəsində qazanılmışdır. Xalqımız Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda şəhidlər vermişdir. Azərbaycan dövləti daim şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına yüksək diqqət və qayğı ilə yanaşmışdır və bu proses hər zaman yüksək səviyyədə davam edir. Şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident tərəfindən qəbul edilmiş mühüm qərarlar bu gün tam şəkildə həyata keçirilir.

Azərbaycan naminə, ölkəmizin gündən-günə çiçəklənməsi, xalqımızın rifahı və xoş gələcəyi uğrunda Prezident İlham Əliyev ilə ən yaxın və etibarlı silahdaşı kimi çiyin-çiyinə fəaliyyət göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərdən irəli gələn əzmkar və hərtərəfli fəaliyyəti də göz qabağındadır. Cəmiyyətimizdə xeyirxahlıq ünvanına çevrilmiş Heydər Əliyev Fondu şanlı Qələbə üçün canından keçən şəhidlərimizin ailələrinə yüksək diqqət və qayğı göstərir, yaralı əsgərlərimizin şəfa tapmasına hər cür kömək edir, ən yüksək ixtisaslı yerli və xarici mütəxəssisləri cəlb etməklə, onların müalicəsini və reabilitasiyasını təşkil edir.

Münaqişənin ilk dövrlərindən, hələ keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilmiş, erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın işğalı ilə yanaşı, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. 2003-cü ildə prezident seçkiləri ərəfəsində seçicilərlə ilk görüşünü məcburi köçkünlər üçün salınmış qəsəbədə keçirərkən Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşların vəziyyətinin yaxşılaşdırılması, onların problemlərinin həll olunması üçün zəruri tədbirlərin görüləcəyini bəyan etmişdi. Son 17 il ərzində bu sahədə aparılmış məqsədyönlü iş, həyata keçirilmiş mühüm dövlət proqramları nəticəsində erməni işğalı ilə bilavasitə üzləşmiş yüz minlərlə soydaşımız ləğv olunmuş çadır düşərgələrindən müasir qəsəbə və yaşayış komplekslərinə köçürülmüş, onlar üçün təhsil, səhiyyə, rabitə və mədəniyyət ocaqları tikilib istifadəyə verilmiş, müvafiq infrastruktur yaradılmışdır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımız düşmən əsarətindən azad olunduqdan sonra xüsusi proqram əsasında öz doğma yurd-yuvalarına qayıdacaq soydaşlarımızın bütün fiziki məşəqqətləri ilə yanaşı, ağır mənəvi yük kimi səslənən "qaçqın və məcburi köçkün" həyatına və statusuna son qoyulur. Bu tarixi reallığın da müəllifi və memarı olan Prezident İlham Əliyev demişdir: "Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik".

Düşmən ərazilərimizi işğal altında saxladığı dövrdə Azərbaycana qarşı genosidin bütün formalarını həyata keçirmiş, şəhər, qəsəbə və kəndlərimizi viran qoymuş, yaşayış evlərini, infrastruktur obyektlərini, ictimai binaları dağıtmış, məhv etmiş, 9 şəhərimizi, o cümlədən "Qafqazın Hirosiması" adlandırılan Ağdam şəhərini, eləcə də digər şəhərlərimizi və kəndlərimizi yerləyeksan etmişdir.

Qədim tarixə, unikal maddi və mədəni irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağ və Şərqi Zəngəzur torpaqları otuz ilə yaxın düşmən tərəfindən amansızlıqla, vəhşicəsinə istismar edilmişdir. İşğal olunmuş ərazilərdə Azərbaycanla bağlı tarixi və mədəni irs tamamilə məhv edilmiş, yaşayış məntəqələrinin adları dəyişdirilmiş, regionun meşə örtüyü məqsədli olaraq məhv edilmiş, münbit torpaqlar, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qoyulmuş, bölgələrin təbii landşaftı ciddi deformasiyaya uğradılmış, qeyri-qanuni olaraq təbii sərvətlərin istismarı və mənimsənilməsi həyata keçirilmişdir.

# Böyük Qayıdışa doğru

Bu hələ azmış kimi, Vətən torpaqlarını işğaldan azad edən qəhrəman ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verib geri çəkilməyə məcbur olan Ermənistan silahlı qüvvələri döyüş meydanındakı acınacaqlı məğlubiyyətin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki əhalini, eləcə də infrastruktur obyektlərini hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən ağır artilleriya və ballistik raketlərlə atəş açaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, insanların əmlakına, infrastruktur obyektlərinə irimiqyaslı zərər vurmuşlar.

44 günlük Vətən müharibəsi dövründə erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində 11 şəhər və rayon ərazisinə 30 minə yaxın raket və artilleriya mərmiləri düşmüşdür ki, bu da böyük dağıntılarla müşayiət olunmaqla, təxminən 4 min km$^2$ ərazini əhatə etmişdir.

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradılmışdır. Dəymiş ziyanın qiymətləndirilməsi və onun aradan qaldırılması ilə bağlı tapşırıqların yerinə yetirilməsi üçün Dövlət Komissiyası tərəfindən təxirə salınmadan iş aparılır.

11 şəhər və rayon üzrə təmir-bərpa işlərinin yerinə yetirilməsi nəzərdə tutulan 13 mindən çox obyektdə müvafiq işlər hazırda tamamlanmaq üzrədir.

Azərbaycan Respublikası Prezidentinin, Rusiya Federasiyası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatla müharibədəki qələbəmizin təsbit olunmasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm prioriteti işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə başlanması, yeni yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Dövlətimizin başçısı qurucu lider olaraq işğaldan azad edilmiş əraziləri addım-addım, qarış-qarış gəzib orada aparılan bərpa və yenidənqurma prosesinə şəxsən rəhbərlik edir. “Biz müharibəni Zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə başa vuracağıq”, - deyən Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad edilən ərazilərinin bərpası sahəsində dünyada nadir nümunə təqdim etməsi üçün də fədakarlıqla çalışır. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilər üzrə hazırlanmış Strateji Fəaliyyət Planı əsasında bütün ərazilərin, şəhər, qəsəbə və kəndlərin bərpasının vahid konsepsiya üzrə həyata keçirilməsinə başlanmışdır.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı qarşıya qoyulan vəzifələri yerinə yetirməkdədir. Dövlətimizin başçısı Qarabağın dirçəldiləcəyini və dünyanın ən inkişaf etmiş regionlarından birinə çevriləcəyini əminliklə bəyan etmişdir. İşğaldan azad edilmiş ərazilər hazırda böyük bir tikinti meydanıdır, burada inşaat, quruculuq işləri ölçüyəgəlməz miqyas və vüsət almışdır. İlk növbədə, həyat təminedici işlər, o cümlədən elektroenergetika, su təsərrüfatı, kənd təsərrüfatı, rabitə və digər sahələrdə işlər qurumlararası qarşılıqlı əlaqədə yüksək sürətlə həyata keçirilir.

Torpaqlarımızın işğaldan azad edilməsi ilə Azərbaycan tarixində qazanılmış ən böyük Zəfər, xalqımızın ən böyük arzu və istəyini gerçəkləşdirmiş möhtəşəm Qələbə regionda yeni reallıqlar yaratmışdır.

Prezident İlham Əliyev imzaladığı “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” 2021-ci il 7 iyul tarixli fərman ilə Azərbaycanın Zəfər salnaməsinin növbəti şanlı səhifəsini yazdı. İşğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi sahəsində aparılan genişmiqyaslı işlərin vahid proqram əsasında həyata keçirilməsinin məqsədəmüvafiqliyindən irəli gələn, regionun sürətli inkişafına, iqtisadi vəziyyətinin tarazlaşdırılmasına xidmət edən yeni bölgü bugünkü reallıqları əks etdirməklə böyük tarixi əhəmiyyət daşıyır.



Ermənistanla sərhəddə, eyni coğrafi məkanda yerləşmiş, tarixən ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarını birləşdirən Şərqi Zəngəzur, Qarabağın dağlıq və aran ərazilərindəki Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonlarını və Xankəndi şəhərini, həmçinin bu bölgəyə aid Ağcabədi və Bərdə rayonlarını birləşdirən Qarabağ iqtisadi rayonlarının yaradılması yeni coğrafi, siyasi, iqtisadi reallıqların inikası kimi Azərbaycan dövlətinin siyasi iradəsini ifadə edir və regionun vahid formatda inkişafını şərtləndirir.

Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən irimiqyaslı proqramların mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə icrasına, bölgənin çevik idarəetmə, yeni məskunlaşma və şəhərsalma strategiyasına uyğun inkişafına xidmət edir. Bu bölgü, eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun inkişaf strategiyasını digər iqtisadi rayonlar ilə tarazlaşdırılmış və qarşılıqlı şəkildə uzlaşdırılmış müstəviyə gətirir.

Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın hökumət başçısının imzaladıqları 10 noyabr Bəyanatına əsasən, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ölkəmizə regional nəqliyyat-logistika qovşağı kimi güclü mövqe qazandırır. Digər tərəfdən isə Naxçıvan ilə birbaşa nəqliyyat kommunikasiyalarının bərpasını nəzərdə tutan, daha uzaq perspektivdə “Bir kəmər - bir yol” layihəsinin önəmli həlqəsinə çevrilə biləcək Zəngəzur dəhlizi layihəsi bu diyarın inkişafına əhəmiyyətli dərəcədə təkan verməklə yanaşı, Türkiyə ilə birbaşa əlaqə yaradılması və ölkəmizin qlobal bazarlara çıxış və tranzit imkanlarının artırılması kimi strateji əhəmiyyət kəsb edir. Cənubi Qafqazın iqtisadi arxitekturasını büsbütün dəyişən, gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyətə malik bu nəqliyyat-kommunikasiya xəttinin açılması Azərbaycanın regionda rolunu daha da gücləndirəcəkdir.

Müharibənin başa çatmasından cəmi üç ay sonra Prezident İlham Əliyev tərəfindən təməli qoyulmaqla inşasına başlanmış, ümumi uzunluğu 100 kilometr olan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti Zəngəzur boyu Naxçıvan Muxtar Respublikasına və Türkiyəyə qədər uzanaraq Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi kimi böyük strateji əhəmiyyətə malikdir.

Azərbaycan postkonflikt dövrünün quruculuq işlərini yüksək sürətlə həyata keçirir, işğaldan azad olunmuş ərazilərin yenidən canlanması, müasir texnoloji layihələr tətbiq etməklə çiçəklənən bir diyara çevrilməsi üçün real addımlar atır.

İşğaldan azad edilmiş ərazilərin bərpası üzrə aparılan işlərdə, planlaşdırmada hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınır. Eyni zamanda Qarabağ bölgəsinin təbiətinin xüsusiyyətləri nəzərə alınmaqla, onun zəngin turizm potensialından səmərəli istifadə edilməsi üçün turizm marşrutları işlənib hazırlanır.

Bu gün işğaldan azad olunan ərazilərin yeraltı və yerüstü sərvətləri, torpaq, meşə, su və digər resursları iqtisadi dövriyyəyə cəlb olunur. Kənd təsərrüfatının inkişafı baxımından böyük əhəmiyyət daşıyan bu torpaqlarda əkin işlərinin aparılması həm də ölkəmizin ərzaq təhlükəsizliyinin və ixrac potensialının artırılmasına xidmət edir. Eyni zamanda həmin ərazilərdə heyvandarlıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və taxılçılıq sahələrinin inkişafı nəzərdə tutulur.

Regionun su ehtiyatlarından səmərəli istifadə olunması, yaşıl enerji zonasına çevrilməsi, oradakı hidroenerji resurslarından istifadə edilərək su elektrik stansiyalarının tikintisi ölkənin su və enerji balansının tənzimlənməsinə mühüm töhfə verəcəkdir.

Bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizdə olan su ehtiyatlarının idarə edilməsi kənd təsərrüfatının inkişafına şərait yaratmaqla, xüsusən, yay aylarında əkin suyuna artan tələbatın ödənilməsinə imkan verəcəkdir.

Sürətlə aparılan bərpa-yenidənqurma tədbirləri sırasında bütün kənd və şəhərlərin elektrik enerjisi ilə təchizatı xüsusi önəm kəsb edir. Belə ki, bu, digər sahələrin də inkişafını təmin etməklə yanaşı, insanların doğma yurd-yuvalarına qayıtmasının tezləşdirilməsi üçün də vacibdir.

Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri “yaşıl enerji” zonası elan etmişdir. Dövlətimizin başçısının regiona hər səfərində açılışlarını etdiyi su elektrik stansiyaları və yarımstansiyalarla getdikcə daha çox nura boyanan bu torpaqların, ümumilikdə, 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi olmaqla təsdiq edilmiş bərpa olunan enerji potensialı var.

İşğaldan azad olunmuş ərazilərin bərpası sahəsində Prezident İlham Əliyevin başçılığı ilə aparılan cari və perspektiv işlər Böyük Qayıdış planlarının reallaşdırılmasının təcəssümüdür. Bu ərazilərdə yenidənqurma və bərpa layihələrinin icrası, müasir infrastrukturun yaradılması üçün 2021-ci ilin dövlət büdcəsində, ilkin olaraq, 2,2 milyard manat həcmində maliyyə təminatı yaradılmış, eyni zamanda 2022-ci ilin dövlət büdcəsində də nəzərdə tutulmuşdur.

1994-cü ilin “Əsrin müqaviləsi”ndən 2021-ci ilin “Əsrin tikintisi”nə qədər misilsiz inkişaf yolu keçmiş Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sürətlə həyata keçirilən infrastruktur layihələri həmin ərazilərdə iqtisadiyyatın bərpa edilməsinə, Qarabağın və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan verir.

Bu gün Şuşa göz önündə sürətlə dirçəlir, daha gözəl görkəmdə öz əvvəlki simasına qayıdır. “Azərbaycan musiqisinin beşiyi” və “Şərqin konservatoriyası” adlandırılan Şuşamızın hər yerindən musiqi sədaları eşidilir. İllərdir bayramlarımızı Şuşada, Cıdır düzündə qeyd edəcəyimizi arzuladığımız məkanda bu gün Novruz tonqalımız şölələnir, Gövhər ağa məscidindən azan səsi ucalır. Şəhərin infrastrukturunun yenidən qurulması, mədəni-maarif obyektlərinin bərpası ilə bağlı qərarlar yerinə yetirildikcə Şuşada yeni bir həyatın başlanmasının şahidi oluruq.

Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olduğunu nəzərə alaraq Prezident İlham Əliyevin Azərbaycanın mədəniyyət paytaxtı elan etdiyi Şuşa şəhərində bu gün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən icra olunan genişmiqyaslı restavrasiya işləri çərçivəsində ölkə əhəmiyyətli tarixi-mədəni abidələr yüksək keyfiyyətlə bərpa olunur.

Gələn il 270 illiyini qeyd edəcəyimiz qədim Azərbaycan şəhəri Şuşada artıq “Xarıbülbül” Musiqi Festivalı, “Vaqif Poeziya Günləri” bərpa olunmuş, Milli Musiqi Günü qeyd edilmiş və Üzeyir bəy Hacıbəylinin heykəlinin yenidən ucaldıldığı parkda dahi bəstəkarın adını daşıyan XII Beynəlxalq Musiqi Festivalının ilk konserti keçirilmişdir.

Bu gün Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşa məscidləri təmir olunur, dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələbaran edilmiş büstləri, Bülbülün ev-muzeyi, Vaqifin məqbərəsi, Natəvan bulağı qısa bir zamanda bərpa olunaraq əvvəlki yerini tutmuşdur.

Torpaqlarımız erməni işğalından azad olunduqdan sonra Qarabağ öz mədəni inkişafının yeni dövrünə qədəm qoyub. Xalqımıza məxsus tarixi abidələrin bərpası, ənənəvi tədbirlərin yenidən və daha möhtəşəm qeyd olunması qayıdışımızın daha bir təntənəsinə çevrilib.

Azərbaycanın incisi olan Şuşamız artıq ən yüksək səviyyədə dövlət başçılarının görüşünə də evsahibliyi edib. 2021-ci il iyunun 15-də tariximizdə ilk dəfə olaraq Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Qarabağda qarşıladı.

Şuşa şəhərində birliyimizin, qardaşlığımızın təzahürü kimi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olunmuşdur.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi, hər iki ölkənin ümumi mənafelərinin qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın başlanğıcını qoymuşdur.

Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyə arasında bu gün dünya miqyasında görünməmiş dostluq, qardaşlıq, tərəfdaşlıq və həmrəylik münasibətlərinin zirvəsi olub ikitərəfli münasibətləri strateji müttəfiqlik səviyyəsinə qaldırdı.

Bu gün Azərbaycan dünyada ən sürətli və keyfiyyətli postkonflikt quruculuğu və standartları ilə adını tarixə yazdırır. İşğaldan azad olunmuş ərazilərdə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təşkil edilməsi, iqtisadiyyatın bərpası istiqamətində atılan addımlar, infrastrukturun təkmilləşdirilməsi bölgənin reinteqrasiyası və dirçəldilməsi üçün böyük imkanlar açır.

Azərbaycanın öz vəsaiti hesabına, heç kimdən asılı olmayaraq, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən artıq Şuşa ilə yanaşı, Ağdamın, Cəbrayılın, Füzulinin bərpası üzrə intensiv şəkildə həyata keçirdiyi layihələrdə, istərsə də Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının bərpası üzrə hazırlanmaqda olan baş planlarda yaşıl və alternativ enerjinin, “ağıllı idarəetmə” sisteminin tətbiqinə əsaslanan “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasına uyğun yaşayış məhəllələrinə, kənd təsərrüfatı sahəsinə malik müasir tipli şəhər və kənd modeli üzrə dirçəldilən yaşayış məntəqələrimiz, Böyük Qayıdışımızla canlanan Qarabağ və Şərqi Zəngəzur torpaqlarının yüksək texnologiyalar və müasir yanaşmalarla sürətli bərpası “Biz səni dirçəldəcəyik!” deyən, imzası qədər etibarlı söz sahibi olan Prezident İlham Əliyevin mətin iradəsinin, qətiyyətinin, dönməz quruculuq amalının ifadəsi olmaqla yanaşı, həm də Azərbaycanın gücünün, qüdrətinin dünyaya nümayişi, siyasi, strateji mesajıdır.

İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə, regional iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Şərqi Zəngəzur iqtisadi rayonunun, əsasən, Cəbrayılı əhatə edən Arazboyu ərazisində artıq cənab Prezident tərəfindən təməli qoyulmuş “Araz Vadisi İqtisadi Zonası” sənaye parkı rəqabətqabiliyyətli və innovativ sənaye məhsullarının istehsalı üçün yeni imkanlar yaradır.

Füsunkar təbiətə, zəngin təbii sərvətlərə malik Zəngilan rayonu Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti ilə yanaşı, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən bu günlərdə təməli qoyulmuş Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, mükəmməl kommunikasiya infrastrukturu ilə regionun müasir nəqliyyat-logistika mərkəzinə çevrilərək, Azərbaycanın qətiyyətli mövqeyi ilə reallaşması gündən-günə yaxınlaşan strateji Zəngəzur dəhlizinə yol açır.

Xüsusilə vurğulanmalıdır ki, bərpa-quruculuq işləri minatəmizləmə əməliyyatları ilə paralel şəkildə həyata keçirilir. Ümumilikdə ötən müddət ərzində aparılmış minatəmizləmə əməliyyatları nəticəsində 45 mindən artıq mina və partlamamış hərbi sursat aşkar edilib, 20 minə yaxın hektar ərazi təmizlənib. İflasa məhkum olduğunu dərk edən, torpaqlarımızı tamamilə minalamış mənfur düşmən çirkin xislətini, qeyri-konstruktiv mövqeyini davam etdirərək basdırılan minalara dair xəritələri indiyədək təqdim etməmişdir və bu, minatəmizləmə işlərini çətinləşdirən ən əsas amildir.

Başdan-başa minalanmış ərazisi təmizlənərək, fantastik sürətlə, cəmi 8 ay ərzində inşası başa çatdırılmış, Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə açılışı keçirilmiş “Qarabağın hava qapısı” - Füzuli Beynəlxalq Hava Limanı, hazırda inşası aparılan Zəngilan və Laçın beynəlxalq hava limanları, hələ döyüşlər qurtarmadan Suqovuşan və Talış kəndlərinə çəkilişinə başlanan avtomobil yolları da daxil olmaqla, 16 layihə üzrə ümumi uzunluğu 815,8 kilometr olan avtomobil yolları, o cümlədən “Zəfər yolu” adlandırılan Əhmədbəyli-Füzuli-Şuşa yolu, mürəkkəb relyefli ərazilərdə yüksək sürət və texnologiyalarla inşa edilən digər avtomobil yolları, tunellər, yol ötürücüləri bölgənin inkişafına əhəmiyyətli təkan verməklə yanaşı, müasir tələblərə uyğun hərbi, siyasi və strateji əhəmiyyətli yol-nəqliyyat infrastrukturunun yaradılmasına xidmət edir və dövlətimizin gücünü bütün dünyaya göstərir.

Müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə əbədi yazılan, dövlət başçımızın rəhbərliyi, qətiyyəti, sərkərdəlik məharəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında sıx birləşməsi, Azərbaycan Ordusunun rəşadəti və yüksək döyüş qabiliyyəti sayəsində təmin edilən bu şanlı Zəfər hər bir azərbaycanlıda böyük qürur və iftixar hissi doğurur.

Bu tarixi Qələbə barədə Prezident İlham Əliyev bu gün özünə xas yüksək səmimiyyət və təvazökarlıqla deyir: “Bu, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında bizim borcumuz idi və biz bu borcu şərəflə yerinə yetirdik”.

*Ölkəmizin potensial imkanlarından və qarşıda duran vəzifələrdən danışarkən Prezident İlham Əliyev deyir: “Bizim gözəl iqlimimiz, təbiətimiz, torpağımız var, əlverişli coğrafi vəziyyətimiz, zəngin təbii ehtiyatlarımız, gözəl, istedadlı insanlarımız var. Bunlar olan halda, biz mütləq və mütləq Azərbaycanı müasir, zəngin, qüdrətli dövlətə çevirməliyik və çevirəcəyik”.*

*Xalqa və xalq-dövlət birliyinə arxalanaraq həyata keçirdiyi irimiqyaslı layihələr, möhtəşəm qələbələr, Müzəffər Ali Baş Komandan kimi rəşadətli ordumuzla əldə etdiyi tarixi Zəfərlə Prezident İlham Əliyev bu gün Azərbaycanı yeni zirvələrə doğru inamla apararaq əzəli torpaqlarımıza Böyük Qayıdışımızı gerçəyə çevirir.*

**Əli ƏSƏDOV,**
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# İlham Əliyevdən 16 min ailəyə Zəfər hədiyyəsi

### Tariximizin ən böyük Amnistiya aktına Milli Məclis razılıq verdi





*Əvvəli 1-ci səh.*

Sonra Sahibə Qafarova təəssüflə bildirdi ki, heç bir müharibə itkisiz olmur, bizim də Vətən müharibəsində şəhidlərimiz var. Həm 44 günlük Vətən müharibəsində, həm də Birinci Qarabağ müharibəsində, digər döyüşlərdə Vətən və xalq yolunda canını fəda etmiş şəhidlərimizin, Ermənistanın törətdiyi soyqırımı və terror aktları nəticəsində dinc şəhər və kəndlərimizdə dünyasını dəyişmiş mülki şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Gündəlik təsdiqləndikdən sonra Milli Məclisin Sədri bildirdi ki, birinci məsələ "8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı" barədədir. Spiker diqqətə çatdırdı ki, bir il bundan əvvəl Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin əldə etdiyi hərbi zəfər Azərbaycanın müstəqillik tarixinin müstəsna əhəmiyyətli hadisələrindəndir. 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirilib, Azərbaycan torpaqlarının böyük bir hissəsi işğaldan azad olunub. Döyüş meydanında qazanılan böyük zəfər siyasi-diplomatik müstəvidə də təsdiq edilib, Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılması nəticəsində tarixi ədalət bərpa olunub. Azərbaycan BMT-nin, digər beynəlxalq təşkilatların qərarlarının icrasını öz gücü ilə təmin edib, uzun illər ərzində dövlətimizin inkişafına mane olan Ermənistan-Azərbaycan münaqişəsinə son qoyub.

Sahibə Qafarova qeyd etdi ki, bu şanlı Qələbənin əldə edilməsi bir neçə amillə bağlıdır. Ən mühüm amil son 28 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirməyə başladığı, daha sonra Prezident İlham Əliyevin yaradıcı surətdə davam etdirdiyi quruculuq və inkişaf strategiyası Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və geniş bir bölgədə söz sahibinə çevirib.

Diqqətə çatdırıldı ki, Qələbənin daha bir amili ölkəmizin nəhəng siyasi, iqtisadi və hərbi potensialının yaradılması, müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələrin formalaşdırılması olub. Zəfərin bir amili də ölkəmizdə mövcud olan milli birlikdir. Çıxışında Ali Baş Komandana istinad edən Milli Məclisin Sədri diqqətə çatdırdı ki, möhtərəm Prezidentimizin dediyi kimi, "İkinci Qarabağ müharibəsində Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, ordumuzun arxasında durdu və ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq".

Sahibə Qafarova vurğuladı ki, bu gün Azərbaycan bayrağı Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanır. Erməni vandalları tərəfindən viran qoyulmuş şəhər və kəndlərimizin bərpası ilə bağlı irimiqyaslı layihələr icra olunur. Bütün layihələrin həyata keçirilməsinə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva gündəlik diqqət göstərir və nəzarət edirlər.

Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə "8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı" ilə başladı. Müzakirələrin gedişatında bəyanatın layihəsinin hazırlanması üçün birinci vitse-spiker Əli Hüseynlinin sədrliyi ilə deputatlar Ziyafət Əsgərov, Hicran Hüseynova, Qənirə Paşayeva, Sabir Hacıyev, Tural Gəncəliyev və Cavid Osmanovdan ibarət komissiya yaradıldı.

Müzakirələrdə çıxış edən deputatlar Fazil Mustafa, Zahid Oruc, Mahir Abbaszadə, Musa Qasımlı, Elman Nəsirov, Emin Hacıyev, Musa Quliyev, Bəxtiyar Əliyev, Bəhruz Məhərrəmov, Aydın Mirzəzadə, Qənirə Paşayeva, Qüdrət Həsənquliyev və vitse-spiker Adil Əliyev öncə Zəfər Günü münasibətilə dövlət başçısına və milli ordumuza, bütün xalqımıza, dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyon azərbaycanlıya təbriklərini çatdırdılar.

Sonra deputat Cavid Osmanov 8 Noyabr - Zəfər Günü ilə əlaqədar komissiyanın hazırladığı bəyanatın layihəsi ilə deputatları tanış etdi. Mətn alqışlarla qarşılandı və "8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı" səsə qoyularaq qəbul edildi *("8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı"nın mətni qəzetdə dərc olunub).*

Gündəlikdəki ikinci məsələ "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi idi. Parlamentin Sədri Sahibə Qafarova dedi ki, hüquqi və demokratik dövlətin əsas təməllərindən biri olan insan hüquqlarının və azadlıqlarının müdafiəsi, ölkə həyatında mərhəmət və humanizm prinsiplərinin bərqərar edilməsi Azərbaycan Prezidentinin həyata keçirdiyi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Onun rəhbərliyi altında səmərəli fəaliyyəti ilə böyük nüfuz qazanmış əfvetmə və bağışlama institutu şəxsiyyətə inam və hörmət, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasına kömək göstərir.

Milli Məclisin Sədri diqqətə çatdırdı ki, Prezident İlham Əliyev Zəfər Günü münasibətilə amnistiya elan edilməsi barədə təşəbbüs irəli sürüb və müvafiq qərar layihəsini Milli Məclisə təqdim edib.

Qərar layihəsi barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin şərhi dinlənildi. Öncə Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda həyata keçirdiyi humanizm siyasətindən söz açan Əli Hüseynli bildirdi ki, 1995-2021-ci illər ərzində əvvəlcə Heydər Əliyev, sonra isə İlham Əliyev tərəfindən 67 əfv fərman və sərəncamı qəbul edilib. Bunların nəticəsində 9 minə yaxın məhkum azadlığa buraxılıb. Komitə sədri xatırlatdı ki, həmin dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından sonuncularını Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva deputat fəaliyyəti dövründə təqdim edib. Nəticədə sözügedən dövr ərzində bütövlükdə 117 min şəxsə amnistiya qərarı tətbiq olunub.

Əli Hüseynli rəhbərlik etdiyi komitədə layihənin müzakirə olunduğunu qeyd etdi. Layihəyə görə, bu qərar qəbul olunduğu gündən amnistiya qüvvəyə minir və əlaqədar orqanlar tərəfindən 4 ay müddətində amnistiyanın tətbiqi təmin edilməlidir. Bildirildi ki, bu, indiyə qədər qəbul olunmuş amnistiyalar sırasında öz əhatə dairəsinə görə ən geniş qərardır.

Sonra müzakirələr başlandı. Deputatlar Zahid Oruc, Bəxtiyar Əliyev, Fəzail Ağamalı, Aydın Hüseynov, Etibar Əliyev, Fazil Mustafa, Məlahət İbrahimqızı, Kamal Cəfərov sənədlə bağlı fikirlərini bildirdilər, təkliflərini diqqətə çatdırdılar.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli suallara aydınlıq gətirdikdən sonra "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi səsə qoyuldu və qəbul edildi.

Sonra iclasda üçüncü oxunuşda müzakirəyə təqdim olunmuş 4 qanun layihəsinə baxıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərovun, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin məlumatları dinlənildi. "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi, "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi və "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edildi.

İclasda bir oxunuşda müzakirəyə çıxarılmış "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələyə də müsbət münasibət bildirildi. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

İclasın yekununda birinci oxunuşda təqdim olunmuş 2 qanun layihəsi - "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)" yubiley medalının təsis edilməsi (birinci oxunuş) və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalının təsis edilməsi (birinci oxunuş) ilə əlaqədar olaraq "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə məlumatlar dinlənildi. Qanun layihələri birinci oxunuşda qəbul edildi.

Milli Məclisin Sədri Sahibə Qafarova deputatları qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik etdi, xoş arzularını çatdırdı.

***Rəşad CƏFƏRLİ,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Vətən müharibəsi qazisi Milli Məclisdə işlə təmin olunub

Azərbaycanda son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonrakı dövrdə də ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi tədbirlər həyata keçirilir.

Xüsusilə, Prezident cənab İlham Əliyevin cari ilin yanvar ayının 25-də imzaladığı şəhid ailələri və qazilərə yönəlmiş "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı qeyd olunanların bariz nümunəsidir. Ölkə başçısı tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən, əlilliyi olan şəxslərə ödənilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələri və qazilərin həyat şəraitinin və rifahının yaxşılaşdırılması məqsədilə məşğulluq problemi aradan qaldırılır.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Respublikası Milli Məclisi digər istiqamətlərdə olduğu kimi, bu sahədə də ölkəmizdə həyata keçirilən dövlət siyasətinə töfhə vermək, şəhid ailələri və müharibədə sağlamlığını itirmiş hərbçilərimizə dəstək məqsədilə görülən işlərdə fəal iştirak edir. Milli Məclisin Sədri Sahibə Qafarova tərəfindən şəhid ailələri, qazilər və müharibə iştirakçılarının vəziyyəti daim diqqətdə saxlanılır, onlarla müntəzəm görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür, şəhid ailələrinin üzvləri və qazilərin Milli Məclisdə işlə təmin olunmasına xüsusi önəm verilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş, Vətən müharibəsi zamanı Suqovuşan və Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edən qazi Abbas Yusifov Milli Məclisin Sədri Sahibə Qafarovanın imzaladığı əmrlə Milli Məclisdə dövlət qulluğuna qəbul edilərək işlə təmin olunub. Qeyd edək ki, Abbas Yusifov Vətən müharibəsinin ilk günlərindən torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qoşulmuş və şücaət göstərmişdir. O, döyüşlər zamanı düşmənin basdırdığı minaya düşərək sol ayağını itirmişdir.

## Vətən müharibəsi şəhidi Cəbrayıl Dövlətzadənin anası Məleykə Məmmədzadə Milli Məclisdə işlə təmin edilib

Məlum olduğu kimi, ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, dövlətin qayğısı ilə əhatə olunurlar.

Milli Məclis tərəfindən də şəhid ailələri və qazilərlə müntəzəm görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür, şəhidlərin ailə üzvlərinin və qazilərin Milli Məclisdə işlə təmin olunmasına xüsusi önəm verilir.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın müvafiq əmrinə əsasən, general-mayor Polad Həşimovun qisasını alan əsgər kimi Vətən müharibəsi tarixinə imzasını atmış Cəbrayıl Dövlətzadənin anası Məleykə Məmmədzadə Milli Məclisdə dövlət qulluğuna qəbul edilərək işlə təmin olunub.

Qeyd edək ki, Cəbrayıl Dövlətzadə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. Cəbrayıl Dövlətzadə 2020-ci ilin 28 sentyabr tarixində Cəbrayıl-Füzuli istiqamətində gedən döyüşlərdə xüsusi təyinatlıların tərkibində döyüşərək böyük şücaət göstərib, erməni generalını və polkovnikini öldürərkən 19 yaşında şəhid olub.

# 8 Noyabr - Zəfər Günü ilə əlaqədar

## Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qələbəsi şərəfinə təsis edilmiş Zəfər Günü bu il noyabrın 8-də ilk dəfə qeyd ediləcəkdir. Azərbaycan xalqının və dövlətinin qüdrətinin rəmzinə çevrilmiş bu möhtəşəm Zəfərin tarixi əhəmiyyəti bir əsrin hüdudlarına sığmır.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə birlikdə, son iki yüz ilə yaxın dövrdə Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilmiş və xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələ həll edilmişdir.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində çar Rusiyası Araz çayından şimalda yerləşən Azərbaycan xanlıqlarını işğal etdikdən sonra bölgənin etnik mənzərəsini dəyişdirib öz dayaqlarını möhkəmləndirmək üçün bütün XIX əsr boyu İrandan və Türkiyədən 1 milyondan çox ermənini Cənubi Qafqaza köçürmüşdür. Bölgənin demoqrafik mənzərəsinin dəyişdirilməsi ilə yanaşı, erməni dini-ideoloji ekspansiyasına da rəvac verilmişdir. 1836-cı ildə çar hökuməti Qarabağdakı alban xristian kilsəsini erməni kilsəsinə tabe etmişdir. Bundan sonra Eçmiədzin erməni kilsəsi albanların etnik-mədəni irsini, alban ədəbiyyatını və tarixini öz adına çıxaraq mənimsəmişdir.

XIX əsrin sonlarına yaxın erməni şovinistləri "Armenakan", "Hnçak" və "Daşnaksütyun" kimi millətçi partiyalar yaradaraq dənizdən-dənizə "böyük Ermənistan" mifi ilə bağlı ideyanın həyata keçirilməsinə silahlı mübarizə və terror yolu ilə zəmin hazırlamağa başlamışlar. 1905-1907-ci illərdə, habelə 1918-ci ildə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Göyçədə və digər yerlərdə azərbaycanlılara kütləvi şəkildə divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıqla öldürmüşlər. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur. Azərbaycanlılardan təmizlənən ərazilər 1918-ci ildə müstəqilliyini elan etmiş Ermənistan Respublikasına qatılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur Ermənistanın tərkibinə daxil edilmiş, nəticədə onun ərazisi 9,8 min kvadratkilometrdən 29,8 min kvadratkilometrə çatdırılmışdır.

Azərbaycanlılara qarşı düşmənçilik siyasəti sovet hakimiyyəti illərində də davam etdirilmişdir. Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində ermənilər üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdir. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR-in hakim dairələri 1948-1953-cü illərdə Ermənistandan yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar. Azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq ruhunda tərbiyə edilmişdir. Erməni "alim"lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, erməni dövlətinin olmayan tarixi uydurulmuş, Cənubi Qafqazda baş verən hadisələr bilərəkdən təhrif edilmişdir.

Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün Ermənistanın 1988-ci ildə başladığı, 1992-ci ildə isə miqyasını genişləndirdiyi etnik təmizləmə siyasəti və işğalçılıq müharibəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulmuşdur. Azərbaycanlılara qarşı milli nifrət və düşmənçilikdən qaynaqlanan ağır cinayət aktları həyata keçirilmiş, XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı, bir sıra digər qətliam əməlləri törədilmişdir.

1994-cü ilin mayında münaqişənin sülh yolu ilə həllinə şərait yaratmaq məqsədi ilə Ermənistanla Azərbaycan arasındakı cəbhə xəttində atəşkəs elan olunduqdan sonra Ermənistan rəhbərliyinin bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir. Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnaməyə, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, digər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri qətnamələrə etinasızlıq göstərilmişdir. Münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlardan Azərbaycan torpaqlarının işğalının nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir.

Ermənistan rəhbərliyi cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmağa cəhdlər göstərmişdir. Bu məqsədlə 2016-cı ilin aprel ayında, 2020-ci ilin iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törədilmişdir. Həmin təxribatlara cavab olaraq Azərbaycan Respublikasının gördüyü tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxarmışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa və ədalətli sülh əldə etməyə hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistan müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatlar və hərəkətlər işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır.

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi hərbi Zəfər siyasi müstəvidə qazanılan qələbə ilə tamamlanmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoymuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Müasir dövrün tələbləri səviyyəsində qurulmuş sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə və Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevirmişdir. 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başlanmış, son 18 ildə uğurla davam etdirilmiş hərbi siyasət Azərbaycan Silahlı Qüvvələrini yüksək standartlar əsasında inkişaf etdirərək dünyanın 50 ən güclü ordusu sırasına çıxarmağa imkan vermişdir.

Bütün bu amillər, eləcə də iqtidarla xalq arasında mövcud olan sarsılmaz birlik Ermənistan-Azərbaycan münaqişəsinin həllini təmin etmişdir. Erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə, işğalçılıq və ekspansionizm siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilmiş və tarixi ədalət bərpa olunmuşdur.

8 Noyabr Zəfəri Müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsi olmuşdur. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Qüdrətli Azərbaycan yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin möhtəşəm Zəfəri təkcə bizim ölkəmizin deyil, həm də bütün Cənubi Qafqaz bölgəsinin əmin-amanlığı və inkişafı üçün yeni imkanlar yaratmışdır. Bu imkanların reallaşması üçün Azərbaycan Respublikası Ermənistan Respublikası ilə beynəlxalq hüquq prinsiplərinə və normalarına uyğun olaraq, bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və bunlara hörmət edilməsi əsasında normal qonşuluq münasibətləri qurmağa hazırdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, beynəlxalq ictimaiyyət Ermənistanı Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü hədəf alan qisasçı ritorikaya və hərəkətlərə son verərək, yuxarıda göstərilən əsasda Azərbaycanla ikitərəfli münasibətlər qurmaq istiqamətində konstruktiv addımlar atmağa sövq etmək üçün təsirli tədbirlər görməlidir.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il 5 noyabr tarixli iclasında qəbul edilmişdir)*

# 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi,

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əzəli torpaqlarımız olan Qarabağı və Şərqi Zəngəzuru uzun sürən işğaldan azad etdiyini böyük qürur hissi ilə xatırlayaraq,

2020-ci il noyabrın 8-də Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olan Şuşa şəhərinin qəhrəman Azərbaycan övladlarının hədsiz Vətən sevgisi və şücaəti sayəsində düşmən əsarətindən azad edilməsinin müharibənin gedişində həlledici rol oynadığını və Ermənistan Respublikasının təslim olması ilə nəticələndiyini vurğulayaraq,

8 noyabr tarixinin həmçinin uzun illər işğal altında olan torpaqlarımızın azad edilməsi üçün misilsiz səylər göstərmiş ümummilli lider Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gün olduğunu məmnunluqla yada salaraq,

Vətən müharibəsi dövründə yüksək əzm, möhkəm iradə, vahid amal ətrafında birləşmək, bütün gücünü və imkanlarını səfərbər etmək, əsgərinə, şəhid və qazilərinə sonsuz ehtiram kimi ali xüsusiyyətlərini nümayiş etdirmiş Azərbaycan xalqının özünəgüvən hissinin və qələbə ruhunun Zəfər Günü ilə daha da yüksəldiyini xüsusi qeyd edərək,

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi ilə bərqərar olmuş ədalət və hüququn aliliyi ideallarının hər bir dövlət və cəmiyyət üçün əhəmiyyətini vurğulayaraq,

humanizm ənənələrini davam etdirərək, cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad olunacaq şəxslərin dövlətimizin rifahına və inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək,

Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı bu qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 8 Noyabr - Zəfər Günü münasibətilə aşağıdakı amnistiyanın elan edilməsini qərara alır:

### I. Amnistiya tətbiq edilən şəxslərin dairəsi

1. Təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq aşağıdakı məhkumlar müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla):

1.1. Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.2. Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslər;

1.3. bu Qərar qüvvəyə mindiyi günədək, o cümlədən Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumları;

1.4. Xocalı soyqırımında əlil olmuş şəxslər, həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.5. 1948-1953-cü və 1988-1992-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş şəxslər;

1.6. 1988-1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşmüş şəxslər;

1.7. 1990-cı il 20 Yanvar faciəsində əlil olmuş şəxslər və ya şəhid olmuş şəxslərin yaxın qohumları;

1.8. Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ-nin Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.9. İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ-nin Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, habelə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş şəxslər;

1.10. keçmiş SSRİ dövründə siyasi repressiyaya məruz qalmış, sonradan səlahiyyətli orqanların qərarları ilə bəraət almış şəxslər və onların yaxın qohumları;

1.11. Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş və onlara himayəçilik edən şəxslər (himayəçilik qanunvericiliklə nəzərdə tutulmuş qaydada müəyyən olunmuşdursa);

1.12. qadınlar;

1.13. cinayət törədərkən 18 yaşına çatmamış şəxslər;

1.14. bu Qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər;

1.15. bu Qərar qüvvəyə mindiyi günədək birinci və ya ikinci dərəcə əlilliyi olan şəxslər;

1.16. öhdəsində (himayəsində) yetkinlik yaşına çatmayan övladı, yaxud birinci və ya ikinci dərəcə əlil övladı olan şəxslər, o cümlədən bu Qərarın qüvvəyə mindiyi günədək atalığı, övladlığa götürməsi, qəyyumluğu və himayəçiliyi qanunvericiliklə nəzərdə tutulmuş qaydada müəyyən olunmuş şəxslər.

2. Bu Qərarın 1-ci hissəsində göstərilən şəxslərdən başqa, aşağıdakı məhkumlar cəzalardan azad edilsinlər (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla):

2.1. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.2. bu Qərarın 2.1-ci bəndində göstərilən şəxslərdən başqa, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər;

2.3. bu Qərarın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulan şəxslərdən başqa, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər;

2.4. bu Qərarın 2.2-ci və 2.3-cü bəndlərində göstərilən şəxslərdən başqa, az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər;

2.5. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.6. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.7. hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza təyin edilmiş şəxslər;

2.8. islah işləri növündə cəza təyin edilmiş şəxslər;

2.9. ictimai işlər növündə cəza təyin edilmiş şəxslər;

2.10. əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası təyin edilmiş şəxslər;

2.11. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə əsas cəza kimi cərimə cəzası təyin edilmiş şəxslər, habelə əsas və ya əlavə cəza kimi iki min manatdan artıq olmayan miqdarda cərimə cəzası təyin edilmiş və ya bu Qərarın tətbiq edildiyi gün cərimə cəzasının ödənilməmiş hissəsi iki min manatdan artıq olmayan şəxslər;

2.12. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər;

2.13. azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

3. Aşağıdakı məhkumlar, bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla cəzalardan azad edilsinlər:

3.1. bu Qərarın 2.6-cı bəndində göstərilən şəxslərdən başqa, intizam xarakterli hərbi hissədə saxlama cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər;

3.2. bu Qərarın 2.12-ci bəndində göstərilən şəxslərdən başqa, azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

4. Bu Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan şəxslərdən başqa, 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzalarının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olduqda, çəkilməmiş cəza 6 ay azaldılsın (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

5. Bu Qərarın 2.5-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olduqda, çəkilməmiş cəza 1 il azaldılsın (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

6. Bu Qərar əsasında əsas cəzadan azad edilən şəxslər əlavə cəza kimi təyin edilmiş müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

7. Bu Qərar əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluq götürülsün.

8. Bu Qərarın 1.1-1.16-cı bəndlərində göstərilən şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər haqqında təhqiqat və ibtidai istintaq orqanları tərəfindən amnistiya tətbiq olunaraq cinayət təqibi başlanmır, başlanılmış cinayət təqibinə isə xitam verilir (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

9. Məhkəmələr:

9.1. icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə bu Qərarın 1.1-1.16-cı bəndlərində göstərilən şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər barəsində cinayət təqibinə xitam verir və ya həmin şəxsləri təyin edilmiş cəzadan azad etməklə ittiham hökmü çıxarır (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2. bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiyanın tətbiq edildiyi günədək apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə:

9.2.1. bu Qərarın 1-ci, 3-cü və 6-cı hissələrində nəzərdə tutulmuş şəxsləri təyin edilmiş cəzadan azad edir (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2.2. bu Qərarın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsləri təyin edilmiş cəzadan azad edir (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2.3. bu Qərarın 4-cü və 5-ci hissələrində nəzərdə tutulmuş şəxslərin cəzalarını azaldır (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.3. icraatlarında olan apellyasiya və ya kassasiya şikayətləri (protestləri) üzrə işlərə baxarkən bu Qərarın 9.1-ci və 9.2-ci bəndlərinin müddəalarına müvafiq olaraq amnistiya tətbiq edir.

### II. Amnistiyanın tətbiqinə məhdudiyyətlər

10. "Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 1994-cü il 24 fevral tarixli 793 nömrəli Qanununda nəzərdə tutulmuş şəxslər barəsində amnistiya tətbiq edilmir.

11. Bu Qərarın 1-ci, 3-cü, 6-cı və 8-ci hissələri, 9.1-ci bəndi və 9.2.1-ci yarımbəndi aşağıdakı şəxslər barəsində tətbiq edilmir:

11.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulmuş ağır və xüsusilə ağır cinayətlərə, həmçinin Cinayət Məcəlləsinin 101, 115.1, 122.2, 124.1, 124.2, 125, 127.2, 133.2, 136.3, 137, 138.2-138.4, 139.2, 139-1, 140.2, 140.4, 141.4, 142.3, 145.2, 146.2, 150.1, 151, 152, 153, 159.4, 162.2, 162.3, 167-1.3-167-1.5, 167-2.2, 167-3, 168, 168-1.2, 168-1.3, 169.2, 170.1, 170.2, 171.1, 171-1.1, 172, 176-1, 177.1, 177.2, 178.2, 179.2, 180.1, 180.2, 182.1, 183.1, 185.2, 186.2, 188.3, 189-1.4, 192.2, 192.3, 192-1.3, 192-2.1, 192-2.2, 192-2.4, 192-2.5, 193.2, 193.3, 193-1.1, 194.2, 195-2.2, 199.2, 200.4, 200-1.3, 200-2.3, 201.2, 204.1, 205, 205-1, 206.1-206.2, 207, 208, 209.2, 209.3, 213.2, 213.3, 213-1, 214-2, 220.2, 221.2, 221.3, 222.3, 222-1.3, 222-2.2, 223.2, 224, 224-1, 224-2, 225.2, 226.3, 227.1, 227.2, 227-1, 228.1, 228.2, 229.1, 229.2, 232.1, 233, 233-1.1, 233-4.2, 233-4.3, 234.1, 234.2, 234.3, 235.1, 235.2, 236.1, 238.1, 240.1-240.2, 243.2, 244.2, 244-1.2, 245, 247, 248.2, 250.3, 251.3, 252.3, 253.2, 254.3, 255.2, 256.3, 258.3, 259.2, 259.3, 260.2, 260.3, 262.2, 263.2, 263-1.1, 263-1.2, 264, 265.2, 265-1.2, 266.2, 267.3, 268.2, 270-1.3, 271.3, 272.3, 273.4, 281.1, 283, 283-1.4, 284.1, 284-1, 285, 288.1-288.3, 290, 291, 292.2, 292.2-1, 294.2, 294.3, 295.1, 296.2, 297.2, 299.3, 299.4, 301.2, 302.2, 302.3, 304.2, 306, 307.3, 308, 308-1, 308-2.4, 309.1, 312.1, 312-1, 314.2, 314.3, 314-1.1, 314-2.2, 314-3.2, 314-3.3, 315, 316.2, 316-1.3, 317.1, 317.2, 317-1.2, 318, 318-1.2, 319.2, 320, 321.2, 328.2, 328.3, 329.1, 329.2, 330.1-330.3, 332.1-2, 332.2, 335.3, 336, 338.2, 339.2, 340.2, 341.2, 342.1-1, 342.2, 344.1, 346.1, 348.2, 349, 350.2, 351.2, 352.1 və 353.1-ci maddələrində, habelə "Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2006-cı il 7 aprel tarixli 92-IIIQD nömrəli Qanunu ilə sanksiyaları ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.1-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 405-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 610-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-2.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1231-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 5 aprel tarixli 184-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 199-cu maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 199.3-cü maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 315.1-ci və 315.2-ci maddələrində və həmin Qanunla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 335-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 335.2-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

11.2. 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-1-ci maddəsində nəzərdə tutulmuş ağır cinayətlərə, habelə həmin Məcəllənin 69-cu maddəsinin ikinci hissəsi, 93-5-ci maddəsinin birinci hissəsi, 93-6-cı maddəsinin birinci hissəsi, 93-9-cu maddəsinin ikinci hissəsi, 100-cü maddəsinin birinci hissəsi, 113-cü maddəsinin ikinci hissəsi, 114-cü maddəsinin dördüncü hissəsi, 120-ci maddəsinin ikinci hissəsi, 126-cı maddəsi, 171-ci maddəsinin birinci hissəsi, 178-ci maddəsinin ikinci hissəsi, 185-ci maddəsi, 208-ci maddəsinin ikinci və üçüncü hissələri, 220-ci maddəsinin birinci və üçüncü hissələri, 229-cu maddəsinin birinci hissəsində, 241-ci maddəsinin "q" bəndində və 255-1-ci maddəsinin "v" və "q" bəndlərində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

11.3. "Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və digər məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 1998-ci il 7 aprel tarixli 463-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 83-cü maddənin üçüncü və dördüncü hissələri, 88-ci, 88-1-ci, 91-ci maddənin ikinci və üçüncü hissələri, 143-cü maddəsinin üçüncü və dördüncü hissələri, 145-ci, 147-ci maddənin üçüncü hissəsi, həmçinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə bəzi dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 1996-cı il 29 may tarixli 90-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 60-cı, 65-ci və 191-1-ci maddələrlə məhkum olunmuş şəxslər;

11.4. bu Qərar tətbiq olunanadək maddi ziyanı tam ödəməmiş şəxslər;

11.5. təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum olunmuş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər;

11.6. 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən cinayət törətmiş şəxslər;

11.7. cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslər.

### III. Amnistiya aktının hüquqi qüvvəsi

12. Bu Qərar qəbul olunduğu gündən qüvvəyə minir.

13. Bu Qərarın 1-7-ci hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş, həmçinin həmin tarixədək qüvvəyə minmiş məhkəmə qərarları əsasında cəza təyin edilmiş və ya şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmiş şəxslər, habelə bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş şəxslər barəsində tətbiq edilir.

14. Bu Qərarın 8-ci və 9-cu hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək cinayət törətmiş şəxslər barəsində tətbiq edilir.

15. Bu Qərarın 16-cı hissəsində nəzərdə tutulmuş şəxslər istisna olmaqla, uzanan və ya davam edən cinayətlər amnistiya aktı qüvvəyə mindiyi günədək bitmədikdə onları törətmiş şəxslərə amnistiya şamil edilmir.

16. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321.1-ci, 333.1-333.4-1-ci və 334.1-ci maddələrində nəzərdə tutulmuş cinayətləri bu Qərar qüvvəyə mindiyi günədək törətmiş şəxslərə, bu Qərar qüvvəyə mindiyi gündən dörd ay müddətində onların könüllü gəlmələri qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirildiyi və ya həmin şəxslər tutulduğu hallarda, amnistiya şamil edilir.

17. Bu Qərar qüvvəyə mindikdən sonra hökmün və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında məhkumun cəzasının çəkilməmiş hissəsinin azalması və ya şəxsin digər şəkildə hüquqi vəziyyətinin dəyişməsi (bu Qərarın 2.11-ci və 11.4-cü bəndlərində nəzərdə tutulmuş hallar, habelə bu Qərar qanuni qüvvəyə mindiyi günədək qüvvəyə minmiş yeni cinayət qanununun tətbiqi ilə əlaqədar şəxsin vəziyyətinin yaxşılaşması halı istisna olmaqla) həmin şəxs barəsində bu Qərara əsasən amnistiyanın tətbiqi üçün əsas deyildir.

18. Bu Qərarın cəzanın çəkilməmiş hissəsinə dair müddəaları cinayətlərin və ya hökmlərin məcmusu üzrə qəti cəzanın çəkilməmiş hissəsini nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2-ci maddəsi üzrə biri digəri ilə toplanaraq müstəqil icra edilən əsas cəzalardan hər hansı biri bu Qərar qüvvəyə mindiyi gün onun təsiri altına düşmürsə, bu Qərara əsasən amnistiya tətbiq edilmir.

19. Cinayətlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsində ittiham olunan şəxsin, eləcə də cinayətlərin və ya hökmlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsinə görə məhkum edilmiş şəxsin müvafiq olaraq ittiham və ya məhkum edildiyi cinayətlərdən birinə görə amnistiyanın tətbiqi bu Qərarın müddəaları ilə məhdudlaşdırılmışdırsa, ona amnistiya tətbiq edilmir.

20. Bu Qərara əsasən amnistiya tətbiq edilməsi ittiham hökmlərinin və ya digər qərarların qanuniliyinin, əsaslılığının və ya ədalətliliyinin yuxarı instansiya məhkəmələrində mübahisələndirilməsinə mane olmur.

21. Bu Qərar Azərbaycan Respublikasında tanınan xarici dövlətlərin məhkəmələrinin hökmləri ilə məhkum edilmiş və cəzasını Azərbaycan Respublikasında çəkən şəxslərə də şamil edilir.

22. Barələrində amnistiya tətbiq olunmuş çağırışçıların və hərbi qulluqçuların müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış və hərbi xidmət məsələləri qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

### IV. Amnistiyanın tətbiqi qaydaları

23. Amnistiya Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinin tələblərinə uyğun olaraq aşağıdakı orqanlar tərəfindən tətbiq edilir:

23.1. cəzaçəkmə müəssisələri - bu Qərarın 1-ci hissəsində, 2.1-ci, 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.2. intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı - bu Qərarın 2.6-cı, 2.7-ci və 3.1-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.3. icra məmurları - bu Qərarın 2.8-ci, 2.9-cu, 2.10-cu və 2.11-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.4. təhqiqat və ya ibtidai istintaq orqanları - bu Qərarın 8-ci hissəsində nəzərdə tutulan şəxslər barəsində;

23.5. məhkəmələr - bu Qərarın 2.5-ci, 2.12-ci, 2.13-cü və 3.2-ci bəndlərində, 4-cü, 5-ci, 6-cı və 9-cu hissələrində nəzərdə tutulan şəxslər barəsində.

24. Bu Qərarın 23.1-23.4-cü bəndlərində nəzərdə tutulmuş orqanlar amnistiyanın tətbiq edilməsi barədə qərarları müvafiq prokurorların razılığı ilə qəbul etməlidirlər.

25. Təhqiqat və ya ibtidai istintaq orqanları amnistiya tətbiq edərkən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş cinayət təqibinə xitam verilməsi qaydalarına riayət etməli, o cümlədən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə müvafiq olaraq barəsində amnistiya tətbiq olunacaq şəxslərin razılığını almalıdırlar.

26. Bu Qərarın 2.5-ci, 2.12-ci, 2.13-cü və 3.2-ci bəndlərində, 5-ci və 6-cı hissələrində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların üzərində nəzarəti həyata keçirən orqanların müraciəti əsasında məhkumun yaşayış yeri üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

27. Bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların cəza çəkdikləri cəzaçəkmə müəssisələrinin müraciəti əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

28. Birinci instansiya məhkəmələrinin icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə amnistiyanın tətbiqi məsələlərinə baxılarkən cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olduqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsinə əsasən cinayət təqibinə xitam verilməsi haqqında qərar qəbul edilir, amnistiya tətbiq edilməklə cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olmadıqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 44.2-ci maddəsinə əsasən şəxsə təyin edilmiş cəzadan onu azad etməklə ittiham hökmü çıxarır.

29. Apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə cinayət prosesi tərəflərinin müraciətinə əsasən hökmü çıxarmış birinci instansiya məhkəmələri tərəfindən baxılır. Bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə bu Qərarın 23.1-23.3-cü bəndlərində, 26-cı və 27-ci hissələrində nəzərdə tutulmuş orqanlar tərəfindən baxılır.

30. Apellyasiya şikayəti və ya protesti verilmiş qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiya həmin şikayətlərə və ya protestlərə apellyasiya instansiyası məhkəmələrində baxılarkən tətbiq edilir.

31. Kassasiya şikayəti və ya protesti verilmiş məhkəmə qərarları üzrə məhkumlara bu Qərara uyğun olaraq amnistiya tətbiq edilməmişdirsə, onların şikayətlərinə və ya protestlərə kassasiya instansiyası məhkəməsində baxılarkən amnistiya tətbiq edilir.

32. Bu Qərarın 26-cı, 27-ci və 29-cu hissələrində nəzərdə tutulmuş qaydada amnistiyanın tətbiqi məsələlərinə baxarkən, məhkəmələr Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üçün nəzərdə tutulmuş tələblərə riayət etməlidirlər.

33. Məhkəmələr tərəfindən amnistiyanın tətbiqi məsələlərinə baxılarkən məhkəmə iclasında müvafiq prokurorun və müdafiə tərəfinin iştirakı ilə bağlı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində müəyyən edilmiş qaydalara riayət edilməlidir.

34. Bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

35. Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər amnistiyanın tətbiqi barədə qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tətbiqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir.

36. Alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 45-ci hissəsində nəzərdə tutulmuş müddətdə baxılmalı, həmin şəxslərin cəzadan azad edilməsi məsələsi isə müalicə başa çatdıqdan sonra həll edilməlidir (şəxsin zöhrəvi xəstəliklərdən müalicəsini qurtarmasının təsdiqi üçün əsas - tibbi rəy, məhkəmənin alkoqolizmdən və ya narkomaniyadan məcburi müalicə təyin etdiyi şəxslər barəsində isə belə əsas məcburi müalicənin ləğvi və ya məcburi müalicə təyin edilmiş şəxs məcburi müalicədən vaxtından əvvəl azad edilməsi barədə məhkəmənin qərarıdır).

37. Barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən vərəm xəstəliyinə tutulmuş şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada səhiyyə qurumlarının nəzarəti ilə 10 gün müddətində yaşayış yeri üzrə vərəm əleyhinə tibb müəssisələrində qeydiyyata alınır və müalicələrini davam etdirirlər.

38. Anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbir təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 45-ci hissəsində nəzərdə tutulmuş müddətdə baxılmalı, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.2-95.0.4-cü maddələrinə əsasən psixiatriya stasionarlarında məcburi müalicə təyin olunmuş şəxslərin cəzadan azad edilməsi məsələsi isə məhkəmə qərarı ilə psixiatriya stasionarlarında məcburi müalicə ləğv edildikdən və ya dəyişdirilərək məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin edildikdən sonra həll edilməli, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.1-ci maddəsinə əsasən məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin olunmuş şəxslər amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edildikdə qanunvericiliklə müəyyən edilmiş qaydada səhiyyə qurumlarının nəzarəti ilə 10 gün müddətində yaşayış yeri üzrə müvafiq tibb müəssisələrində qeydiyyata alınmalı və müalicələri davam etdirilməlidir.

39. Əvvəllər amnistiya və ya əfvetmə aktları ilə cəzasının müddəti azaldılmış şəxslərə bu Qərar tətbiq edilərkən onların cəzasının çəkilməmiş müddətləri həmin aktlar nəzərə alınmaqla hesablanır.

40. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 175-177-ci maddələrinin tələblərinə uyğun olaraq, bu Qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyasının, onlara yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməlidir.

41. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Qərarın tətbiqi ilə bağlı zərurət yarandıqda amnistiyanı tətbiq edən orqanın müraciəti əsasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izah verir.

42. Amnistiyanı tətbiq edən orqanlar cəzadan azad edilmiş şəxslər barəsində bu Qərarın 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə amnistiyanın tətbiqi barədə qərarın surətini 7 gün ərzində cinayətlərin vahid statistikasını aparan daxili işlər orqanlarına göndərməlidirlər.

43. Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi ilə əlaqədar şəxsin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada şikayət etmək hüququ vardır.

44. Bu Qərarın 23.2-ci bəndində göstərilən "hərbi hissələr" dedikdə, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın çəkildiyi yerlər, bu Qərarın 26-cı hissəsində göstərilən "məhkumların üzərində nəzarəti həyata keçirən orqanlar" dedikdə isə azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslərə nəzarəti həyata keçirən icra məmurları, habelə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti həyata keçirən icra məmurları və müvafiq olaraq hərbi qulluqçular üzərində nəzarəti həyata keçirən hərbi hissələrin və ya müəssisələrin komandanlığı başa düşülür.

45. Bu Qərarın 23.1-23.4-cü bəndlərində nəzərdə tutulmuş orqanlar bu Qərar qüvvəyə mindiyi gündən 4 ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər.

*Sahibə QAFAROVA,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin Sədri*

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# ADA Universitetində “44 günlük Zəfər yolu” mövzusunda konfrans-sərgi keçirilib





Noyabrın 5-də ADA Universitetində “44 günlük Zəfər yolu” mövzusunda konfrans-sərgi keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən rektor Hafiz Paşayev ADA Universitetinin Qarabağ mövzusunda çoxsaylı tədbirlər keçirdiyini deyib. Bildirib ki, bu konfrans tamamilə başqa mahiyyət kəsb edir. Biz bu gün xalqımızı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzu, özümüzü Qələbə münasibətilə təbrik edə bilirik.

“Mən ABŞ-da səfir olduğum illərdə fəaliyyətimi ABŞ Konqresinin 907 saylı düzəlişinin aradan qaldırılması istiqamətində səylərə həsr etmişəm. Çünki işğala məruz qaldığımız halda sanksiya ilə üzləşmişdik. Axı torpaqları işğal altında olan, əhalisi yerindən, yurdundan didərgin salınan mənim millətim idi, haqsız günahlandırılan üzərinə sanksiyalar qoyulan, hər cür yardımdan məhrum olunan da mənim xalqım idi. Niyə? Nəyə görə? Bu suallara təxminən 30 ildən sonra 44 günlük müharibədə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı cavab verdi”, - deyə rektor diqqətə çatdırıb.

Bir il bundan əvvəl başlayan müharibənin çox şərəfli bir Qələbə ilə yekunlaşdığını vurğulayan Hafiz Paşayev deyib: “Zəfərin bizə verdiyi imkanlardan istifadə etməliyik. Biz görürük ki, Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan proqram üzrə işlər necə məharətlə, sürətə gedir. Qələbə, əlbəttə, ilkin addımdır, ondan sonra biz gərək o həyatı bərpa edək, sülh üzərində çalışaq. Biz Azərbaycan xalqı kimi, xüsusilə gənclər bu Qələbəyə, şərəfli Zəfərimizə layiq olmalıyıq, onu möhkəmləndirməliyik. Çalışmalıyıq ki, o ağrılı tarix bir daha təkrarlanmasın”.

Xarici işlər naziri Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi ədaləti bərpa edərək 30 illik işğala son qoydu. Dörd il müddətində işğal edilən torpaqlarımızı 44 günlük müharibə ilə azad etdik. Azərbaycan Ordusu böyük qəhrəmanlıq, şücaət göstərərək tariximizin ən şanlı səhifəsini yazdı.

Ölkəmizin müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərdən danışan nazir bildirib ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyev fenomeni ətrafında birləşərək bütün çətinliklərin öhdəsindən gəldi. Azərbaycan cəmiyyəti öz milli dəyərlərinə sadiq qaldı. Uğur hekayəsinin əsası məhz həmin dövrdə qoyuldu.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan olunandan sonra 26 illik nisbi sülh prosesində danışıqlar gedib, mütəmadi görüşlər keçirilib, müzakirələr aparılıb. Siyasi danışıqlar, onların inkişaf tendensiyası göz önündə olub. Azərbaycan bütün illər ərzində danışıqlar prosesinə sadiq qalıb və problemin sülh yolu ilə həllinə çalışıb. 2020-ci il sentyabrın 27-də isə Ermənistanın Azərbaycana qarşı təxribatı daha geniş müstəviyə keçib. Bunun nəticəsində Azərbaycan BMT Nizamnaməsinə əsasən əks-hücum əməliyyatına başladı. Biz bunun ilk gündən Vətən müharibəsi olduğunu bildirdik. Azərbaycan əsgəri öz torpağında döyüşdü, sərhədlərini bərpa etdi. Azərbaycan beynəlxalq humanitar hüquqa uyğun müharibə apardı.

Xarici işlər naziri deyib ki, bu gün Azərbaycanın əsas məqsədi işğaldan azad edilmiş ərazilərə soydaşlarımızın qaytarılmasıdır. Bu ərazilərə səfər edən insanları iki məqam təəccübləndirir. Həmin ərazilərdə törədilən dağıntının miqyası və qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanının tikilərək istifadəyə verilməsi, Zəngilan və Laçında hava limanlarının inşasına başlanması, yolların tikilməsi, şəhərlərin baş planlarının təsdiqlənməsi. Biz qısa müddət sonra ilk sakinlərin torpaqlarına qayıtmasına nail olacağıq.

Mina xəritələrini gizlətməyin, Azərbaycana verməməyin çox cılız, insanlıqdan uzaq yanaşma olduğunu deyən nazir vurğulayıb: “Səkkiz ay ərzində ərazisini 1200 minadan təmizləyərək Füzuli Beynəlxalq Hava Limanını tikdiyimiz kimi, bundan sonra da quruculuq işlərimizi davam etdirəcəyik”. O, həmçinin qeyd edib ki, Azərbaycan humanitar hüquqa uyğun olaraq indiyə qədər 1700-dək erməni hərbçinin cəsədini təhvil verib. Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 min azərbaycanlının taleyindən isə hələ də heç bir xəbər yoxdur.

Konfransda çıxış edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, artıq Azərbaycanın milli təqvimində 8 Noyabr - Zəfər Günü var. Buna görə Ali Baş Komandanımız başda olmaqla, Azərbaycan Ordusuna, xalqımıza təşəkkür edirik.

Hikmət Hacıyev qeyd edib ki, 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasından sonra Cənubi Qafqazda regional siyasət köklü surətdə dəyişib. Artıq biz yeni Cənubi Qafqaz yaradırıq. Burada Azərbaycan Respublikasının Milli təhlükəsizlik doktrinası da əsaslı şəkildə dəyişib. Nəzərə almaq lazımdır ki, müstəqilliyinin ilk günündən Azərbaycanın milli təhlükəsizlik gündəliyində torpaqlarının işğal altında olması məsələsi başlıca yer tuturdu.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etdiyi torpaqlarında bərpa-quruculuq işləri həyata keçirir. Son 25-30 il ərzində dünya postmünaqişə dövründə və minalanmış ərazilərdə bu miqyasda bərpa-quruculuq işləri aparılmayıb. Dünyada postmünaqişə dövründə əsasən beynəlxalq təşkilatlar bu işlərə cəlb edilir. Lakin Azərbaycan işğaldan azad etdiyi torpaqların bərpasını bilavasitə öz imkanları hesabına həyata keçirir. Azərbaycan tamamilə dağıdılan 9-dan çox şəhəri yenidən qurmaq əzmindədir.

O bildirib ki, Azərbaycan qonşu Ermənistanla sülh qurmaq istəyir, buna hazırdır. O şərtlə ki, hər iki ölkə bir-birinin suverenliyini, ərazi bütövlüyünü tanısın. Dağlıq Qarabağ məsələsi artıq başa çatıb. Qarabağ bizim daxili siyasətimizdir, məsələmizdir. Ermənistan qəbul etməlidir ki, regionda vəziyyət dəyişib, bu ölkə Azərbaycana qarşı torpaq iddialarından əl çəkməlidir. Əgər İkinci Dünya müharibəsindən sonra Fransa ilə Almaniya arasında belə sülh müqaviləsi imzalanıbsa, Azərbaycanla Ermənistan arasında niyə imzalanmamalıdır? İki ölkə arasında münasibətlər bərpa olunmalıdır. Bütün beynəlxalq ictimaiyyəti bu istiqamətdə addım atmağa səsləyirik.

Tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçısı Vasif Dilavərzadə Azərbaycan hərbçilərinin şücaətindən danışıb, Ali Baş Komandana təşəkkürünü bildirib.

Türkiyə Altınbaş Universitetinin rektoru, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Çağrı Ərhan söyləyib ki, Vətən müharibəsi dövründə Türkiyədə yaşayış məntəqələrində Azərbaycan və Türkiyə bayraqları yan-yana dalğalanırdı. İşğaldan azad edilmiş ərazilərdə gördüyü dağıntılardan danışan Çağrı Ərhan dünyanın heç yerində belə səhnələrin şahidi olmadığını söyləyib. Qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə bir dənə salamat bina qalmayıb. Ermənistanın müharibə dövründə mülki əhaliyə qarşı əməlləri beynəlxalq tribunala çıxarılmalıdır. O, əlavə edib ki, Qarabağ münaqişəsi artıq həll olunub, Qarabağ Azərbaycanın tərkib hissəsidir, Qarabağ Azərbaycanın daxili işidir. Ölkələr qonşularının ərazi bütövlüyünə, sərhədlərinə hörmətlə yanaşmalıdır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bu cür əsassız addımlar aradan qaldırılmayanadək sülhə nail ola bilmərik.

Rusiyanın “Milli müdafiə” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsinin ilk günlərində Rusiya Azərbaycan və Ermənistanla yaxşı münasibətlərdən istifadə edərək müharibəni dayandırmağa çalışıb. Ermənistanın məğlubiyyətinin qaçılmaz olduğunu gördükdən sonra bu ölkənin baş naziri Nikol Paşinyan müvafiq sənədi imzalamağı razılaşdı. Bu gün Rusiya bölgədə uğurlu sülhyaratma missiyası həyata keçirir. Ermənistanın 30 il ərzində işğal etdiyi ərazilərdə törətdiyi dağıntılardan danışan hərbi ekspert, həmçinin bu ölkənin Azərbaycanın böyük şəhərlərini ballistik raketlərdən atəşə tutduğunu xatırladıb.

Prezident İlham Əliyevin böyük dövlət xadimi olduğunu vurğulayan rusiyalı ekspert Azərbaycan xalqına sülh və rifah arzulayıb.

Konfransda Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, yerli və xarici mediaya müsahibələri, Vətən müharibəsindən sonra azad edilmiş ərazilərə səfərləri, müsahibələri əsasında hazırlanmış və Azərbaycan Ordusuna həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Konfrans çərçivəsində həmçinin Qarabağ Dirçəliş Fondu və “E-Media” şirkətinin dəstəyi ilə “Qarabağ işğaldan öncə, işğalda və azad olunandan 1 il sonra” mövzusunda sərgi nümayiş etdirilib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Zəfər gününə həsr edilmiş “Qarabağnamə” əsərinin təqdimatı olub




Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı və “ABC CONTENT” MMC-nin maliyyə dəstəyi ilə Xalq rəssamı Sakit Məmmədovun 8 Noyabr - Zəfər Gününə həsr edilmiş “Qarabağnamə” əsərinin təqdimat mərasimi keçirilib.



Mərasimdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müzəffər Azərbaycan xalqının nümayəndələri, qüdrətli və qalib Azərbaycan dövlətinin vətəndaşları kimi qürurlu və şərəfli günlər yaşayırıq. 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədaləti və milli qürurumuzu bərpa etmişik, dünyaya xalq və dövlət olaraq öz gücümüzü, əzmimizi və iradəmizi göstərmişik. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin son 18 il ərzində milli maraqları rəhbər tutaraq həyata keçirdiyi istər daxili, istərsə də xarici siyasət Azərbaycanı tərəqqiyə və Qələbəyə aparan ən mühüm amil olub. Şübhəsiz ki, Zəfər günümüz həm müstəqillik dövrünün, həm də xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi - ən parlaq səhifəsidir. Bu, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Qələbə dastanıdır, Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir.

Azərbaycanın tolerant və multikultural ölkə olduğunu, respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşadığını deyən YAP Sədrinin müavini qeyd edib: “Azərbaycan vətəndaşlarının, milli-etnik və dini mənsubiyyətindən asılı olmayaraq, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşərək döyüş meydanına atılması, gənclərin Vətənin bütövlüyü uğrunda mübarizəyə qatılması milli həmrəyliyin daha bir bariz nümunəsi oldu. 44 günlük Zəfər yürüşünün nəticəsi olan möhtəşəm Qələbə Azərbaycan dövlətinin milli gücünü, xalqımızın sarsılmaz həmrəyliyini və mübarizə əzmini - bütün dünyaya nümayiş etdirdi! Azərbaycan xalqı eyni zamanda bəşəri dəyərlərə, dünya mədəniyyətinə həmişə həssaslıqla yanaşıb, ölkəmiz mədəniyyətlərarası dialoq məkanı kimi özünü təsdiq edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə apardığı işlər, göstərdiyi xidmət mütərəqqi dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır və yüksək qiymətləndirilir. Bugünkü sərgi də deyilənlərin bariz sübutu, bir azərbaycanlı rəssamın dünya ölkələrinin mədəniyyətinə baxışının və dəyərinin təzahürüdür. Artıq Zəfər siyasətinin quruculuq mərhələsi başlayıb. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı, nəhəng bərpa-quruculuq prosesinə start verilib. Hədəf Qarabağı və Şərqi Zəngəzuru nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl guşələrindən birinə çevirməkdir. Azərbaycan dövlətinin siyasi və iqtisadi qüdrəti, xalqımızın həmrəyliyi bu hədəfə çatmağa imkan verir. Bu strateji məqsəd əsasında görülən işlər isə Azərbaycanın tərəqqisində yeni mərhələnin başlanması, dövlətimizin qüdrətinin artması deməkdir”.

“Əlbəttə, Azərbaycan xalqının Zəfər salnaməsi - Qələbə dastanı təkcə tarixçilərin və siyasətşünasların araşdırma-tədqiqat predmeti deyil. Bu Zəfər həm də müstəsna mənəvi əhəmiyyətə malik olduğu üçün sənət adamlarının xüsusi diqqət mərkəzindədir. Möhtəşəm Qələbəmizin ekranlaşdırılması, onun haqqında əsərlərin, o cümlədən rəsm əsərlərinin ərsəyə gətirilməsi və digər yaradıcılıq işləri bu tarixi hadisənin ictimai yaddaşda - milli təfəkkürdə əbədiləşdirilməsi baxımından çox önəmlidir. Ona görə də Xalq rəssamı Sakit Məmmədovun 8 Noyabr - Zəfər Gününə həsr edilmiş “Qarabağnamə” əsərinin təqdimatı Qələbəmizin, mədəniyyətimizin təbliği, xalqımızın yaradıcılıq, vətənpərvərlik ruhunun gücləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Düşünürəm ki, bu tədbir də yeni yaradıcılıq nümunələrinin ərsəyə gəlməsinə kiçik də olsa stimul verəcək”, - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

Tahir Budaqov qeyd edib ki, böyük zəfər yolunda Azərbaycan Türkiyə dövləti və xalqı ilə birlikdə addımlayıb. “Bu Qələbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, qardaş ölkənin xalqı və rəsmi dairələrinin güclü mənəvi, siyasi dəstəyi çox böyük rol oynayıb. Türkiyənin qardaş dəstəyi Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanıb. Postmüharibə dövründə də işğaldan azad olunmuş ərazilərimizin bərpasında biz yenə də Türkiyə dövləti və xalqı ilə bir yerdə addımlayırıq. Çox şadam ki, bu tədbirimizdə Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini hörmətli Binəli Yıldırım və onun başçılıq etdiyi nümayəndə heyəti də iştirak edir”, - deyə Tahir Budaqov bildirib.

YAP Mərkəzi Aparatının rəhbəri çıxışının sonunda 8 Noyabr - Zəfər günü münasibətilə Azərbaycan xalqını, bütün türk dünyasını təbrik edib, Azərbaycana və Türkiyəyə daim sülh, əmin-amanlıq və rifah arzulayıb.

Sonra çıxış edən Xalq rəssamı, “Qarabağnamə” əsərinin müəllifi Sakit Məmmədov tədbir iştirakçılarını salamlayaraq Zəfər gününün ikiqat sevincini yaşadığını bildirib. O deyib: “Çünki həm Zəfər bayramımızı qeyd edirik, həm də əsərimin təqdimatı keçirilir. Bu əsəri təxminən 1 il ərzində ərsəyə gətirdim və bu Qələbəni yaşaya-yaşaya “Qarabağnamə”ni yaratdım. Əsərdə türk dünyasının elementləri var. Burada həm Azərbaycanın, həm də bütün türk dünyasının keçmişi, bu günü və gələcəyi əksini tapır. Dahi Heydər Əliyevin obrazı isə əsərin zirvəsində yer alır. Ulu Öndər Heydər Əliyev elə bir böyük siyasi məktəb qoyub getdi ki, bu məktəbdən rəssamlar da bəhrələnirlər”.

Xalq rəssamı qeyd edib ki, Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Prezident İlham Əliyev ötən dövrdə çox uğurlu siyasət həyata keçirib. Belə bir məşhur deyim var ki, ordu güclüdürsə, amma onun rəhbəri zəifdirsə, bu ordu məğlub olacaq. Əgər rəhbər güclüdürsə, o zaman ordu qalib gələcək. Bizim də Prezident İlham Əliyev kimi müdrik Liderimiz olduğu üçün müharibədə qalib gəldik.

S.Məmmədov mərasimdə 24 ölkənin rəmzlərinin, mədəni abidələrinin və milli ənənələrinin əksini tapdığı 24 əsərin də nümayiş olunduğunu diqqətə çatdırıb.

Mərasimdə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova deyib ki, Xalq rəssamı Sakit Məmmədovun yaratdığı əsər Zəfər salnaməsinin və hər birimizin Qarabağla döyünən ürəyinin təcəssümüdür. Rəssam əsəri bilavasitə Qələbənin təəssüratları ilə yaşayaraq yaradıb. İrimiqyaslı tablonun hər bir nöqtəsi Zəfərin duyğusu ilə doludur. Ənənəvi “Qarabağnamə”lər konseptindən çıxış edərək burada Qarabağın tarixi, onun tanınan simvolikası, ölkəmizdə və onun hüdudlarından kənarda Qarabağın yeri və əhəmiyyəti vurğulanır. Qarabağın qədim köklərə əsaslanan tarixinin əsas məqamları yaddaşımızın dərinliklərində yaşayan obrazlar, simvollar, kodlar vasitəsilə təsviri interpretasiyasını bu əsərdə tapır. Rəssamın ifadə dili eklektikdir. Burada realistik təsvirlərlə yanaşı, tarix alleqoriyalar, müəllif reministensiyaları və fərdi üslub, opalizmin təcəssümü izlənir.

Sənətşünas alim diqqətə çatdırıb ki, əsərin ideyası müharibənin 44 günü ərzində formalaşıb. Bütöv kompozisiya isə rəssamın fərdi yaradıcılıq təxəyyülündə bir il ərzində tamamlanıb. Çoxsaylı seqmentlərdən təşkil olunan kompozisiyada Sakit Məmmədov hər bir obrazı və yaxud abidəni, süjeti aid olduğu dövrün mühüm hadisələri kontekstində, eyni zamanda universal, dünya mahiyyətli rəmz qismində təqdim edir. Konstruktiv baxımdan kompozisiya aşağı plandan yuxarıya doğru dinamikanın artması ilə həll olunub. Bu üsulla rəssam əsərin ideyasını - Zəfərin təntənəsini Qarabağın tarixi prizmasından açıqlayır və koloristik baxımdan tamamlayır. Əsərin zirvəsində yerləşən və bütün kompozisiyanı birləşdirən obraz ulu öndər Heydər Əliyevdir. Onun portret həllində Sakit Məmmədov müəllif reministensiyalarını vurğulayır və 2018-ci ildə yaratdığı bədii-plastik həlli xatırladır. Üslubi baxımdan əsərin səthi həllində Ulu Öndərin portreti ən işıqlı seqmenti təşkil edir və nisbətən dərin perspektivdə verilib. Onun daim Azərbaycanın mühafizi, himayədarı olması ideyası rəssam tərəfindən maraqlı rakursla vurğulanır. Əsərin mərkəz xəttini tamamlayan bu əzəmətli obrazın sağında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin portreti təsvir olunub. Rəssam onun obrazını dövlətçilik tariximizə işarə edən rəmzi təsvirlərlə əhatə edir, lakin Prezidentin təsviri realistikdir, aydındır. Bu da onun yolunun açıq-aydın olmasının, Zəfərimizin ədalətinin, Ali Baş Komandanın fərdi cəsarətinin, siyasi nüfuzunun, iradəsinin təzahürüdür.

Mərasimdə çıxış edən Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım ötən ilin bu günlərində Azərbaycanda səfərdə olduğunu xatırladaraq deyib: “Həmin günlər İkinci Qarabağ müharibəsinin son günləri idi. Səfərimizdən üç gün sonra Şuşanın azad edildiyi və Qarabağ müharibəsinin Zəfərlə nəticələndiyi xəbərini böyük məmnuniyyətlə öyrəndik. Azərbaycanın qazandığı Zəfər eyni zamanda bizim də qələbəmizdir. Türkiyə xalqı 84 milyon bacı və qardaşımız sizinlə birlikdə bu Zəfəri doya-doya yaşadı. Təbii ki, bu Qələbə asan qazanılmayıb, arxasında 30 illik bir hekayə var. Haqsız yerə, beynəlxalq konvensiyalara, qaydalara əməl etməyərək Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi, 1 milyona yaxın insanın doğma yurdlarından didərgin düşməsi Azərbaycanın qanayan yarası, kədəri idi. Mustafa Kamal Atatürkün söylədiyi kimi, “Qarabağın sevinci bizim sevincimiz, Qarabağın kədəri bizim kədərimizdir”. Otuzillik işğal dövrünü birlikdə yaşadıq. Bu günlər Azərbaycan paytaxtında “COVID-19-dan sonrakı dünya” mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir. Bu konfransda da qeyd etdiyimiz kimi, əgər Birləşmiş Millətlər Təşkilatı qlobal problemlərin həlli yollarını tapa biləcək bir struktur olsaydı, bu işğalın 30 il davam etməsi mümkün olmazdı. Qərarlar verilir, amma yerinə yetirilmir. Müəyyən heyətlər yaradılır, toplantılar keçirilir, “haqlısınız” deyirlər, amma nəticə yoxdur. Belə olan halda Azərbaycan xalqı və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev “artıq bu məsələnin həllini uzatmaq lazım deyil” dedi. Nəhayət, Zəfərlə nəticələnən 44 günlük müharibə başladı. Müharibə zamanı biz də sizin kimi eyni həyəcanı yaşadıq. Mənəvi dəstəyimizi, dualarımızı əskik etmədik, qardaşlarımızın Zəfəri üçün tək ürək olduq. Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” tezisi 44 günlük müharibədə ən gözəl formada təsdiqini tapdı. Bu müharibədə həyatını bayrağı, Vətəni, azanların susmaması üçün fəda edən bütün şəhidlərə bir daha Allahdan rəhmət diləyirəm. Məkanları cənnət, məqamları ali olsun. Qazilərə Allahdan şəfa və uzun ömür arzulayıram”.

Bu gün Azərbaycan xalqının bu möhtəşəm Zəfərin qürurunu ən gözəl şəkildə yaşadığını qeyd edən Binəli Yıldırım söyləyib: “Biz də bu gün bu qürura ortaq olmaq üçün millət vəkilləri ilə birlikdə Azərbaycandayıq. Türkiyənin iqtidar partiyası olan Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr gündən-günə inkişaf edir. Partiyalar birlikdə fəaliyyət göstərir, layihələr həyata keçirir, qarşılıqlı səfərlər təşkil olunur. Məqsəd Azərbaycan və Türkiyə xalqlarının qardaşlığını, əməkdaşlığını gücləndirmək, regionda artıq müharibə deyil, sülhü və rifahı təmin etməkdir. Gələn həftə İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçiriləcək. Prezident İlham Əliyev Türk Şurasına sədrliyi türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana təhvil verəcək. Beləliklə, Türkiyə də bölgədə üzərinə düşən vəzifəni ən yaxşı şəkildə yerinə yetirəcək”.

Mərasimdə möhtəşəm əsərləri nümayiş etdirilən Xalq rəssamı Sakit Məmmədova təşəkkür edən AK Parti Sədrinin birinci müavini bu əsərlərin hər birinin dərin izahı olduğunu söyləyib. Onun fikrincə, bu, əslində, Azərbaycan və Türkiyə xalqlarının tarixinin kətan üzərində əksidir, keçmişdən gələcəyə mesajdır.

Daha sonra mərasim iştirakçıları Xalq rəssamı Sakit Məmmədovun “Qarabağnamə” əsəri və təqdim olunan digər əsərləri ilə tanış olublar.

# Türk Şurasının qarşıdan gələn Zirvə görüşünə hazırlıqla bağlı fikir mübadiləsi aparılıb



Noyabrın 5-də xarici işlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər Türk Şurasının qarşıdan gələn Zirvə görüşü və yüksək səviyyəli tədbir öncəsində keçiriləcək toplantılara hazırlıq, bu çərçivədə qəbul olunacaq sənədlərlə bağlı fikir mübadiləsi aparıblar.

Baş katib Bağdad Amreyev Prezident İlham Əliyevlə keçirilmiş görüşə məmnunluqla istinad edib və təşkilatın cari sədri qismində Azərbaycanın dövlət başçısı tərəfindən verilən tapşırıqlarla bağlı qeydlərin götürüldüyünü bildirib.

Nazir Ceyhun Bayramov Türk Şurası ilə əməkdaşlığın Azərbaycan üçün əhəmiyyət kəsb etdiyini vurğulayıb və sədrliyi dövründə görülən işlərin bunun bariz göstəricisi olduğunu qeyd edib. Bu müddət ərzində Türk Şurası Katibliyinin fəaliyyəti məmnunluqla vurğulanıb.

Görüş zamanı həmçinin təşkilatın gündəliyində duran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Zəfəri gətirən 17 il və onun dərsləri



**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədə qazanılan böyük qələbədən bir il keçir. Azərbaycan, region və dünya üçün əhəmiyyət daşıyan bu Zəfərə gətirən yol necə olub?**
**Zəfərdən sonra görülən işlər nəyi sübut edir?**
**Keçilən yoldan alınacaq ibrət dərsləri hansılardır?**

> "Biz son 17 il ərzində, doğrudan da, tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər".
>
> **İlham ƏLİYEV**

## 17 ilin siyasi tarixinə qısa baxış

Məlum olduğu kimi, müharibədə qələbə 44 gündə qazanılsa da, Azərbaycan Respublikası ona uzun illər boyu sistemli şəkildə bütün sahələrdə hazırlaşmış və uğurlu nəticə üçün zəmin yaratmışdı. Azərbaycan dövlətinin uzunmüddətli səbirli, inamlı, ədalətli xətti və döyüş meydanındakı hərbi strategiyası işğalçı Ermənistana sarsıdıcı zərbə vuraraq qalib gəldi. Bəs Azərbaycan milləti və dövlətini zəfərə gətirən son 17 ilin siyasi tarixinin ümumi mənzərəsi necə olub?

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsi ilə ölkə həyatında yeni inkişaf mərhələsi başladı. Ümummilli Lider Heydər Əliyev əgər Azərbaycan dövlətini qurmuş və möhkəm təməllər üzərində oturtmuşdusa, Prezident İlham Əliyev qarşıda qoyulan başlıca məqsədi ölkəni müasirləşdirmək və daha da gücləndirməklə rəqabətə davamlı etmək, vətəndaşlar üçün bərabər imkanlar və daha yaxşı həyat şəraiti yaratmaq, dövlətin müdafiə qüdrətini artırmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək kimi müəyyənləşdirdi. Müasirləşmə Azərbaycan dövlətinin beynəlxalq rəqabətliliyini artırmaqda, millətin həyat səviyyəsini daha da yaxşılaşdırmaqda və işğal altında olan ərazilərin azad edilməsində bir vasitə oldu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatı ölkə, millət və Azərbaycan dövlətinin dostları üçün ağır itki olsa da, onun əsasını qoyduğu siyasətin davam etdirilməsi vətəndaşlarda, qonşu ölkələrdə rahatlıq, gələcəyə nikbinlik və əminlik yaratdı. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin daha da gücləndirilməsindən ötrü geniş tədbirlər müəyyənləşdirildi. İlk növbədə, ölkədə siyasi sistemin təkmilləşdirilməsi sahəsində islahatlar aparıldı. Parlament seçkilərində tətbiq edilən proporsional və majoritar seçki sistemləri qarışıqlıq yaratdığından yalnız majoritar sistemə keçirildi. Qanunverici orqana 2005-ci ildə majoritar sistem əsasında keçirilən seçkilərin nəticəsində müxtəlif partiyaların nümayəndələrinin təmsil olunduğu çoxpartiyalı parlament formalaşdı.

Ölkə qarşısında dayanan başlıca məqsəd və vəzifələri həyata keçirmək üçün fəal xarici siyasət xətti yürüdüldü. Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı ikitərəfli qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxaran vacib sənədlər imzalandı və müqavilə-hüquqi baza möhkəmləndirildi. Azərbaycan dövlətinin dostlarının, tərəfdaşlarının sayı artdı və beynəlxalq mövqeləri gücləndi.

Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsindən ötrü geniş diplomatik-siyasi fəaliyyət göstərildi və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təməli qoyuldu. Bununla da ərazisinin bir sıra ölkələrdən kiçik və əhalisinin isə az olmasına baxmayaraq, Azərbaycan Respublikasının dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı və yüksəlməkdə olan, bir zamanlar Napoleonun "Asiyanın yatmış aslanı" adlandırdığı Çin və Cənub-Şərqi Asiya ölkələri arasında vacib tranzit, körpü rolunu oynaması istiqamətində tarixi addım atıldı. Beynəlxalq fəaliyyətini daha da genişləndirən Azərbaycan dövlətinin birləşdirici dünya gücü halına gəlməsindən ötrü tədbirlər görüldü, səmərəli faydalı əməkdaşlıq quruldu.

Azərbaycan xalqının Ümummilli Liderinin vəfatından sonra onun irsini qoruyub saxlamaq, gənc nəslə təbliğ etmək və yaşatmaq məqsədi ilə Heydər Əliyev Fondu yaradıldı. Ölkənin birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi fond təhsil, səhiyyə, gənclərin fiziki sağlamlığı, Azərbaycan haqqında, işğalçı Ermənistanın Xocalıda törətdiyi soyqırıma dair gerçəklərin dünyada tanıdılmasında fəaliyyət göstərdi. Geniş beynəlxalq əlaqələr quran və dünyanın müxtəlif ölkələrində xeyriyyə işlərində iştirak edən fondun fəaliyyəti "mədəniyyət diplomatiyası" və "zərif, yumşaq güc" kimi Azərbaycan dövlətinin qarşıya qoyduğu başlıca məqsədə - işğal altında olan ərazilərin azad edilməsində, uydurma erməni təbliğatına ağır zərbə vurulmasında özünəməxsus rol oynadı.

Ölkənin ictimai-siyasi həyatında mühüm hadisə 2008-ci ildə rəqabət mühitində azad, ədalətli, bərabər, demokratik və şəffaf bir şəraitdə keçirilən prezident seçkiləri oldu. Seçicilər İlham Əliyevə yenidən etimad göstərməklə sabit, davamlı inkişafa və gələcəyə səs verdilər. Andiçmə mərasimində İlham Əliyev aşağıdakı qəti sözləri ilə Ermənistanı və onun havadarlarını birmənalı olaraq peşman etdi: *"... Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağa heç vaxt - nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır".*

Bundan sonra da ölkənin müasirləşdirilməsi və dövlətin qüdrətinin artırılması işləri davam etdirildi. Aparılan islahatlardan, inkişafdan doğan tələbat və dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi zərurəti Konstitusiyada əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirdi. 2009-cu ildə keçirilən referendumda təklif edilən əlavə və dəyişikliklər dəstəkləndi. Azərbaycan Respublikası Prezidentinin seçilməsinin iki müddətlə məhdudlaşdırılmasının aradan götürülməsi ən vacib dəyişikliklərdən biri oldu.

Geniş və səmərəli beynəlxalq fəaliyyət göstərən Azərbaycan Respublikası türk dövlətləri arasında əməkdaşlığın yeni formatda möhkəm təməllər üzərində qurulmasından ötrü səylər etdi. Türk Dövlətləri Şurası qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxardı. Türk xalqları və dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində xüsusi xidmətləri olan Prezident İlham Əliyev beynəlxalq toplantılarda onların haqq işini qətiyyətlə müdafiə etməklə gələcək türk dövlət və ictimai-siyasi xadimləri üçün bir örnək yaratdı. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Praqada keçirilən zirvə görüşündə Ermənistan rəhbəri Türkiyə əleyhinə uydurma fikirlər səsləndirərkən Prezident İlham Əliyev "Türkiyə burada yoxdur, mən varam" deyərək tutarlı cavab verməklə bütün türk dünyası tarixində bir ilk yaradaraq gələcək dövlət və ictimai xadimlərə belə vəziyyətlərdə necə davranmaq nümunəsi göstərdi.

Azərbaycan Respublikası sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun keçirildiyi məkana çevrildi. Dünyanın görkəmli din xadimləri Bakıda toplantılara qatılaraq fikir mübadiləsi etdilər və ölkədə müxtəlif konfessiyalar üçün yaradılmış təcrübəni öyrəndilər. Dünyada qarşıdurmaların artdığı bir zamanda Azərbaycan modelinin dünyaya təqdim edilməsi birgəyaşayış qaydalarını bilmək baxımından əhəmiyyətli oldu. Bu toplantılar eyni zamanda Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsədə çatmağa - işğala son qoymağa xidmət etdi.

Ölkədə aparılan çoxsahəli geniş və dərin islahatlar öz bəhrəsini verdi, dövlət daha da qüdrətli oldu, əhalinin həyat şəraiti yaxşılaşdı. Dövlət hakimiyyətinin qanadları, xalq və hakimiyyət arasında sıx birlik yarandı.

IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə 2010-cu ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatında mühüm səhifələrdən birini təşkil etdi. Təkcə müxtəlif siyasi partiyaların deyil, ölkənin görkəmli elm, təhsil və mədəniyyət xadimlərinin nümayəndələri də müstəqil olaraq Milli Məclisə seçildilər. Parlamentin ilk iclasında geniş nitq söyləyən Prezident İlham Əliyev ölkənin keçdiyi yolun başlıca xüsusiyyətlərini, aparılan islahatların məqsədlərini izah etdi, daxili və xarici siyasət sahəsində qarşıda dayanan vəzifələri müəyyənləşdirdi, bir daha bildirdi ki, başlıca məqsəd işğal altında olan torpaqların azad edilməsidir.

Azərbaycan Respublikasının beynəlxalq fəaliyyəti daha da genişləndirildi. Dövlət başçısının yürütdüyü uğurlu xarici siyasət nəticəsində 155 dövlətin səsi ilə Azərbaycan Respublikası 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu quruma üzv seçilməsi Azərbaycan dövlətinə və Prezidentinə olan inam, etimad, etibarın və yüksək beynəlxalq nüfuzun göstəricisi oldu. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edərək dünyanı narahat edən ən vacib məsələlər barəsində geniş nitq söylədi, beynəlxalq terrorizmə qarşı mübarizədə səyləri birləşdirməyin vacibliyini bildirdi, eyni zamanda Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri həll edilmədiyini, Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilmədiyini və bunun qurumun nüfuzuna mənfi təsir etdiyini vurğuladı. Təhlükəsizlik Şurasında iki dəfə sədrliyi müddətində Azərbaycan dövlətinin təşəbbüsü ilə dünyanın ən vacib məsələləri müzakirə olundu və müvafiq qətnamələr qəbul edildi. Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük, Prezident İlham Əliyevin quruma sədrlik edərək nitq söyləməsi Azərbaycan tarixində qürurverici bir ilk kimi diplomatiyanın parlaq səhifələrindən biridir.

Ölkədə siyasi islahatlar dərinləşdirildi. Eks-prezidentlər haqqında qanunun qəbul edilməsi ilə dövlətçilikdə yeni ənənə və siyasi mədəniyyətin əsası qoyuldu. Bu qanun Azərbaycan cəmiyyətində birliyin daha da möhkəmləndirilməsində mühüm rollardan birini oynadı.

Dövlətin və millətin qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü digər vacib addımlar atıldı. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi mükəmməl strategiyanın tərkib hissəsi kimi kosmosa Azərbaycan Respublikasının peykləri buraxıldı. Ölkə kosmik klubun üzvü oldu. Peyklərin fəaliyyəti Azərbaycan dövlətinin informasiya təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm vasitələrdən birinə çevrildi və eyni zamanda iqtisadi və kommersiya baxımından faydalar gətirdi. Peyklər torpaqların işğaldan azad edilməsi prosesində ölkəyə bir sıra üstün imkanlar verdi.

2013-cü ildə keçirilən prezident seçkiləri ölkə həyatında ən mühüm hadisə oldu. Azərbaycan xalqı Prezident İlham Əliyevə yenidən etimad göstərməklə həm əvvəlki illərdə yürüdülən siyasətə, həm də tərəqqiyə və sabit davamlı inkişafa səs verdi. Andiçmə mərasimində nitq söyləyən dövlət başçısı ölkə qarşısında dayanan başlıca məqsədin işğal altında qalan torpaqların azad edilməsi olduğunu vurğuladı və qəti şəkildə bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Dövlət başçısının səyləri nəticəsində bir neçə beynəlxalq layihənin əsası qoyuldu və həyata keçirilməsinə başlanıldı. "Cənub qaz dəhlizi", TAP və TANAP layihələrinin icrasına başlanılması Azərbaycan Respublikasının Avropanın enerji təhlükəsizliyində yerini möhkəmləndirdi və rolunu artırdı. Azərbaycan etibarlı tərəfdaş ölkə imicini daha da gücləndirdi.

V çağırış Azərbaycan Respublikası Milli Məclisinə 2015-ci ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatında vacib yer tutdu. Majoritar seçki sistemi əsasında formalaşan parlamentə müxtəlif siyasi partiyaların nümayəndələri və heç bir partiyanın üzvü olmayan nüfuzlu elm, təhsil və mədəniyyət xadimləri də seçildilər. Çoxpartiyalı parlamentin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkənin daxili və xarici siyasətinin qarşısında dayanan ən zəruri məsələləri diqqətə çatdırdı, təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin azad edilməsinin başlıca məqsəd olduğunu bir daha bəyan etdi. Bildirdi ki, Azərbaycan dövləti bütün vasitələrlə torpaqlarını işğalçılardan azad edəcəkdir.

İşğalçı Ermənistan münaqişənin həllindən ötrü yaradılmış Minsk qrupu çərçivəsində danışıqlardan boyun qaçırdı, 2016-cı ilin aprelin əvvəllərində Xocavənd-Füzuli, Tərtər-Ağdərə-Ağdam istiqamətində qanlı təxribatlar törədərək mülki obyektləri dağıtdı və bir neçə dinc sakini öldürdü. Təxribatlara son qoyulmasına dair Azərbaycan dövlətinin xəbərdarlıqları nəticə vermədiyindən işğalçı ölkəyə qəti cavab verilməsi barədə qərar qəbul edildi. Azərbaycan Ordusunun hücumu nəticəsində qısa müddət ərzində düşmən darmadağın edildi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində normal yaşayışı təmin etməyə imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi işğalçılardan azad olundu. Aprel döyüşlərində Azərbaycanın qələbəsi təkcə hərbi deyil, eyni zamanda iqtisadiyyatın, səmərəli dövlət idarəçiliyinin, cəmiyyətin sıx birliyinin, millətin yüksək milli-mənəvi və psixoloji ruhunun qələbəsi idi. Bu qələbədən sonra Ermənistan danışıqlar masasına qayıtmağa məcbur oldu.

Hərbi əməliyyatların gedişində Türkiyə və Pakistan Azərbaycanın haqq işini dəstəklədiklərini qəti şəkildə bəyan etdilər, Gürcüstan, Belarus və digər dövlətlər münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduqlarını bildirdilər. Aprel zəfəri 44 günlük müharibədə qazanılan qələbənin baş məşqi oldu.

Döyüşlər dayandırıldıqdan sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpasına dair tədbirlər haqqında sərəncam imzaladı. Qısa müddət ərzində kənddə yaşayış evləri tikildi, müasir infrastruktur yaradıldı, yol inşa edildi və Şuşadakı Aşağı Gövhər ağa məscidinin tipində məscid tikildi. Cocuq Mərcanlının bərpası Qarabağa Böyük qayıdışın əsasını qoydu. Bir daha aydın oldu ki, Azərbaycan dövləti ərazilərinin işğal altında qalması ilə barışmayacaq, onu azad edəcək və yenidən quraraq məcburi köçkünlərin daimi yaşayış yerlərinə təhlükəsiz qayıtmasını təmin edəcəkdir.

Təcavüzkar Ermənistan təxribatlarını Naxçıvan Muxtar Respublikası istiqamətində də davam etdirdi. Cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi Günnüt əməliyyatı nəticəsində düşmən işğal etdiyi bir sıra ərazilərdən qovuldu. Bununla da hərbi-strateji əhəmiyyətli İrəvan-Keşişkənd (Yexeqnadzor)-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı qazanıldı. Təcavüzkar ölkəyə ağır zərbənin vurulduğu Aprel döyüşləri torpaqların işğalçılardan azad edilməsində Azərbaycan dövlətinin qəti əzmini bir daha göstərdi və beynəlxalq mövqelərini möhkəmləndirdi.

Ölkənin inkişaf tələbinə uyğun olaraq siyasi sistemin təkmilləşdirilməsindən ötrü keçirilən konstitusiya referendumu nəticəsində əsas qanuna bir sıra əlavə, düzəliş və dəyişikliklər edildi. Azərbaycan Respublikası Milli Məclisinin vaxtından əvvəl buraxılması, növbədənkənar prezident seçkilərinin keçirilməsi və vitse-prezidentlik institutunun yaradılması təsbit edildi. Həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş ictimai-siyasi, humanitar fəaliyyəti ilə tanınmış Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bir müddət sonra Birinci vitse-prezident təyin edildi.

Prezident İlham Əliyevin nəhəng səyləri, Azərbaycan, Gürcüstan və Türkiyə arasında səmərəli əməkdaşlıq nəticəsində Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Bununla da Azərbaycan Avropa və Asiyanı birləşdirən mühüm beynəlxalq məntəqəyə, nəqliyyat-kommunikasiya qovşağına çevrildi, dünya siyasətində yeri möhkəmləndi və rolu artdı.

Bir sıra beynəlxalq və daxili şərtlər, habelə işğal altındakı torpaqların azad edilməsinə daha tez nail olmaq səbəbindən 2018-ci il fevralın 5-də növbədənkənar prezident seçkiləri keçirildi. Çoxlu namizədin iştirak etdiyi və bərabər imkanların yaradıldığı seçkilərdə seçicilər yenidən görkəmli dövlət və siyasi xadim İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdilər. Ölkə vətəndaşları bu dəfə də sabit, davamlı inkişafa və tərəqqiyə səs verdilər. Andiçmə mərasimində etdiyi nitqində dövlət başçısı torpaqların bütün vasitələrlə işğaldan azad ediləcəyini bir daha bəyan etdi. Bu məqsədlə hazırlıq işləri sürətləndirildi.

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi 2018-ci ildə tamam oldu. Cümhuriyyətin yubileyinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı müvafiq sərəncama uyğun olaraq ölkədə geniş tədbirlər həyata keçirildi və mayın 28-də Heydər Əliyev Mərkəzində qəbul təşkil edildi. Yubileyin keçirilməsi Azərbaycan Xalq Cümhuriyyəti irsinə verilən yüksək diqqət və qayğının göstəricisi oldu. Qəbulda nitq söyləyən ölkə rəhbəri Cümhuriyyətin qurulması, həyata keçirdiyi tədbirlər, süquta uğraması, sovet dövründə Azərbaycanın keçdiyi yol, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında 1990-cı ilin noyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya iclasında dövlət bayrağı kimi qəbul edilməsi, dövlət müstəqilliyinin bərpasından sonra ölkədə baş verən prosesləri və başqa məsələləri geniş təhlil etdi, qarşıda dayanan vəzifələri bəyan etdi, bir daha bildirdi ki, başlıca məqsəd torpaqların işğalçılardan azad edilməsidir.

Cümhuriyyət parlamentinin 100 illiyi ölkədə böyük təntənə ilə bayram edildi. 2018-ci ilin sentyabrında Milli Məclisdə dünyanın müxtəlif ölkələrindən parlament sədrlərinin və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda nitq söyləyən Prezident İlham Əliyevin müsəlman Şərqinin ilk demokratik Cümhuriyyətinin fəaliyyətini və dövlət müstəqilliyinin bərpasına gətirən yolu, Ümummilli Lider Heydər Əliyevin xüsusi xidmətlərini, Ermənistanın hərbi təcavüzünün nəticələrini geniş təhlil etməsinin və Azərbaycan dövlətinin işğalla heç bir zaman barışmayacağını bir daha bildirməsinin dünya ölkələrinin parlamentlərinə təsir baxımından əhəmiyyəti oldu.

Ölkədə dərinləşdirilən ardıcıl struktur və kadr islahatları öz bəhrəsini verdi. İdarəçilik çevik, səmərəli oldu, iqtisadiyyatda inkişaf baş verdi və əhalinin həyat şəraiti yaxşılaşdı.

Qarşıda dayanan başlıca məqsədə nail olmaq və qanunvericilik orqanının fəaliyyətini ölkədə aparılan islahatların sürətinə uyğunlaşdırmaq niyyəti ilə 2020-ci il fevralında majoritar qaydada növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyası parlamentdə yenə də çoxluq qazandı. İkinci yeri ölkənin ictimai həyatında mühüm rol oynayan görkəmli elm, təhsil və mədəniyyət xadimləri olan müstəqil namizədlər tutdular. Parlamentdə digər siyasi partiyaların da namizədləri təmsil olundular. Parlament sədrinin müavinləri, komitə sədrləri və müavinləri vəzifələrinə müstəqillərin və digər siyasi partiyaların nümayəndələri seçildi. Bu, ölkədə yeni siyasi mədəniyyətin formalaşması istiqamətində atılan addımlardan biri oldu. Milli Məclisin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev bildirdi ki, başlıca məqsəd təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsidir. Ölkədə yeni siyasi mədəniyyətin formalaşması səyləri də həmin məqsədə xidmət etdi.

Ermənistanın baş naziri N.Paşinyan siyasi avantüralarını davam etdirərək danışıqların formatını dəyişdirməyə səy göstərdi, Azərbaycanın işğal edilmiş ərazilərinə gələrək "Qarabağ Ermənistandır. Nöqtə" deməklə sülh prosesinə zərbə vurdu. Təcavüzkar ölkənin müdafiə naziri isə Azərbaycanın yeni ərazilərini işğal edəcəklərini açıq-aydın şəkildə bildirdi. 2019-cu ilin oktyabr ayında Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik toplantısında Ermənistanın baş naziri yenidən avantürist mövqeyini təkrar etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tutarlı cavablar verərək onu yerində oturtdu və Ermənistanda faşizmin, nasizmin qəhrəmanlaşdırılmasına diqqəti yönəltdi.

2020-ci ilin fevral ayında keçirilən Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən müzakirələrdə də Ermənistanın baş naziri tarixi gerçəklikləri saxtalaşdıran və beynəlxalq hüququ pozmağa yönəlmiş fikirləri ilə münaqişənin dinc yollarla nizama salınmasına tərəfdar olmadığını bir daha göstərdi. Azərbaycanın dövlət başçısı N.Paşinyanın bütün söylədiklərinin əsassız olduğunu sübut edərək onu rəzil vəziyyətə saldı. Ermənistan Münhendə sarsıdıcı diplomatik-siyasi zərbə aldı.

Koronavirus pandemiyasının dünyada yaratdığı ağır şəraitdən istifadə edən təcavüzkar Ermənistan Azərbaycan ilə dövlət sərhədinin Tovuz rayonu istiqamətində 2020-ci il iyulunda yeni hərbi təxribat törətdi. Ermənistan bununla Dağlıq Qarabağ münaqişəsindən, Azərbaycanın işğal edilmiş ərazilərindəki vəziyyətdən diqqəti yayındırmaq, işğalı "oldu-bitdi" kimi qələmə vermək, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətləri münaqişəyə cəlb etmək, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, TAP, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu, Böyük İpək yolunun keçdiyi Tovuz rayonuna yaxın ərazilərdəki yüksəklikləri tutub Azərbaycan Respublikasının Qərbə çıxışının qarşısını kəsmək və ölkə daxilindəki ağır şəraitdən ermənilərin diqqətini yayındırmaq niyyəti güdürdü. Bəzi ölkələr işğalçı Ermənistana silahlar göndərərək dəstək verdilər.

Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Təxribatın qarşısını alarkən Azərbaycan Ordusunun generalı, yüksəkrütbəli zabitləri və digər hərbçiləri qəhrəmancasına həlak oldular. İşğalçı ölkə geri oturduldu və yüksəklikləri tuta bilmədi. Beləliklə, işğalçı ölkə 2016-cı ilin aprelində aldığı ağır zərbədən sonra daha birini aldı.

Hərbi təxribatın gedişində Türkiyə, Pakistan və Əfqanıstan birmənalı olaraq Ermənistanın hərəkətlərini pisləyərək Azərbaycanın haqq işini və beynəlxalq hüquq normalarını müdafiə etdilər. Gürcüstan, Belarus, Ukrayna və başqa ölkələr, o cümlədən bəzi beynəlxalq təşkilatlar münaqişənin dinc siyasi yollarla həllinə tərəfdar olduqlarını bildirən bəyanatlar verdilər.

Azərbaycan Ordusuna dəstək məqsədilə Bakı küçələrinə çıxan insanlar dövlətin və silahlı qüvvələrin yanında olduqlarını bildirdilər. Bu aksiya millətin düşmənə nifrətinin, torpaqları işğaldan azad etmək istəyinin və qəti iradəsinin nümayişi oldu.

Hərbi təxribatın qarşısı alındıqdan sonra da bəzi dövlətlər Ermənistana silah və sursat göndərməkdə davam etdilər. Bu davranış beynəlxalq hüquq normalarını saya salmamağın və münaqişənin davam etdirilməsi istəyinin göstəricilərindən biri oldu.

Türkiyə və Azərbaycan arasında imzalanmış ikitərəfli sənədlərə əsasən, hər il keçirilən ənənəvi birgə hərbi təlimlər 2020-ci ildə Naxçıvanda və Azərbaycanın digər yerlərində keçirildi. Təlimlər Azərbaycan Ordusunun yüksək döyüş bacarığını və əzmini göstərdi.

Azərbaycan dövləti xarici siyasət sahəsində də fəallığını artırdı. Prezident İlham Əliyev BMT Baş Məclisinin yaradılmasının 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda Qoşulmama Hərəkatının sədri və Azərbaycanın dövlət başçısı olaraq nitq söylədi. İki hissədən ibarət olan nitqinin birinci hissəsində Prezident Qoşulmama Hərəkatının sədri kimi BMT-nin nüfuzunun artırılmasından ötrü təkliflərini söylədi, təşkilatın qəbul etdiyi qərarların yerinə yetirilməsinə nail olmağın vacibliyini vurğuladı, eyni zamanda koronavirus pandemiyası zamanı görülən işlərdən bəhs etdi.

Azərbaycan Respublikasının Prezidenti olaraq nitqində İlham Əliyev Ermənistanın hərbi təcavüzünü, nəticələrini, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədiyini və yeni hərbi təxribatlar törətdiyini diqqətə çatdırdı. Dövlət başçısı dünya birliyini Ermənistana qarşı tədbirlər görməyə və təcavüzkarı dayandırmağa çağıraraq bildirdi ki, baş verəcək hər hansı hadisə üçün məsuliyyət işğalçı ölkənin üzərinə düşür.

## Vətən müharibəsinin başlanması, xarakteri və gedişi

Münaqişənin dinc siyasi vasitələrlə həllindən boyun qaçıran Ermənistan yeni ərazilər işğal etmək məqsədilə həm dövlət sərhədində, həm də işğal edilmiş torpaqlarda təmas xəttində təxribatlar törətdi. Təcavüzkar ölkənin 2020-ci il sentyabrın 27-də Füzuli, Cəbrayıl, Ağdam, Tərtər, Goranboy istiqamətlərində təmas xəttində törətdiyi növbəti təxribatlar nəticəsində dinc insanlar öldürüldü və mülki obyektlərə ziyan vuruldu.

Azərbaycan tərəfi zəruri hərbi tədbirlər görməyə məcbur oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında düşmənə qətiyyətli cavab vermək və işğal altındakı torpaqları azad etmək uğrunda müharibəyə başlamaq barədə qərar qəbul edildi. Dövlət başçısı həmin gün xalqa müraciət edərək yaranmış şəraiti izah etdi, qəbul olunan qərarı çatdırdı, Azərbaycanın işinin haqq olduğunu və qələbə qazanacağını bildirdi. Prezidentin fərmanı ilə ölkədə hərbi vəziyyət elan edildi. Hərbi əməliyyatların başlanması üçün bütün məsuliyyət problemi dinc yollarla tənzimləməkdən boyun qaçıran və hərbi avantüralara əl atan işğalçı Ermənistanın üzərinə düşdü.

Bu müharibə Azərbaycan tərəfindən xarakterinə görə ədalətli, təcavüzkar Ermənistanın işğalı altında olan torpaqların azad edilməsi uğrunda Vətən müharibəsi idi.

Ermənistan tərəfindən isə müharibə ədalətsiz və işğalçılıq müharibəsi idi.

Azərbaycan Ordusu qısa müddətdə bir sıra əraziləri işğaldan azad etdi. Döyüşlər zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə alan hərbçilərə dövlət xüsusi qayğı göstərdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Hərbi Klinik Hospitalda hərbçilərə baş çəkərək vəziyyətləri ilə tanış oldular. Görüşdə çıxış edən dövlət başçısı Azərbaycan vətəndaşlarının yüksək milli vətənpərvərlik ruhundan, döyüşlərin gedişindən, dövlətin şəhid ailələrinə və qazilərə diqqət və qayğısından bəhs etdi, işğalçı Ermənistanın siyasətinin iç üzünü bir daha açdı, düşmənin əziləcəyini bildirdi.

*(ardı var)*

**Musa QASIMLI,**
*Milli Məclisin deputatı,*
*AMEA-nın müxbir üzvü, professor*

# Azərbaycan tarixinə əbədi yazılan tarix

**44 gün Azərbaycanın Zəfər tarixinin ən şanlı səhifəsidir. Bu Qələbəni bizə yaşadan şəhidlərimizə, qazilərimizə, Ali Baş Komandanımıza ömür boyu minnətdar olmalıyıq. Bu tarixi Qələbəni müxtəlif aspektlərdən qiymətləndirmək üçün həmin hadisələrin xronologiyasına diqqət edək.**

Otuz ilə yaxın davam edən mənasız danışıqlar artıq erməni xalqında eyforik bir vəziyyət yaratmışdı. Onlar öz mifoloji qəhrəmanlıqlarına özlərini inandırmış və bu sindrom sağalmaz bir mərhələyə qədəm qoymuşdur. Bu sindromun ən bariz nümunəsi isə Rusiya Federasiyasının Valday şəhərində baş verdi. Belə ki, "Valday" Beynəlxalq Diskussiya Kulubunun XVI illik iclasının (3 oktyabr 2019-cu il) plenar sessiyasında çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır nöqtə" deməklə danışıqlar formatının üstündən bir xətt çəkmişdir. Həmin sessiyada Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyana cavab olaraq bildirdi: "Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dilindən səsləndirilmiş "Qarabağ Azərbaycandır!" şüarı 44 günlük Vətən müharibəsinin əsas leytmotivinə çevrildi. Bu nidanın arxasında dayanan güc və iradə tarixə Zəfər salnaməsini yazdı.

Dünya artıq 2019-cu ilin sonlarından COVID-19 pandemiyasının təhlükələri ilə üzüzə qalmışdır. Belə bir həssas məqamda Ermənistan ordusunun silahlı qüvvələri 12 iyul 2020-ci il tarixdə Qarabağın sərhəd bölgəsindən yüz kilometrlərlə uzaqda yerləşən Tovuz rayonu ərazisindən irimiqyaslı hücum və təxribat həyata keçirdilər. Tovuz hadisələri təcavüzkarın nəinki ərazilərdən çəkilmək, hətta yeni ərazilər işğal etmək niyyətini bir daha təsdiq etdi. Hücum nəticəsində Azərbaycan Ordusunun 7 nəfər hərbçisi şəhid oldu.

### Tovuz hadisələrindən 27 sentyabradək olan zaman kəsiyi

Tovuz hadisələrindən sonra cənab Prezident İlham Əliyev yenə də öz sülhpərvər çağırışlarını davam etdirdi. Ermənistan tərəfini BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 30 aprel 1993-cü il tarixli 822 saylı, 29 iyul 1993-cü il 853 saylı, 14 oktyabr 1993-cü il tarixli 874 saylı, 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələrini icra etməyə çağırdı. Lakin Ermənistan öz işğalçı siyasətini davam etdirməyə təkid və Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid edirdi.

27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistanın bütün cəbhəboyu hücumuna qarşı Ali Baş Komandan İlham Əliyev əks-həmlə əməliyyatına başlanması barədə əmr verməklə Azərbaycan Zəfər salnaməsinin ən böyük imzasını atmış oldu.

27 sentyabr 2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir. İclasda Prezident deyir: "Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi mən müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır".

Çıxışın sonunda Ali Baş Komandan böyük inamla deyir: "Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun, Azərbaycan Ordusuna! Yaşasın, Azərbaycan!"

Emosional gərginlik dövrü olmasına baxmayaraq, Ali Baş Komandan çox böyük müdriklik və təmkinlə milli və beynəlxaq qanunvericilik normalarına əməl edilməsinə ciddi nəzarət edir və ardıcıllıqla zəruri addımlar atır.

Cənab İlham Əliyev 44 günlük müharibə dönəmində dövlət başçısı kimi iki fərqli keyfiyyətdə öz parlaq istedadını göstərdi: Mahir diplomat və hərbi sərkərdə.

Müharibə başlanandan bir gün sonra 28 sentyabr 2020-ci il tarixdə BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş oldu. Cənab İlham Əliyev BMT-nin Baş katibinə ölkəmizə qarşı törədilən təxribat barəsində dolğun məlumat verdi. Həmçinin Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirməsi barədə də qurum rəhbərinə məlumat verdi. Dövlət başçısı vurğuladı ki, Ermənistan tərəfi birinci dəfə deyil ki, belə hərbi təxribatlar törədir. Belə ki, işğalçı ölkə bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirib, avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd edib. Eyni zamanda Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır.

Ölkə Prezidenti bildirdi ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Heç kimə sirr deyil ki, müharibənin əsas qalibiyyətinin təmin olunmasında informasiya siyasətinin düzgün qurulması əsas rol oynayır. Ruh yüksəkliyinin qorunub saxlanmasında ön cəbhədən verilən xəbərlər müstəsna əhəmiyyətə malikdir. Bu məsələyə də cənab Ali Baş Komandan özü rəhbərlik etdi. Ali Baş Komandan Qələbənin təmin olunmasında hər bir ən kiçik bir ehtimalları belə gözardı etmədi. Hərbi əməliyyatlara rəhbərlik edən şəxs kimi hər dəqiqə müxtəlif informasiyaların əldə olunaraq təhlil və qərarlar qəbul edilməsi nə dərəcədə zəruri idisə, informasiya savaşı da bir o qədər vacib idi.

### Ali Baş Komandanın informasiya cəbhəsindəki fəaliyyəti xəbər savaşının əsas komponenti idi

44 günlük Vətən müharibəsi dönəmində Ali Baş Komandan, Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, işğalın mahiyyətini, səbəblərini sistemli şəkildə dünya auditoriyasının diqqətinə çatdırdı.

Dövlət başçısı İlham Əliyev müharibə dönəmində dünyanın diqqət mərkəzinə çevrildi. Bu məsələdə təkcə regional və beynəlxalq geosiyasi maraqlar deyil, cənab İlham Əliyevin şəxsi keyfiyyətləri, siyasi və diplomatik bacarığı müstəsna rol oynadı.

Prezident İlham Əliyev müharibədən sonra yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu müsahibələrin əhəmiyyəti barədə danışdı:

"Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Müharibə dönəmində ermənilər Azərbaycan tərəfindən xarici muzdlu əsgərlərin döyüşməsi, müharibənin xristian-müsəlman müharibəsi kimi təqdim etmək cəhdlərinə Prezidentin birbaşa müsahibələri bu yalançı təbliğata son qoydu. Həmçinin dünya ictimai rəyində cənab Ali Baş Komandanın nə dərəcədə hazırlıqlı siyasi xadim və müdrik diplomat olduğu bir daha təsdiqini tapdı.

Prezident İlham Əliyevin ərazilərimizin işğaldan azad olunması müjdəsini birbaşa televiziya ilə xalqa çatdırması, xalqla vahid bir orqanizm kimi həmahəng hərəkət etməsi Prezident-Xalq vəhdətinin təntənəsi idi. Həmin dönəmlərdə Prezidentin dilindən xalq dilində söylənmiş və dillər əzbəri olan "Qarabağ Azərbaycandır!", "İti qovan kimi", "Nə oldu Paşinyan?" fikirləri Qələbəyə yüksək emosional ovqat bəxş etdi.

### Hamının gözlədiyi an: Şuşanın azad olunması

Hər kəs həyəcanla bütün torpaqlarımızın, xüsusilə Azərbaycan xalqı üçün mənəvi dəyər daşıyan Şuşanın azad olunması xəbərini gözləyirdi. O tarixi gündən bir neçə gün əvvəl - 3 noyabr 2020-ci il tarixdə Ali Baş Komandan İlham Əliyevin "Ordumuz Şuşaya bir neçə addım yaxındır!" açıqlaması Azərbaycan xalqının qəlbində inamı və həyəcanı daha da artırdı. Azərbaycanın üçrəngli müqəddəs bayrağı artıq işğaldan azad olunmuş ərazilərimizdə dalğalanırdı. Lakin hər kəs həyəcanla Şuşanın azad edilməsini gözləyirdi.

8 noyabr 2020-ci ildə Ali Baş Komandan Şuşanın azad edilməsi xəbərini Azərbaycan xalqına xəbər verdi: " Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində səsləndirdiyi bu xoş xəbəri Azərbaycan xalqı böyük həyəcanla qarşıladı. İnsanlar küçələrə, meydanlara axışaraq böyük qürur və sevinc hissləri ilə paylaşdılar.

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Prezident İlham Əliyevin həmin günü Zəfər günü kimi Azərbaycan tarixinə əbədi yazdı.

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*




# Böhrandan intibaha doğru

*Bir ildir ki, hər bir azərbaycanlı, hamımız, sanki yeni bir həyat yaşayırıq. Ölkəmizin Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, güclü sərkərdə, istedadlı diplomat, cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 30 il həsrəti ilə yaşadığımız torpaqlarımızı işğaldan azad etdi.*



Bu möhtəşəm qələbəni düzgün dəyərləndirmək üçün onun köklərinə olan tarixi hadisələrə nəzər salmaq, torpaqlarımızın 20 faizinin zəbt edilməsi və uzun illər işğalda saxlanılması ilə bağlı sualların cavabını aydınlaşdırmaq faydalı olardı. 200 ildən artıqdır ki, torpaqlarımıza göz tikmiş ermənilər, tarixboyu azərbaycanlılara qarşı qanlı hadisələr, soyqırımlar törətmiş, lakin bu torpaqları özününküləşdirməyə nail ola bilməmişlər.

1992-ci ildə əsrin faciəsi adlanan Xocalı soyqırımı nəticəsində dinc əhali, qadınlar, uşaqlar, qocalar tələf olmuş, əsir götürülmüş, itkin düşmüşlər. Daşaltı, Qaradağlı, Umudlu, Ağdaban, Ballıqaya və başqa qəsəbə və kəndlərdə də soyqırımı hadisələri baş vermişdir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 300.000-dən çox, habelə zəbt olunmuş torpaqlarımızdan 600.000-dən çox soydaşımız 30 ilə yaxın qaçqın və məcburi köçkün ömrü yaşadı, bədnam ermənilərdən fərqli olaraq, dünyaya səpələnmədi, öz xalqına pənah gətirdi və respublikanın ayrı-ayrı rayonlarında qurulmuş düşərgələrə yerləşdirildilər.

1991-ci il 18 oktyabr tarixdə dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildi. Lakin bu illər xalqımızın tarixində çox ağır dövr idi. Hakimiyyəti zəbt etmiş səriştəsiz, demokratik dövlətçilikdən, xalqın taleyindən və maraqlarından uzaq olan qüvvələr, ölkəni qısa müddətdə dərin siyasi, iqtisadi, hərbi-siyasi böhrana, xaosa, dağıntılara məruz qoydular, vətəndaş müharibəsinə sürükləyərək, müstəqilliyimizi itirmək təhlükəsi yaratdılar. Bu vəziyyətdən istifadə edən ermənilər bir-birinin ardınca rayonlarımızı, ümumilikdə, ərazimizin 20 faizdən çoxunu zəbt etdilər, əhalini zorakılıqlara, silah gücü ilə əzablara məruz qoydular.

İnsanlar bu ağır, böhran vəziyyətindən çıxmaq üçün ümidlərini xilaskar kimi Heydər Əliyevə bağlamışdılar. Xalqın etibarını, inamını qazanmış Heydər Əliyev vəziyyəti nəinki idarə etmək, hətta ona nəzarət etməyi bacarmayan ovaxtkı hakimiyyətin xahişi, insanların təkidi ilə Bakıya qayıtdı. 1993-cü il 15 iyun tarixdə ikinci dəfə hakimiyyətə qayıtmış Heydər Əliyevi vətəndaşlarımız izdihamla qarşılamış və həmin tarixi dirçəlişə, qurtuluşa aparan gün adlandırmışlar. Əslində, bu, həqiqətən, dirçəlişə, böyük inkişafa, intibaha aparan yol idi. Heydər Əliyev hakimiyyətə gələn gündən dövlət quruculuğu, siyasi və iqtisadi islahatlar, inkişaf strategiyaları nəticəsində qısa müddətdə ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasına nail oldu. Torpaqlarımızın işğaldan azad olunması Ulu Öndəri narahat edən əsas məsələ olmuşdur. Odur ki, hakimiyyətə qayıtdıqdan bir neçə ay sonra Ermənistanla atəşkəs razılığına nail oldu. Heydər Əliyevin mühüm xidmətlərindən biri də müstəqil Azərbaycan Respublikasının güclü Ordusunun yaranması və inkişafı istiqamətində atdığı addımlar olmuşdur.

Xalqın qayğıları ilə yaşayan, onu 30 illik işğal əzablarından xilas edən Prezident İlham Əliyevdən mövcud şəraitə uyğun, zamanın qarşısında qoyduğu problemlərin həlli üçün yeni qərarlar, unikal strategiyalar, müasir taktikalar tələb edirdi. Prezidentimiz bu ağır imtahandan da uğurla çıxdı. Həmin problemlərin kökündə 30 ildən davam edən Qarabağ münaqişəsinin həlli zərurəti dayanmışdı.

Müharibə, ermənilərin təxribatları və Azərbaycan ərazisinin, dinc əhalinin atəşə tutulması davam edirdi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin münaqişənin sülh yolu ilə həll olunması, müharibənin dayandırılması, hətta təsdiqlənmiş cədvəl üzrə öz hərbi qüvvələrini və müxtəlif ölkələrdən cəlb etdikləri döyüşçülərlə tamamlanmış qeyri-qanuni dəstələri zəbt olunmuş Azərbaycan ərazilərindən çıxardığı halda müharibəyə son qoymağa təklif etsə də, erməni tərəfi heç bir sülh təşəbbüsü ilə razılaşmadan Azərbaycan şəhərlərini, qəsəbələrini, dinc əhalini atəşə tutmaqda davam edirdi.

2016-cı ilin aprel ayının ilk günlərində düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücüm əməliyyatları ilə dördgünlük döyüşlər nəticəsində Füzuli, Cəbrayıl, Tərtər rayonlarının bəzi ərazisini, bu ərazilərdə strateji əhəmiyyətli yüksəklikləri işğaldan azad etdi, minlərlə hektar ərazilər Azərbaycanın nəzarətinə keçdi.

2020-ci ilin iyul ayında Tovuz rayonunda ermənilərin növbəti təxribatları bu məqsədi daşıyırdı ki, Azərbaycan Ordusu Ermənistanın dövlət sərhədlərini pozsun və onunla uzunmüddətli hərbi əməkdaşlığı olan üçüncü dövləti müharibəyə cəlb etsin. Lakin Ali Baş Komandanın tapşırıqlarına dəqiqliklə riayət edən ordumuz əks-hücümlarında buna imkan vermədi, Prezidentin əmrini rəhbər tutaraq dinc əhaliyə atəş açmadı. Azğınlaşmış erməni hərbçilərinin dinc əhaliyə qarşı atışmaları, cəbhəboyu hücümları davam edirdi. Bu hadisələr İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirdi. Artıq xalqımızın səbir kasası dolmuş və 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə ordumuz əks-hücüma keçdi. Bir gün sonra Ali Baş Komandanımız ölkədə qismən səfərbərlik elan etdi. Beləliklə, 2020-ci il sentyabrın 27-si Vətən müharibəsi başladı. Xalqımız, ordumuz bu əmri böyük coşqu, sevinclə qarşıladı. Ölkənin bütün şəhər və rayonlarında hərbi səfərbərlik məntəqələri önündə orduya qoşulmaq, torpaqlarımızı işğaldan azad etmək üçün böyük izdiham, növbələr yarandı. Səfərbərliyə cəlb olunanların anaları, ataları, əhali çal-çağırla, xeyir-duaları ilə oğullarını Vətən uğrunda müharibəyə yola salırdılar.

Müharibənin ilk günlərindən strateji yüksəkliklər azad olundu, düşmənin müdafiə xətti, möhkəm istehkamları yarıldı, Tərtər rayonu, Suqovuşan (2020-ci ilə qədər Madagiz adlanmışdı) qəsəbəsi, Cəbrayıl şəhəri, Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli şəhəri, Qubadlı şəhəri, Qarabağın tacı, incisi adlandırılan Şuşa şəhəri azad edildi. Şuşanın azad edilməsi Vətən müharibəsində əldə olunan böyük qələbənin zirvəsini və müharibənin sonundan xəbər verdi.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri hərbi əməliyyatların dayandırılması barədə birgə Bəyanat imzaladılar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonunun ərazisi bir güllə atılmadan, döyüşlərsiz, itki vermədən azad olundu.

44 günlük Vətən müharibəsi günlərində Gəncə, Bərdə, Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Goranboy, Tərtər və Mingəçevirə dəfələrlə raket hücumları nəticəsində 11-i uşaq olmaqla 100-dən çox dinc əhali qətlə yetirildi, 450-dən çox insan yaralandı. Bu hərəkətləri ilə BMT-nin genosid aktının bəşəriyyətə qarşı cinayət olduğunu və onu törədənlərin cəzalandırılması haqqında qətnaməsi, müharibə zamanı dinc əhali ilə rəftarı qaydalarını tənzimləyən Helsinki, Genevrə Konvensiyaları və başqa beynəlxalq aktları öz hərbi əməliyyatları ilə daim kobudcasına pozan Ermənistana heç bir sanksiya, cəza tətbiq olunmadığından belə qeyri-insani rəftarı davam etdirməkdə idilər.

44 günlük Vətən müharibəsi günlərində torpaqlarımızın azad olunması ilə bağlı Ali Baş Komandan 11 dəfə xalqımıza müraciət edərək Qələbə müjdəsi ilə xoş ovqat, nitqi ilə xalq və ordunun əhvali-rühiyyəsində dönüş yaratdı. Hər azad olunmuş yaşayış məntəqəsində, strateji əhəmiyyətli yüksəklikdə cənab Prezidentin "Qarabağ bizimdir!" sözləri ilə üçrəngli bayrağımızın qaldırılması bir el bayramına çevrildi, küçələrdə soydaşlarımızın təşkil etdikləri yürüşlərlə qarşılandı. İnsanlarımızın nitqində artıq "məğlub xalq", "zəbt olunmuş torpaqlar", "məcburi köçkün" kimi sözləri əvəzinə yeni ifadələr səsləndi. Bunlar "müzəffər Prezidentimiz", "qalib xalqımız", "rəşadətli Ordumuz", "azad olmuş torpaqlarımız", "bərpa-quruculuq işləri" və "qayıdış" sözləridir.

Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində şanlı zəfəri öz qəhrəmanlıq salnaməsinə silinməz qızıl hərflərlə yazdı. Bu tarixi qələbəyə müzəffər Prezidentimiz, Ali Baş Komandan, güclü sərkərdə İlham Əliyev real ağır müharibə şəraitində öz strategiyaları, xalqımızı, ordumuzu ətrafında sıx birləşdirmiş vahid güvvə, düşməni lərzəyə salan güclü "dəmir yurmuğ"u ilə nail oldu. Hər bir şəhərimiz, qəsəbəmiz, kəndimiz işğaldan azad olduqda, qələbə müjdəsi xalqımızı, ordumuzu ruhlandırır, zəfərə inamını gücləndirir, yeni uğurlara doğru aparırdı. Dünya hərb tarixində görünməmiş sürətlə şanlı ordumuz 5 şəhəri, 4 qəsəbəni, 300 kəndi, çoxsaylı strateji yüksəklikləri azad etdi. Bununla da uzun müddət torpaqlarından zorla, silah gücü ilə qovulmuş çətin şəraitdə, əzablara məruz qalmış, öz vətənində məcburi köçkün həyatı sürmüş 1 milyon soydaşlarımızın üstündən ağır ad götürüldü, ata-baba yurduna qayıtmaq həsrəti, ümidi reallaşdı, gerçəkliyə çevrildi. Bu Zəfər xalqımızın ruhunu, şərəfini, ləyaqətini qaldırdı, beynəlxalq aləmdə qəhrəman xalq kimi tanıtdırdı.

Müdrik sərkərdəmizin rəhbərliyi ilə rəşadətli Ordumuz yüksək peşəkarlıqla, qəhrəmanlıqla, cəsarətlə geriyə bir addım atmadan, ara vermədən, ildırım sürəti ilə irəliləyib, Vətən uğrunda apardığı döyüşlərdə qalib gəldi, müharibəni zəfərlə sona çatdırdı. Bu müharibə bir çox xüsusiyyəti ilə dünya hərb tarixində özünəməxsus yer tutmuşdur. İlham Əliyevin "dəmir yumruğ"u erməni ordusunu darmadağın etdi, döyüş meydanından qaçan zabitlərini, kütləvi fərarilik edən əsgərlərini zəlil günə saldı, Ermənistan dövlətini isə siyasi, iqtisadi və mənəvi iflasa məruz qoydu.

Prezidentimiz güclü arqumentlərə, tarixi faktlara, geniş intellektə, hazırcavablığına əsaslanan məntiqi çıxışları, dialoq qurmaq, müsahibə vermək məharəti ilə informasiya müharibəsində də qalib oldu.

Zəbt olunmuş torpaqlarımızın hər bir qarışı əsgər və zabitlərin, fədakar oğullarımızın qanı, canı hesabına qazanılmışdır. Rütbəsindən asılı olmayaraq generallarımız əsgərlərlə yanaşı döyüşür, yaralansa da döyüş meydanını tərk etmir, bir-birini ruhlandırır, dəstək olur, "dəmir yumruğ"un ətrafında sıx birləşərək yüksək nizam-intizamla qələbəyə doğru irəliləyirdilər. Bu qəhrəman övladlarımız, gənclərimizi böyüdən analar, balasını yola salanda qələbə xeyir-duası verir, döyüşlərdə qəhrəmanlıqla şəhidlik zirvəsini fəth etmiş oğullarının tabutunu "Vətən sağ olsun" deyərək qürurla qarşılayırdı. Şəhid balalarımızın valideynləri də Vətənə sədaqət, vətənpərvərlik örnəyi oldular.

Vətən müharibəsi zəfərimizdə Türkiyə-Azərbaycan münasibətlərinin də böyük əhəmiyyəti olmuşdur. Belə ki, milli, dini, mədəni, mənəvi dəyərlər üzərində qurulmuş, dərin kökləri olan Türkiyə-Azərbaycan qardaşlığı son illərdə daha da möhkəmlənmiş və daha yüksək müstəviyə qalxmışdır. 44 günlük Vətən müharibəsi günlərində də Türkiyə Azərbaycana böyük siyasi, diplomatik, mənəvi dəstək verdi, haqq səsimizi geniş beynəlxalq ictimaiyyətə çatdırdı. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Bakıda Zəfər paradında iştirak etdi, Şuşa şəhərində Türkiyə ilə Azərbaycan dövlətlərinin əməkdaşlığının müttəfiqlik münasibətləri haqqında Bəyannaməni imzaladı və Füzuli şəhərində 8 ay ərzində tikilmiş yeni hava limanının açılışına qatıldı.

İşğaldan azad olunmuş Qarabağ əraziləri bütün xarici dövlətlər, jurnalistlər, ekspertlər üçün açıqdır. Müxtəlif ölkələrdən gələn dövlət nümayəndələri və siyasi xadimlər, səfirliklərin, beynəlxalq təşkilatların əməkdaşları, jurnalistlər buradakı dağıntıları, xarabazırlıqları görüb dəhşətə gəlir, erməni barbarlarının vəhşiliklərindən, əməllərindən vahimələnirlər.

Ölkə Prezidenti İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş şəhər və qəsəbələrimizdə müharibədən əvvəl orada yaşamış və doğma torpaqlarını məcburi köçkün kimi tərk edərək həsrətlə azad olunmasını gözləmiş sakinlərlə görüşlər keçirmiş, bir daha tarixi səhifələr yada salınmışdır. Sakinlər bu yerlərlə bağlı xatirələrini bölüşmüş, ərazilərin minalardan təmizlədikdən və yaşamaq üçün yararlı vəziyyətə salındıqdan sonra böyük həvəslə öz ata-baba yurdlarına köçürülmələrini səbirsizliklə gözlədiklərini bildirmişlər.

Beləliklə, artıq uzun illər boyu arzusunda olduğumuz Böyük qayıdış ərəfəsindəyik. Böyük qayıdışın sürətləndirilməsi məqsədilə, azad olunmuş torpaqlarda ilk günlərdən geniş bərpa-quruluş işləri həyata keçirilir. Qısa zamanda yolların bərpası və yenilərinin tikilməsi, Zəfər yolunun hazır olması, eyni zamanda 3 hava limanının tikilməsi, 8 ay ərzində Füzuli hava limanının istismara verilməsi, beynəlxalq status alması nəhəng quruluş işlərinin bariz nümunəsidir.

Dağıdılmış ərazilərdə bərpa-quruculuq işlərinə Azərbaycanla dost münasibətlərdə olan bir çox ölkə də maraq göstərir, lakin ölkəmizin Prezidentinin dediyi kimi, Azərbaycan bu torpaqları öz gücü ilə bərpa edir.

Müharibənin bitməsi ilə bağlı cənab İlham Əliyev xalqa müraciətində demişdi: "Birinci və İkinci Qarabağ müharibəsinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı və fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıtdıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər. Onların sağalması üçün əlimizdən gələni edirik və edəcəyik də. Biz bu Qələbəyə görə Onlara borcluyuq. Onların hər biri hər bir azərbaycanlının xatirəsində əbədi yaşayacaq".

Vətən müharibəsində 3000-dək cəsur, mərd soydaşımız fədakarlıqla ömrünü Vətənə qurban verib, şəhidlik zirvəsini fəth etmişlər.Vətən müharibəsində xüsusi xidmət göstərən qazilər yüksək hərbi rütbələr, xidmətlərinə uyğun orden və medallar ilə təltif olunmuşlar. Şəhid ailələrinə, onların əmanəti olan övladlarına xüsusi qayğı göstərilir, onlara mənzil və avtomobillər verilir, habelə tibbi, sosial, psixoloji və reabilitasiya xidmətləri göstərilir. Mehriban xanım Əliyeva şəhid ailələri, qazilərlə mütəmadi görüşür, onların ehtiyaclarını öyrənir və təmin olunmasında yardımçı olur. Qəbulunda olan qazilərə "qardaşlarım" deyə müraciət edir, onları dinləyir, problemlərini həll edir. Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə ağır yaralı qazilər müalicə üçün xarici ölkələrə göndərilir, müasir tipli protezlərlə təmin olunurlar. Onların ailə üzvlərinin və özlərinin müalicəsi və istirahəti üçün şərait yaradılır, bir sıra sosial proqramlar həyata keçirilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondları ("Yaşat", Qarabağın Dirçəliş fondları və b.) yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanını yüksək qiymətləndirmək lazımdır.

Zəfərlə bitmiş Vətən müharibəsi Azərbaycan xalqının təqvimində daha iki əlamətdar tarix: 27 sentyabr - "Şəhidlərin anım günü" və 8 Noyabr - "Zəfər Günü"nü daxil etmişdir. Qələbənin ilk günü bu ilin sentyabrın 27-si kütləvi anım tədbirləri ilə yadda qaldı.

Cənab İlham Əliyev və Mehriban xanım Əliyeva şəhidlərimizin əziz xatirəsini yad etmək üçün "Zəfər yürüşü"ndə öndə gedərək əllərində hər bir şəhidin şəklini tutan 3000 iştirakçı "Zəfər yürüşü"nə qatıldılar. Mehriban xanımın əlindəki uşaq şəkli isə Vətən müharibəsi illərində dinc əhali qətlə yetirilmiş zaman onların arasında uşaqların da olduğunu dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu həm də dünya ictimaiyyətinə bir mesajdır: "Gəlin, uşaqları müharibələrdən qoruyaq. Uşaqlar bizim gələcəyimizdir!"

*Elmira SÜLEYMANOVA,*
*professor*

# Azərbaycanın şərəf və qəhrəmanlıq salnaməsi




**Torpaqlarımızın azadlığı uğrunda başlanmış Vətən müharibəsi bir il əvvəl Azərbaycanın zəfəri ilə başa çatdı. Bu savaşın nəticəsində respublikamızın ərazi bütövlüyü təmin edildi, Cənubi Qafqazda tamamilə yeni reallıqlar yarandı.**
**Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**

## Parlaq qələbə

***Eldar İBRAHİMOV,***
*Milli Məclisin İntizam komissiyasının sədri,*
*YAP İdarə Heyətinin üzvü:*

- 44 günlük Vətən müharibəsinin başlanması və tarixi Zəfərlə yekunlaşması Azərbaycanın siyasi rəhbərliyinin və xalqımızın tükənməz Vətən sevgisi və sıx birliyi ilə əlaqədardır. Məhz bu iki amil Vətən Müharibəsinin başlanmasını və cəmi 44 gün ərzində düşmənin diz çökərək məğlub olduğunu etiraf etməsi zərurətini yaratdı.

Müstəqilliyimizin bərpasından keçən 30 il ərzində ölkəmizin iqtisadi qüdrəti daim yüksəlmiş və regionun lider dövlətinə çevrilmişdir. İqtisadiyyatın əsasını təşkil edən neft gəlirlərinin məqsədyönlü və düzgün paylanması, ordu quruculuğunda aparılan nəhəng işlər, hərbi kadrların hazırlığı, ordunun ən müasir döyüş vasitələri ilə silahlanması, yeni döyüş taktikasının tətbiqi, habelə müharibə aparmaq üçün lazım olan digər tədbirlərin vaxtında və yüksək səviyyədə təşkili Qarabağ məsələsinin müharibə yolu ilə həllinə böyük zəmin yaratdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı isə xalq tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanaraq dillərdə əzbər oldu. Xalqımız bu fikrin reallaşdırılacağı günü səbirsizliklə gözləyirdi. Bütün bunlar ölkəmizin rəhbərliyinin, ordusunun və xalqının, xüsusən Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasəti nəticəsində formalaşan gənclərin Vətən sevgisini və birliyini daha da möhkəmləndirdi və 44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı.

Qələbədən sonra ölkəmizin qarşısında duran ən mühüm vəzifə işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin müasir tələblərə cavab verən yüksək kefiyyətdə və qısa müddətdə həyata keçirilməsidir. Hazırda həmin ərazilərdə nəhəng bərpa və quruculuq işlərinə başlanılmışdır. Bütün bunlar onu göstərir ki, dövlətimiz işğaldan azad etdiyi ərazilərdə bərpa və quruculuq işlərini sürətlə davam etdirərək ən müasir tələblərə uyğun infrastruktur layihələri həyata keçirməklə orada məskunlaşacaq insanların həyat və fəaliyyətinə yüksək dərəcədə cavab verən şəhərlər və kəndlər inşa edəcək. Beləliklə, işğaldan azad edilmiş Qarabağ bölgəsi yaxın vaxtlarda 30 ilə yaxın qaçqınlıq həyatı sürən sakinlərini daha rahat və təhlükəsiz şəraitdə yaşayıb fəaliyyət göstərmək üçün qəbul edəcək, ölkəmizin dilbər guşələrindən biri kimi böyük turizm mərkəzinə çevriləcək.

Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ərazilərimizi azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdikdən sonra bölgədə yeni reallıqlar yarandı. Bunu nəzərə alaraq Azərbaycan Prezidenti ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsü haqqında fərman imzaladı. Fərmana əsasən Qarabağ və Şərqi Zəngəzur adlı yeni iqtisadi rayonlar yaradıldı. Bu iqtisadi rayonların yaradılması həm strateji, həm iqtisadi, həm də tarixi baxımdan çox böyük əhəmiyyət kəsb edir.

Bu bölgədə Zəngəzur dəhlizinin reallaşması Azərbaycanla Naxçıvanı dəmir və avtomobil yolları ilə birləşdirməyə imkan verəcək. Eyni zamanda region ölkələrinin bu dəhlizdən istifadə imkanlarının yaranması onların iqtisadi inkişafına təkan verəcək. Bundan başqa, bu layihənin həyata keçirilməsi türk dünyası ölkələrini birləşdirən körpü rolunu oynamaqla qədim İpək yolunun bərpası istiqamətində mühüm əhəmiyyətə malik olacaq. Bununla da Zəngəzur dəhlizinin açılması həm bölgənin, həm də bir çox digər ölkələrin iqtisadi və başqa sahələrdə əlaqələrinin genişlənməsinə güclü təkan verəcək.

## Zəfərin təntənəsi

***Novruzəli ASLANOV,***
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Azərbaycan xalqı əlamətdar hadisənin - 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərin birinci ildönümü ərəfəsindədir. Ötən ilin məhz bu günlərində cəbhədən gələn xoş soraqların yaratdığı böyük coşqu ilə bütün cəmiyyətimiz tarixi qələbəyə köklənmişdi. Noyabrın 8-də milli mədəniyyətimizin beşiyi, milli qürurumuzun ünvanı olan Şuşa şəhərinin işğaldan azad edilməsi ordumuzun hərbi əməliyyatlar dövründə qazandığı olduqca möhtəşəm hərbi uğur olmaqla bərabər, həm də Vətən savaşının taleyini həll edən hadisə idi.

Şuşanın azad olunmasından sonra Ermənistanın məğlubiyyətini etiraf etməkdən, Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri yerinə yetirməkdən başqa yolu qalmadı. Beləliklə, "dəmir yumruq"la düşmənin başını əzən Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 10-da Azərbaycanın tam qələbəsini elan etdi. Şuşanın azad olunduğu gün isə cənab İlham Əliyevin sərəncamı ilə Zəfər Günü elan olundu.

Bu Qələbə ilə yalnız torpaqlarımızı azad etmədik, həm də şəhidlərimizin, Ermənistanın hərbi cinayətlərinin, törətdiyi soyqırımlarının qurbanı olan bütün soydaşlarımızın intiqamını aldıq, onların qanı yerdə qalmadı. Tək müasir deyil, son bir neçə əsrlik tariximizin ən böyük hadisəsi olan bu Zəfərlə Azərbaycan ziddiyyətli beynəlxalq münasibətlər şəraitində təkbaşına və güc yolu ilə öz hüquqlarını təmin etməyin nümunəsini yaratdı.

Azərbaycan öz torpaqlarını güc yolu ilə işğaldan azad etdikdən sonra keçmişdə qalmış Dağlıq Qarabağ probleminin həlli istiqamətində müharibəyə qədər cərəyan etmiş proseslərin daha obyektiv təhlili üçün yeni imkanlar yarandı. Belə ki, Azərbaycanın qələbəsindən və beynəlxalq münasibətlər sistemində təsbit olunmuş hüquqlarını bərpa etməsindən sonra öz təsdiqini tapan ən böyük reallıqlardan biri də ondan ibarətdir ki, ayrı-ayrı təşkilatlar və dövlətlər 30 ilə yaxın dövr ərzində ölkəmizə qarşı tarixi haqsızlıq edib, əllərində bayraq etdikləri beynəlxalq hüququn tələblərini elə özləri riyakarcasına tapdalayıblar. 44 günlük müharibədə qazandığımız qələbədən ötən bir il müddətində Qərb siyasi dairələrinin ortaya qoyduqları mövqe bir daha təsdiq edir ki, onlar, ümumiyyətlə, danışıqlar prosesində obyektiv və səmimi olmayıblar. Azərbaycanın işğala məruz qaldığı, Ermənistanın isə işğalçı olduğu gün kimi aydın olsa da, problemin yoluna qoyulmasında iştirak edən ATƏT-in Minsk qrupu və Qərb siyasi dairələri əsl həqiqətləri deməkdən həmişə uzaq olublar. Onlar artıq Azərbaycanın güc yolu ilə həll etdiyi Dağlıq Qarabağ münaqişəsinin həllinə ikili standartlar çərçivəsindən baxmaqla, deklorativ bəyanatlardan uzaga getməməklə Ermənistana öz işğal siyasətini davam etdirmək imkanı yaradıblar.

Lakin bir məsələni anlamadılar ki, Azərbaycanı öz haqq yolundan yayındırmaq, milli mübarizəsindən çəkindirmək mümkün deyil. Anlamadılar ki, bu xalq ərazi bütövlüyünün Ermənistan tərəfindən pozulması, torpaqlarımızın işğalı altında qalması reallığı ilə heç cür barışa bilməz. Reallıqları düzgün dəyərləndirən Azərbaycan hakimiyyəti erməni təəssübkeşliyinin özünü açıq şəkildə büruzə verdiyi bir şəraitdə dövlətimizin milli maraqlarını layiqincə qorudu, danışıqlarda Ermənistanın mənafelərinin təmin olunmasına imkan vermədi. Bununla yanaşı, ölkə rəhbərliyi işğal olunmuş torpaqlarımızın müharibə yolu ilə azad edəcəyini də istisna etmədi. Ulu Öndərin yaratdığı, qurduğu ordumuz İlham Əliyevin sayəsində daha da gücləndi, döyüş qabiliyyəti ən müasir standartlar səviyyəsinə çatdırıldı. Təsadüfi deyil ki, hələ Vətən müharibəsindən əvvəl Azərbaycan Silahlı Qüvvələri döyüş imkanlarına görə Ermənistanı çox qabaqlayırdı və bu fakt mütəmadi olaraq beynəlxalq reytinqlərdə öz əksini tapırdı.

Bütövlükdə, Prezident İlham Əliyevin həyata keçirdiyi fəaliyyətin hər bir istiqaməti torpaqlarımızın işğaldan azad olunması üçün tarixi şəraitin formalaşmasına xidmət etdi. 2020-ci ilin sentyabr ayının 27-də Ermənistanın cəbhə xəttində başladığı növbəti hərbi təxribatdan sonra isə artıq heç bir qüvvə Azərbaycanın qarşısını ala bilməzdi. Həmin tarixdə Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatlarına başlayan ordumuz "dəmir yumruğ"u düşmənə məqamında və zamanında vurdu. Bu zərbə elə olmalıydı ki, Ermənistan ilk andan büdrəsin. Belə də oldu və müharibənin ilk günündən işğalçı elə bir zərbəyə tuş gəldi ki, tarixboyu unuda bilməyəcək.

Zəfər günü ərəfəsində bu qələbəni öz qanları ilə təmin edən şəhidlərimizi dərin hüznlə yad edir, Tanrıdan onlara rəhmət diləyirik. Xalqımız torpaqlarımızın azad olunması yolunda canından keçən qəhrəman övladlarının əziz xatirəsini hər zaman uca tutacaq.

İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimiz erməni vandalizminin və vəhşiliyinin qurbanıdır. Düşmən 30 ilə yaxın dövr ərzində Qarabağı və Şərqi Zəngəzuru viranə qoyub, talan edib. Amma bunlar bizim öz torpaqlarımızdır və düşmənin vurduğu bütün yaralar dövlətimizin gücü və iradəsi ilə qısa müddətdə sağalacaq.

Torpaqlarımızı azad edən Prezident İlham Əliyev indi onlara yeni həyat bəxş edir. Cənab İlham Əliyevin müdrikliyi ilə azad olunan Qarabağ və Şərqi Zəngəzur dövlət başçısının qətiyyəti ilə də bərpa olunur. Cəmi bir il ərzində Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin miqyası olduqca böyük, möhtəşəm və əzəmətlidir. Füzuli Beynəlxalq Hava Limanının açılışı mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı Azərbaycan-Türkiyə qardaşlığının təcəssümü olmaqla yanaşı, dünyaya yeni mesajlar verdi. Bu səfər və verilən mesajlar onu göstərdi ki, Türkiyə Vətən müharibəsində olduğu kimi, bundan sonra da qardaş dövlət olaraq Azərbaycanın yanındadır və bütün platformalarda respublikamızın mövqeyini qətiyyətlə dəstəkləyəcək. Eyni zamanda Prezident Rəcəb Tayyib Ərdoğanın bu il ərzində respublikamıza növbəti səfərini etməsi, Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı həm də ondan xəbər verdi ki, Türkiyə işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində də Azərbaycanın yanındadır. Qarabağın, Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində əldə edilən uğurlara dərindən sevinir.

Türk dünyasının liderləri Şuşadan sonra növbəti dəfə Zəngilandan dünyaya mesajlar ünvanladılar. Bu mesajların əsas məzmunu ondan ibarətdir ki, Azərbaycanla Türkiyə bundan sonra da "Bir millət, iki dövlət" olmağın verdiyi ortaq ruh və dəyərlərlə hərəkət edəcəklər. Bütün bunlar həm də onu təsdiq edir ki, Azərbaycan-Türkiyə münasibətləri böyük öndərlərimiz Mustafa Kamal Atatürkün və Heydər Əliyevin müdrikliklə dedikləri və tarixi əhəmiyyət kəsb edən "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" tezislərinə uyğun inkişaf edir, daha da möhkəmlənir və sarsılmaz olur.

"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" - deyən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində sərkərdə qətiyyəti ilə torpaqlarımızı işğaldan azad etdi. Bu savaşda qazanılan möhtəşəm qələbə milli qürurumuzu ucaltdı, üzərimizdən məğlubiyyət damğasını götürdü. Beləliklə, son illərdə müxtəlif sahələrdə uğurları ilə tanınan Azərbaycan artıq həm də tarixinə hərbi zəfər həkk olunan dövlətdir. Zəfər günümüz mübarək olsun!

## Dövlətimizi və xalqımızı qürurlandıran qələbə

***Cavid OSMANOV,***
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü:*

- Azərbaycanın möhtəşəm zəfəri, torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən İkinci Qarabağ müharibəsinin başa çatmasının biri ili tamam olur. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün sürən bu savaş xalqımızın öz milli haqqı uğrunda mübarizəsinin, cənab Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olamasının, milli həmrəyliyimizin təntənəsinə çevrildi.

Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş hüquqları, tanınmış ərazi bütövlüyü Ermənistan tərəfindən kobud şəkildə tapdalansa da, problemin həllində birbaşa iştirak edən təşkilatların və bəzi siyasi dairələrin ikili standartlardan çıxış etmələri torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasına səbəb oldu. Ermənilərin iddia etdikləri ərazilərin Azərbaycan torpaqları olduğunu, onların Qarabağa köçürüldüklərini, 1923-cü ildə həmin coğrafiyada məhz sovet hökuməti tərəfindən süni şəkildə muxtar vilayətin yaradıldığını tarixdən yaxşı bilsələr də, ATƏT-in Minsk qrupunun həmsədrləri və ayrı-ayrı təşkilatlar işğalçını heç vaxt öz adı ilə çağırmadılar. Bununla da dolayısı ilə işğala və işğalçıya dəstək verdilər.

Lakin biz torpaqlarımızın işğaldan azad olunması ilə bağlı inamımızı heç vaxt itirmədik. Xalqımız əmin idi ki, Ulu Öndər Heydər Əliyevlə başlanan, möhtərəm Prezident İlham Əliyevlə davam edən inkişaf siyasəti nəticəsində dövlətimiz qarşıya qoyulmuş bütün hədəflərə inamla çatdığı kimi, yeganə ağrılı problemimiz olan işğal altındakı topaqlarımızı da azad edəcək. Bu inamı və əminliyi artıran ən böyük faktor, əlbəttə ki, cənab Prezident İlham Əliyevin qətiyyətli və milli maraqlara söykənən siyasəti, tarixi torpaqlarımızda ikinci erməni dövlətinin qurulmasına heç vaxt imkan verilməyəcəyini daim bəyan etməsi idi.

Bu gün dönüb geriyə baxanda görürük ki, cənab Prezident İlham Əliyev 2003-cü ildən sonra nail olduğu kompleks inkişaf və yüksəliş siyasəti ilə həm də sülh danışıqlarının baş tutmayacağı təqdirdə, torpaqlarımızın müharibə yolu ilə azad edilməsinin əsaslarının formalaşdırılmasına uğurla nail olub. 44 günlük Vətən müharibəsi bütün məziyyətləri ilə bunu təsdiq etdi. Təsadüfi deyil ki, Azərbaycanın yüksəlişi, Prezident İlham Əliyevin həm siyasi lider, həm də Ali Baş Komandan kimi qətiyyəti, respublikamızda reallaşan inkişaf siyasətinə dəstək verən xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsi Ermənistanın döyüş meydanında sürətlə darmadağın edilməsinin əsas səbəbləri oldu. Cənab İlham Əliyevin inkişaf siyasətinin məntiqi nəticəsi kimi ordumuzun ən müasir döyüş imkanlarına yiyələnməsi 44 günlük Vətən müharibəsində xalqımızın yeni qəhrəmanlıq salnaməsi yazmasını, torpaqlarımızın işğaldan azad olunmasını, nəinki Ermənistanın, bütün dünya erməniliyinin və erməni faşizminin məğlubiyyətə uğradılmasını təmin etdi.

Bu zəfər günlərində canını torpaqlarımız üçün fəda edən şəhidlərimizi ehtiramla anır, əziz xatirələri önündə baş əyirik. Onların döyüş meydanlarında göstərdikləri qəhrəmanlıqları sayəsində biz bu gün qalib xalqın nümayəndələri kimi qürur hissi yaşayırıq.

Vətən müharibəsi başa çatsa da, Azərbaycanın zəfərləri davam edir. Ötən bir il ərzində Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən sürətli bərpa işləri hərbi qələbəmizin quruculuq meydanında davamıdır. Cəmi 8 aya tikilərək istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanının timsalında göründü ki, torpaqlarımızı sürətlə azad edən cənab İlham Əliyev Ermənistanın vandallığına məruz qalmış bütün şəhər və rayonlarımızı əzmlə yenidən qurur.

Vətən müharibəsindəki möhtəşəm qələbə Azərbaycan tarixinin ən parlaq uğurudur. Eyni zamanda bu, bütün türk dünyasının zəfəridir. Bu Zəfərlə tarixi Azərbaycan torpaqları üzərində salınacaq Zəngəzur dəhlizi türk dünyasını birləşdirən körpüyə çevriləcək.

## Xalqının arzularını reallığa çevirən lider

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Düz bir il əvvəl 44 gün davam edən Vətən müharibəsini Zəfərlə başa vuran dövlətimiz 30 ilə yaxın davam edən işğala son qoymaqla özünün pozulmuş hüquqlarını ədalətli güc yolu ilə təmin etməyin nümunəsini yaratdı. Qarabağ və Şərqi Zəngəzur, Şuşa, Kəlbəcər, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan indi azaddır. Bu baxımdan müstəqilliyinin bərpasının 30-cu ilini geridə qoyan Azərbaycan indi müasir tarixinin şərəfli dövrünü yaşayır.

Hər bir dövlətin və xalqın tarixində dönüş nöqtəsi sayılan, taleyində həlledici rol oynayan hadisələr baş verir. Azərbaycan da bu baxımdan istisna deyil. 1991-ci ildə müstəqilliyimizin bərpası, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizi və müstəqilliyimizi xilas etməsi, Azərbaycanın yeni neft strategiyasının öz bəhrəsini verməsi müasir tariximizin ən böyük hadisələridir. 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi isə tariximizin və taleyimizin növbəti və həm də ən möhtəşəm hadisəsi oldu.

Bir il əvvəl nail olduğumuz bu qələbə ilk növbədə onu göstərdi ki, Azərbaycan xalqı öz taleyini Prezident İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlilik nümayiş etdirib. Bu tarixi Zəfər onu təsdiqləyir ki, cənab İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsinə, dövlətçiliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılmasına xidmət edib. Nəticə etibarilə bu amillər torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanın uğurla yerinə yetirilməsinə yol açıb.

Vətən müharibəsində tarixi qələbədən sonra Azərbaycan cəmiyyəti, ümumilikdə, bütün region yeni reallıqlar dövrünə qədəm qoyub. Bu reallığın müəllifi olan Prezident İlham Əliyevin postkonflikt dövründə əsas məqsədi işğaldan azad olunmuş əraziləri ən müasir standartlara uyğun bərpa etməklə yanaşı, yaranmış geniş imkanları həm də Azərbaycanın regionda yeni strateji maraqlarının gerçəkləşdirilməsi üçün səfərbər etməkdir.

Müharibədən sonrakı qısa zaman ərzində ölkəmizin imkanları hesabına, dost ölkələrin nüfuzlu şirkətlərini cəlb etməklə bir beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, daha iki hava limanının tikintisi, işğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, Azərbaycanın əsas hissəsini Naxçıvan MR-lə və daha sonra qardaş Türkiyə ilə bağlayacaq Zəngəzur dəhlizinin əsasının qoyulması və son nəticədə bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi potensialının yaradılması, habelə enerji təminatı məsələlərinin həll edilməsi, ən qabaqcıl texnologiyalar əsasında yaşayış məskənlərinin və istehsal obyektlərinin yaradılması istiqamətində görülən işlər cənab İlham Əliyevin formalaşdırdığı yeni reallığın əsas konturlarıdır.

Prezident İlham Əliyevin fasiləsiz iş cədvəli və yorulmaz fəaliyyəti, qarşıya qoyduğu hədəflərə çatmaq üçün yürütdüyü məqsədyönlü siyasət nəticəsində xarabalığa çevrilmiş ərazilər tanınmaz dərəcədə dəyişir və artıq Qarabağ və Şərqi Zəngəzurun yeni və müasir portreti yaranmağa başlayır. Azad edilmiş ərazilərin hər birində yerli ictimaiyyət nümayəndələri ilə silsilə görüşlər isə dövlət başçısının orada yaşamış yerli sakinlərin fikirlərinə nə qədər həssas yanaşmasının, mütərəqqi ideyaları yerindəcə uğurla işə çevirməsinin örnəklərini yaradıb. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsi döyüşçülərinə xüsusi həssas yanaşmaları ilə hamıya şəxsi nümunə göstərirlər.

Tarixi qələbəmizlə başa çatan Vətən müharibəsi və son bir il ərzində işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində görülən işlər bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının arzularını reallığa çevirən, onu inamla gələcəyə doğru aparan Liderdir. İlham Əliyev dövlətimizin tarixinə möhtəşəm Zəfər salnaməsini həkk edən görkəmli dövlət xadimi, müdrik siyasətçidir. Bu Zəfər salnaməsi isə əbədiyyətə qədər tariximizi şərəfləndirəcək.

## Qətiyyətli, müdrik və uzaqgörən siyasətin təntənəsi

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- Müstəqilliyimizin şərəf səhifəsinə, tariximizin qəhrəmanlıq salnaməsinə çevrilən İkinci Qarabağ müharibəsi işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Xalqımız bu müharibədə yumruq kimi bir oldu, vətən torpaqları uğrunda ayağa qalxdı. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu müharibə xalqımızın əyilməz ruhunu göstərdi. 44 gün ərzində dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi.

Noyabrın 8-də tarixi Zəfərimizin bir ili tamam olur. İstər müharibənin başlanmasına qədər cərəyan edən prosesləri, aparılan danışıqları, istərsə də 44 günlük savaş və ondan sonrakı hadisələri təhlil edəndə görürük ki, Azərbaycan yalnız Ermənistana və ya bir ovuc erməniyə qalib gəlməyib. Bu müharibə ilə Azərbaycan Ermənistanın arxasında dayanan güclərə, böyük rıçaqlara malik olan siyasi mərkəzlərə, erməni təəssübkeşlərinə qalib gəlib. Əslində, torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasının, danışıqlar prosesinin uzanmasının əsas səbəbkarı da məhz həmin güclər idi və onların məqsədi işğal olunmuş Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması və ya həmin ərazilərin zamanla Ermənistana birləşdirilməsi idi.

İkinci Qarabağ müharibəsini qalibiyyətlə başa vuran Azərbaycan onların bütün planlarını alt-üst etdi. Möhtərəm İlham Əliyev sərkərdə qətiyyəti ilə döyüş meydanında düşməni darmadağın etdiyi kimi, siyasi-diplomatik sferada da erməni təəssübkeşi olan siyasi mərkəzləri tərksilah etdi. Həm müharibə, həm də ondan sonra Prezident İlham Əliyev onların iddia və arqumentlərini tarixin zibilliyinə göndərdi. Dövlət başçısı Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Bir daha sübut olundu ki, Azərbaycanı öz yolundan heç bir qüvvə dayandıra və ya döndərə bilməz və dövlətimiz istənilən vasitə ilə milli maraqlarını təmin etməyə qadirdir.

Biz bu müharibəni Prezident İlham Əliyevin qətiyyətli, müdrik və uzaqgörən siyasəti, ordumuzun döyüş gücü, hərbçilərimizin, vətən eşqi ilə savaşa yollanan oğullarımızın qəhrəmanlığı, vətənpərvərliyi və şücaəti ilə azad etdik. Müharibə itkisiz olmur, biz bu yolda şəhidlər də verdik. Azad olunmuş torpaqlarımız həm də şəhidlərimizin qanı ilə müqəddəsləşib. Vətən uğrunda canından keçən hər bir şəhidimizin xatirəsi daim uca tutulacaq.

Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycan tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu mərhələnin əsas hədəfi işğaldan azad olunmuş ərazilərin bərpasıdır. Prezident İlham Əliyevin azad olunmuş rayonlara səfərləri zamanı infrastruktur obyeklərinin istifadəyə verilməsi hər birimizdə qürur doğurur və görünən odur ki, dövlətimiz Qarabağ və Şərqi Zəngəzuru ən qısa vaxtda yenidən qurmaqla doğma ellərindən köçkün düşmüş bütün vətəndaşlarımızın layiqli həyat şəraitini təmin edəcək. Azad olunmuş ərazilərimizin "ağıllı şəhər" və "ağıllı kənd" konseptləri əsasında bərpası, elektrik yarımstansiyalarında smart idarəetmə sistemlərinin tətbiqi, Füzuli Beynəlxalq Hava Limanının müasir tələb və göstəricilərə cavab verməsi onu göstərir ki, dövlətimiz Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasını ən yüksək və modern standartlar çərçivəsində həyata keçirir.

Azərbaycanın qələbəsinə dostlarımız sevindi, bədxahların isə bağrı yarıldı. Müharibənin başa çatmasından ötən bir ildə də bu, özünü göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı və ikinci dəfə işğaldan azad olunmuş ərazilərimizə səfər etməsi təsdiq etdi ki, qardaş Türkiyə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması zamanı da dəstəyini əsirgəmir.

44 günlük savaşda əldə olunan qələbə xalqımızın qürur istinadgahıdır. Bu Zəfərin memarı isə cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Xalqımızı məğrur edən bu Qələbə milli ləyaqətimizin rəmzi, kimliyimizin təntənəsi kimi hər zaman tariximizə işıq salacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# "Dəmir yumruq" "Ohanyan səddi"ni də darmadağın etdi

## Düşmənin 30 il ərzində yaratdığı möhkəm və keçilməz 10 mərhələli müdafiə xəttini Azərbaycan əsgəri elə ilk saatlardan yardı







**Torpaqlarımızın işğal altında olduğu dövrdə Ermənistan cəbhə xəttində olduqca mürəkkəb müdafiə sistemi yaratmış və müxtəli vasitələrlə onu möhkəmləndirmişdi. Düşmən "Ohanyan səddi" kimi əfsanələşdirdiyi bu müdafiə mövqeləri ilə qürurlanır və iddia edirdi ki, Azərbaycan Silahlı Qüvvələri hücuma keçərsə, onu yara bilməz. Lakin 2020-ci ilin Vətən müharibəsi Ermənistanın iddialarını alt-üst etdi.**

### İşğalçıların mövqeləri olmuş yerlərdən indi yeni yollar çəkilir

Ötən il sentyabrın 27-də əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusu ilk saatlardan cəbhə xəttini yarmış, yaratdıqları mürəkkəb müdafiə xətləri bölmələrimizin qarşısında duruş gətirə bilməmişdi.

Ermənistan bu müdafiə xəttini yaradarkən qarşısına əslində bir neçə məqsəd qoymuşdu. Düşmənin əsas məqsədi Azərbaycan Ordusunun hücumunun qarşısını almaq və müdafiə tədbirlərinə başlamaq idi. Eyni zamanda möhkəmləndirilmiş mövqelərdən əks-hücum üçün strateji dayaq kimi istifadə olunması da nəzərdə tutulurdu. Lakin bunlar hamısı artıq tarixə qovuşub. Həmin istehkamların yaradıldığı ərazilərdə indi Azərbaycan dövləti bərpa və yenidənqurma işləri aparır. Düşmən mövqelərinin yaradıldığı ərazilərdən indi yeni yollar çəkilir.

44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu Hərbi Qənimətlər Parkında xüsusi yaradılmış pavilyon düşmənin müdafiə sədləri ilə də bağlı dolğun məlumat verir. Şanlı Zəfər tariximizin bir hissəsinə çevrilən parkın əsas bölmələrindən olan bu pavilyon düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada düşmənin darmadağın edilmiş bunkerləri, atəş nöqtələri, saxlanclar, tunellər, sədlər və səngərlərlə tanış olmaq mümkündür.

### Çoxsaylı müdafiə sədləri düşmənin xofundan xəbər verirdi

Düşmənin möhkəmləndirilmiş müdafiə xəttinin birinci səddi tank əleyhinə xəndək olub. Hücum zamanı ağır zirehli tanklar döyüşün önündə getdiyi üçün düşmən bu xəndəkləri qazmışdı. 5 metr enində 3-4 metr dərinlikdə olan bu xəndəklər qazılarkən düşmən torpağı öz tərəfinə tökmüşdü ki, hücum edən bölmələrimiz onu asanlıqla doldura bilməsinlər.

İkinci sədd də tank əleyhinə idi. Amma bu dəfə düşmən mina sahəsi yaratmışdı və məqsədi tankları, avtomobilləri və digər ağır zirehli texnikaları birinci səddi keçdikləri təqdirdə məhv etmək, onların hərəkətini əngəlləmək idi. Mina sahəsi 2-3 cərgəli qurulmuşdu, minalar arası məsafə 4-5.5 metr, cərgələr arası məsafə isə 5 metr idi.

Ermənilərin yaratdıqları üçüncü sədd də tanklara və ağır hərbi texnikalara qarşı nəzərdə tutulmuşdu. Burada yerləşdirilmiş dirəklər texnikaların hərəkət sürətini məhdudlaşdırmaq üçün nəzərdə tutulmuşdu.

Dördüncü sədd isə, əsasən metal kirpilərdən ibarət idi. Bu qurğular daha çox texnikaların hərəkət edə biləcəyi ərazilərdə yerləşmişdi və yenə də məqsəd texnikaların hərəkət qabiliyyətini zəiflətmək, əngəlləmək və onları asanlıqla hədəfə alıb məhv etmək idi.

Beşinci sədd isə alçaq dirəklər üzərində tikanlı məftildən hazırlanmış tordan ibarət idi. 3 metr enində qurulmuş tikanlı tor piyadaların hərəkətini əngəlləmək, hücumun qarşısını almaq üçün tətbiq olunmuşdu.

Altıncı sədd də tikanlı məftildən hazırlanmış tor idi. Amma bu dəfə tikanlı torlar hündür dirəklər üzərində 1-1.5 metr yüksəklikdə qurulmuşdu. Düşmən düşünürdü ki, bu məftil torlar Azərbaycan Ordusunun şəxsi heyətinin və texnikanın keçməsinə əngəllər yaradacaq, onların hərəkət qabiliyyətini azaldacaq.

Növbəti, yeddinci sədd mina sahəsi idi. Amma bu dəfə piyadalar əleyhinə. İşğalçılar düşünürdülər ki, əvvəlki sədləri keçən ordumuzun piyada qüvvələri bu hissədə minaya düşəcəklər. Piyada əleyhinə mina sahəsi 3 və daha çox cərgələrdə qurulmuşdu.

Səkkizinci sədd az nəzərəçarpan məftil maneələrdən ibarət idi. Canlı qüvvənin hərəkətini əngəlləmək məqsədilə quraşdırılmışdı.

Növbəti sədd isə tent tipli tikanlı məftillərdən ibarət (spiral məftil) maneə idi və 2-3 cərgəli qurulmuşdu. Şəxsi heyətin hərəkətini əngəlləmək üçün nəzərdə tutulmuşdu. Son olaraq düşmən səngər üzərində lent tipli məftil maneələr yaratmışdı.

Əslində bu çoxsaylı müdafiə sədləri düşmənin xofundan xəbər verirdi. Günlərin birində Azərbaycanın öz torpaqlarının azadlığı uğrunda hərbi əməliyyatlara başlayacağını ehtimal edən düşmən ordumuzun qarşısında məğlub olacağını bildiyindən bu sədləri yaratmışdı.

### Bunkerlər və tunellər də ordumuzun döyüş ruhu qarşısında gücsüz idi

Düşmənin müdafiə mövqeyinin əsas elementlərindən biri də xüsusi betonlaşdırılmış bunkerlər və tunellər idi. Bunkerlərin daxilində yaxşı təchiz edilmiş döyüş postu, geniş ərazini nəzarətdə saxlamağa imkan verən müşahidə məntəqəsi və əsgər kazarması yerləşirdi. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində isə atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri vardı. Lakin ordumuzun döyüş ruhunun qarşısında bunlar da aciz idi...

Ermənistan "Ohanyan səddi"-ni möhkəmləndirməklə Azərbaycanın əsas zərbə istiqamətini müəyyən etməyə və ona ilk həmlədəcə maksimum zərər yetirməyə çalışırdı. Lakin niyyətinə çata bilmədi. Cəbhə xəttinin yarılmasından sonra məlum oldu ki, Ermənistan Füzulidə 9, Ağdamda 6, Cəbrayılda 9, Tərtərdə 6 sədd yaradıbmış. Lakin onların heç biri Azərbaycan Ordusunun hücumlarının qarşısını ala və ya ləngidə bilmədi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***







# Ermənistanın məğlubiyyət günü

## Azərbaycan qarşısında diz çökdürülən İrəvan aldığı zərbədən hələ də özünə gəlməyib

**Vətən müharibəsində qazanılan Zəfərin ilk ildönümü Azərbaycanda böyük təntənə ilə qeyd edilir. Zəbt edilmiş ərazilərin geri qaytarılması uğrunda 44 gün davam edən müqəddəs savaş Azərbaycanın Böyük Qələbəsi ilə başa çatdı.**
**Ədalətin zəfər çalması ermənilər üçün unudulmaz dərs oldu. Baş verən proseslər Azərbaycan üçün qürur mənbəyi olduğu halda, məğlub ölkə Ermənistanda çox məyusluq hökm sürür.**



### Qocalara ümid bağlayan Ermənistan

İkinci Qarabağ müharibəsinin hər günündə Ermənistana hərbi, siyasi-diplomatik və iqtisadi müstəvidə böyük zərbələr dəydi. Məğlubiyyət fonunda erməni ictimaiyyəti, müxalifəti, sosial şəbəkə istifadəçiləri baş nazir Nikol Paşinyandan hesab sordular.

44 günlük müharibə dövründə Azərbaycan Ordusu düşmənə gündən-günə daha ağır zərbələr vurdu. Düşmənin hərbi-texniki potensialı əhəmiyyətli dərəcədə sıradan çıxarıldı. Eyni zamanda Ermənistan canlı qüvvə sarıdan da ciddi korluq çəkdi. Ermənistanın Qarabağdakı ordusunun şəxsi heyətinin və xaricdən gələn muzdluların böyük qismi ordumuz tərəfindən məhv edildi. Bu səbəbdən Ermənistan artıq 60-70 yaşlı qocaları döyüşə göndərməyə başladı.

Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmadı. Bunun bir səbəbi də odur ki, minlərlə erməni ordu sıralarında xidmətdən boyun qaçırdı. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirlər və bu proses müharibə günlərində daha da intensivləşmişdi. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, qalanları isə ölkəni tərk edirdilər. Bu səbəbdən Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənmişdi.

Ermənistanda bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi təbliğ etdilər. Amma təcrübə göstərdi ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşdılar.

### Paşinyanı Qəzzafinin gününə salmaq istədilər

Nikol Paşinyan Qarabağ müharibəsində məğlub və təslim olma aktını imzaladıqdan sonra Ermənistanda siyasi gərginlik pik nöqtəsinə çatdı. Noyabrın 10-dan etibarən İrəvanda baş verənlərdən sonra ölkədə, demək olar ki, hakimiyyətsizlik və siyasi xaos hökm sürdü. İnsanlar Paşinyanın baş nazir postundan istefasını tələb etdilər.

Bunu Ermənistanda on minlərlə insanın iştirakı ilə Paşinyan hökumətinin istefa verməsi tələbi ilə keçirilən aksiyalardan da görmək olardı. Amma baş nazir küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə qəsb etməyə hazır olduğunu göstərmişdi.

İğtişaşlar nəticəsində baş nazirin iqamətgahından kompüterinin, saatının, sürücülük vəsiqəsinin və digər əşyaların oğurlandığı açıqlanmışdı. İrəvanda Ermənistan parlamentinin sədri Ararat Mirzoyan etirazçılar tərəfindən döyülmüşdü.

Aksiyalara qatılanlar məqsədlərinə çatmaqda israrlı olduqlarını, Paşinyan idarəçiliyindən mütləq şəkildə canlarını qurtaracaqlarını bildirdilər. Xalq arasında nüfuzunu itirən Paşinyan isə özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin gülləsi hesabına dağıtmağa üstünlük verdi. Baş nazirin göstərişinə əsasən, kütləvi həbslər həyata keçirildi, siyasi partiya rəhbərləri, fəallar saxlanıldı, həbs edildi, deputatlara qarşı hücumlar təşkil olundu.

### Müxalifət vətəndaş müharibəsinə hazırlaşdı

Ermənistanın siyasi partiyaları birgə bəyanat yayaraq N.Paşinyan başda olmaqla, hökumətin istefasını tələb etdilər. 17 partiyanın imza atdığı sənəddə Ermənistanın hərbi-siyasi rəhbərliyinin mövcud problemlərin öhdəsindən gələ bilmədiyi qeyd olunmuşdu. Bu baxımdan siyasi partiyalar Paşinyan və onun kabinetinin könüllü və dinc şəkildə istefasını, dərhal yeni hökumətin qurulmasını tələb etmişdilər. Bəyanatı "Azadlıq", "Milli Təhlükəsizlik", "Milli Demokratik Birlik", "Alyans", "Çiçəklənən Ermənistan", "Daşnaksütyun", "Həmrəylik", "Ermənistanın Milli Liberal Birliyi", Ermənistanın Respublika Partiyası, "Ermənistan Xristian Demokratik Birliyi", "Vətən", "Vahid Ermənistan" və digər partiyalar imzalamışdılar.







"Çiçəklənən Ermənistan" partiyasının üzvü, deputat İveta Tonoyan Nikol Paşinyanı dərhal istefa verməyə çağıraraq dedi ki, tariximizin ən biabırçı səhifəsi yazıldı: "Bir neçə saat əvvəl "Çiçəklənən Ermənistan" və bir sıra digər partiyalar baş nazirin istefasını tələb etdilər. Bütün bu baş verənlərdən sonra Paşinyanın istefa etməsi lazım olan ən kiçik şeydir".

Paşinyanın istefasını tələb edən müxalifət fəallarından Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının sədri Artur Vanetsyan "Çiçəklənən Ermənistan" partiyasının sədri Qaqik Tsarukyan, "Respublikaçılar" partiyasının nümayəndələri Eduard Şarmazanov, sabiq deputatlar Vaqram Baqdasaryan, Vardan Ayvazyan, Qeqam Petrosyan, Ayk Mamidjanyan, Karine Açemdilibyan, "Vətən" partiyasının nümayəndələri Arsen Babayan, Vardan Voskanyan, "Erkir media" telekanalının rəhbəri Qeqam Manukyan və "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan polis tərəfindən həbs edilmişdilər. Ermənistanın milli təhlükəsizlik xidməti ölkə parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanovu qanunsuz toplantını təşkil etməsi ittihamı ilə həbs etmişdi.

Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru Artur Vanetsyan Paşinyanın ictimai təzyiqlər artdıqca istefa verəcəyini bildirmişdi. Qeyd etmişdi ki, Paşinyan "baş nazir" adlandırılmasın, çünki artıq onun buna mənəvi haqqı yoxdur: "O, baş nazir postunu ələ keçirən, öz fəaliyyəti ilə Ermənistanı dərin bir uçuruma aparan adamdır. Müxalifət işləyir və Paşinyan ictimai təzyiq artdıqca istefa verəcək".

### Azərbaycan Ermənistan iqtisadiyyatını tam çökdürüb

Ermənistanın müharibədə məğlubiyyəti ölkənin sosial-iqtisadi həyatında olduğu kimi, siyasi fonda da problemlərini dərinləşdirdi. Xüsusən Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi xaosun formalaşmasına səbəb olmuş, proseslər daha gərgin mərhələyə qədəm qoymuşdu.

"Fitch" beynəlxalq kredit reytinq agentliyi də bu ölkənin kredit reytinqini aşağı salmışdı. Belə ki, müharibənin davam etdiyi günlərdə "Fitch" Ermənistanın xarici valyutada uzunmüddətli kredit reytinqinin "BB-"dən "B+" səviyyəsinə endirildiyini açıqlamışdı. Bu onu göstərir ki, Ermənistanda iqtisadi geriləmə proqnozlaşdırıldığından daha kəskindir. Hesablamalara görə, müharibənin bir günü Ermənistan üçün təxminən 30 milyon dollara başa gəlib. "4rd.am" saytı yazırdı ki, Dağlıq Qarabağda müharibənin davam etməsi Nikol Paşinyan hakimiyyətinin bu günə kimi 1,2 milyard dollardan çox maliyyə itirməsi ilə nəticələnib: "Ermənistan müharibədən öncə də iqtisadi baxımdan son dərəcə zəif ölkə idi. Bu qədər itkiləri də nəzərə alanda postmüharibə dövründə ölkənin iqtisadiyyatının nə günlərə qalacağını təsəvvür eləmək çətin deyil. Otuz il ərzində qurulan və 44 günə darmadağın edilən ordunu əvvəlki vəziyyətdə bərpa etmək üçün Ermənistana indi ən azı 5-6 milyard dollar əlavə vəsait lazım olacaq".

### Paşinyan öz tərəfdarlarını meydana səslədi

Ermənistanda 2021-ci ilin martında keçirilən mitinqlər ölkədə siyasi böhranın daha da dərinləşdiyini göstərdi. Belə ki, 44 günlük Qarabağ müharibəsindən sonra Nikol Paşinyanın opponentləri xalqın baş nazirdən üz döndərəcəyini gözləsə də, tamam əks vəziyyət müşahidə edildi. İnsanların müxalifətə və hərbi xuntaya dəstək verməməsi baş nazirin mövqelərini bir qədər möhkəmləndirdi.

Həmin vaxtı mövcud durumdan istifadə edən keçmiş hərbi xuntanın revanş istəyi isə vəziyyəti daha da gərginləşdirməkdə idi. Əsas niyyət iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa da, hakimiyyəti qəsb etmək idi. Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə caniləri indi də hərbi qiyam başlatmaqla Paşinyanı hakimiyyətdən devirmək niyyəti güdürdülər. Belə ki, baş qərargah rəisi Onik Qasparyan, bütün müavinləri, şöbə müdirləri və böyük hərbi birləşmələrin komandirləri bəyanat imzalayaraq baş nazirin istefasını tələb etdilər. Paşinyanın isə Qasparyanı istefaya göndərməsi vəziyyəti daha da gərginləşdirdi.

40-dan çox yüksək rütbəli hərbçi tərəfindən imzalanan bəyanatda bildirilirdi ki, baş qərargah Paşinyanın uzaqgörən olmayan və əsassız addımlarına, xüsusən də baş qərargah rəisinin birinci müavininin vəzifəsindən azad edilməsinə qəti surətdə etiraz edir. Hərbçilər hesab edirdilər ki, Tiran Xaçatryanın vəzifədən kənarlaşdırılması Ermənistanın milli və dövlət maraqları nəzərə alınmadan, yalnız şəxsi ambisiyalara əsaslanaraq verilib. "İndiki çətin şəraitdə belə bir qərarın verilməsi dövlətə qarşı yönələn və məsuliyyətsiz bir addımdır" deyə açıqlamada qeyd edilirdi.

Paşinyan isə "Feysbuk" səhifəsindən açdığı canlı yayımda ölkənin baş qərargahının bəyanatını hərbi çevrilişə cəhd adlandırdı. Bundan sonra o, tərəfdarlarını meydana çıxmağa çağırdı: "Tərəfdarlarımızı elə indi Respublika meydanına çıxmağa dəvət edirəm. Vəziyyət çox gərgindir. Baş Qərargah rəisinin və onun birinci müavininin vəzifəsindən kənarlaşdırılması barədə qərar verdiyimi bilirsiniz. Bu qərarların səbəbini meydanda açıqlayacağam. İndi ən vacib vəzifə vətəndaş və xalq hakimiyyətini qorumaqdır".

### Xalq hərbi xuntaya "yox" dedi

Ermənistan cəmiyyəti iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkilərinə dərin siyasi böhran fonunda, eləcə də bir-biri ilə açıq düşmənçilik edən düşərgələrə bölünmüş vəziyyətdə getdi. Gözlənildiyi kimi, seçkilərdə əsas rəqiblər Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyası və sabiq prezident Robert Köçəryanın "Ermənistan" bloku oldu.

Ermənistan Mərkəzi Seçki Komissiyasının (MSK) 2008 seçki məntəqəsindən əldə olunmuş bülletenlərin sayılması əsasında açıqladığı hesabatda bildirildi ki, 1 milyon 281911 bülleten sayıldıqdan sonra Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyasının 53,92 faiz (687 251 seçici), keçmiş prezident Robert Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun isə 21,04 faiz (268 165 seçici) səs topladığı təsdiqlənib. Sabiq prezident Serj Sarkisyana bağlı "Şərəfim var" bloku 5,23 faiz (66 633 seçici), "Çiçəklənən Ermənistan" partiyası isə 3,96 faiz (50 416 seçici) seçicinin dəstəyini qazanıb.

*Ümumiyyətlə, real mənzərə göstərir ki, müharibədə aldığı sarsıdıcı məğlubiyyətdən sonra 2021-ci il Ermənistanda yaşanan tənəzzülün daha da sürətlənməsi ilə xarakterizə olunub və qarşıdakı dövrün də bundan nəyə görəsə fərqlənməsi gözlənilmir. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşadı. Rəsmi İrəvan sülh danışıqları masasına əyləşməsə İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan dövlətinin Ermənistana verdiyi tarixi dərs bu ölkəni daha dərin fəlakətlərə sürükləyəcək.*

***Elçin CƏFƏROV, "Azərbaycan"***







## ZƏFƏR gündəliyi
## 6 noyabr 2020-ci il

Noyabrın 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.



Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutur.

Noyabrın 5-dən 6-na keçən gecədən başlayaraq səhər saat 05:00-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrinin mövqeləri düşmən tərəfindən fasilələrlə atəşə tutulur.

❖ ❖ ❖

Saat 08:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutur.



Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

Gecə ərzində Goranboy rayonunun Tapqaraqoyunlu kəndi də düşmən tərəfindən artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində brifinq keçirilir. Cəbhədəki vəziyyət barədə məlumat verilir.

Qeyd edilir ki, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən onun yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Düşmən bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən erməni silahlıları mövqelərini ataraq qaçır.

❖ ❖ ❖

Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayır. Görüntülərdə erməni vandalizminin izləri aydın şəkildə görünür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan D-30 haubitsasının heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

❖ ❖ ❖

Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi çatışmazlıqlar yaranır. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatları, yanacaq sürtkü materialları çatışmır.



Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilir və bölmələrin idarə olunmasında problemlər yaranır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# VIII Bakı Qlobal Forumu çərçivəsində qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə dair müzakirələr aparılıb






Noyabrın 5-də VIII Bakı Qlobal Forumu çərçivəsində “Qlobal iqlim dəyişiklikləri ilə mübarizə və enerjiyə qlobal ehtiyacların qarşılanması. Hər iki məsələni eyni vaxtda necə həll etmək olar?” mövzusunda panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekutanın moderatorluğu ilə keçirilən panel iclasında Moldovanın keçmiş Baş naziri Kirill Qaburici hər kəsin öz öhdəliyini başa düşməli olduğunu deyib. O bildirib: “Biz gələcək nəsilləri düşünməliyik. Ekologiyanı indi daha çox düşünməliyik, eqoist yanaşmanı kənara qoymalıyıq. “Ətraf mühit bizim planlarımıza uyğunlaşmalıdır” deyə düşünmüşdük, indi isə vəziyyət əks istiqamətdə dəyişib”.

Azərbaycanın iqlim dəyişiklikləri üzrə bütün qlobal tələbləri dəstəklədiyini deyən energetika naziri Pərviz Şahbazov qeyd edib ki, ölkəmiz eyni zamanda həm də öz həll yollarını təqdim edir.

Nazir bildirib ki, bu forum qlobal problemlərin müzakirəsi və həlli üçün mühüm platformaya çevrilib. Qlobal iqlim dəyişiklikləri bu gün bütün dünya ölkələrinin gündəliyinə daxildir və bu məsələ bir neçə gün əvvəl Qlazqoda fəal şəkildə müzakirə olunub. Hesab edirəm ki, bizim üzərimizdə olan məsuliyyət siyasi yollarla tənzimlənməlidir. Avropada enerji ilə bağlı bugünkü mənfi vəziyyət davam etməməlidir. Biz Avropa ölkələrinə bu problemin həllində yardım etməliyik. Bundan başqa, hansısa problemin həllində bir sektora diqqət ayırmaq lazım deyil, biz cari problemləri genişləndirilmiş şəkildə həll etməliyik.

Pərviz Şahbazov əlavə edib ki, 2020-ci ildə dünyada elektrik enerjisinin istehsalında bərpa olunan enerji mənbələrinin payı 29 faizə çatıb. “Biz bilirik ki, bu, kifayət deyil. Biz bu potensialı genişləndirməliyik”, - deyə o vurğulayıb.

BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti, Ekvadorun sabiq xarici işlər və müdafiə naziri Maria Fernanda Espinoza çıxışında bildirib ki, dünya hazırda iqlim tarazlığı barədə düşünməlidir. Artıq məsələ nəzəriyyənin bu planetdə mövcudluğu səviyyəsinə gəlib çatıb. Biz həyəcan təbili çalmalıyıq. Kömür istehsalının və hasilatının qarşısı alınmalıdır. Sosial-iqtisadi islahatlar aparılmalıdır. Bu, xüsusilə inkişafda olan ölkələrdə nəzərə alınmalıdır. Təbii ki, bu ölkələr inkişafdadırlar, onlar üçün bu resurslardan istifadə vacibdir və ondan imtina etmək çətindir. Ancaq bu tədricən olmalıdır və bu ölkələrə dəstək verilməlidir.

“Dünya ölkələri Paris İqlim Sazişinin reallaşmasından çox geridə qalıb. Dünya sistematik problemlə üz-üzədir. Bizə dayanıqlı çoxtərəfli yanaşma lazımdır. Bu, bir ölkənin məsuliyyəti deyil, biz hamımız məsuliyyəti bölüşməliyik”, - deyə o, qeyd edib.

Nobel Sülh Mükafatı laureatı Uided Buşamai çıxışında su resurslarının iqlim dəyişikliyinin təsirlərinə məruz qalmasından və ölkələr üçün yaratdığı problemlərdən danışıb. Bildirib ki, su ehtiyatlarının qorunması və iqlim dəyişikliyinin nəticələrinə adaptasiya olmaq üçün inkişaf etmiş ölkələr inkişafda olan ölkələrə yardım etməlidir.

ICESCO-nun keçmiş baş direktoru Əbdüləziz Əl-Tüveycri çıxışında deyib ki, onun ölkəsinin qaz və neft resursları yoxdur, amma günəş və külək enerjisindən istifadə edir və ölkə bu sahəni inkişaf etdirir. “Biz hazırkı enerji istehsalı metodlarını məhdudlaşdırmalıyıq, alternativ enerji resurslarına yönəlməliyik. Biz bunu təbliğ etməliyik. Qazıntı yanacaq növlərini məhdudlaşdırmalıyıq. Bu, bizim ətraf mühitimizə zərər vurur. Bərpa olunan enerji istehsalının bahalı olduğu deyilir. Doğrudur, amma texnologiya inkişaf etdikcə, bu, daha da ucuzlaşacaq və səmərəli olacaq”, - deyə sabiq baş direktor vurğulayıb.

İspaniyanın sabiq xarici işlər naziri Ana Palasio isə çıxışında qeyd edib ki, bütün vasitələrlə dekarbonizasiya reallaşmalıdır. İstixana qazlarının, emissiyaların məhdudlaşdırılması qlobal səviyyəli məsuliyyətdir.

“Bu, bizim üzləşdiyimiz çoxtərəfli problemdir. Birgə səylər göstərməliyik ki, hədəflərimizə çataq”, - deyən sabiq XİN başçısı bildirib ki, nüvə enerjisinə resurs kimi baxılır. Avropa regionu buna çox da meyil göstərmir. Deyilir ki, nüvə enerjisi qəbuledilləndir, səmərəlidir. Amma bu, kimin üçün belədir?

Ruminiyanın sabiq xarici işlər naziri Lazar Komanesku da panel iclasında çıxış edib. O, diqqətə çatdırıb ki, panelin mövzusu zamanın çağırışı, problemidir. İqlim dəyişikliklərinin qarşısını almaq üçün əməkdaşlıq vacibdir. Bu, həmçinin Paris İqlim Sazişinin hədəflərinə nail olmaq üçün zəruri amildir. Regional, ikitərəfli və qlobal səviyyədə əməkdaşlıq dərinləşməlidir.

# *Qlobal Bakı Forumu:* İctimai səhiyyə və insanların vaksinasiyası






**Noyabrın 5-də VIII Qlobal Bakı Forumu çərçivəsində “İctimai səhiyyə və insanların vaksinasiyası” mövzusunda beşinci panel iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti Suzan Elliottun moderatorluğu ilə keçən panel iclasında qlobal pandemiya ilə mübarizə, COVAX platformasının fəaliyyəti, vaksinlərin qeyri-bərabər bölgüsü müzakirə edilib.

Panel iclasında İsrailin sabiq prezidenti, 2006-2009-cu illərdə Knessetin prezidenti Daliya İtzik, Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev, Sloveniyanın sabiq prezidenti Danilo Turk, Latviyanın sabiq Baş naziri Lamdota Strauyuma, Tacikistan Prezidentinin sosial inkişaf və ictimaiyyətlə əlaqələr üzrə köməkçisi, parlamentin qanunvericilik və insan hüquqları komitəsinin sədri Emomali Nasriddinzoda çıxış ediblər.

Suzan Elliott bildirib ki, COVID-19 peyvəndlərinin vaxtında, keyfiyyətli və ədalətli paylanılması çox vacibdir. Hazırda dünyanın aztəminatlı ölkələrində əhalinin yalnız 10 faizə qədəri vaksinasiyadan keçib.

S.Elliottun sözlərinə görə, peyvəndləmə ilə əlaqədar xüsusilə Afrikada acınacaqlı vəziyyət müşahidə olunur: “Afrika əhalisinin yalnız 5 faizi birinci doza vaksin qəbul edib. COVAX platformasından daha çox faydalanmaq lazımdır. Ümumdünya Səhiyyə Təşkilatına vaksinlərin daha ədalətli paylanması sisteminin hazırlanmasına kömək etməliyik. Zəngin ölkələr də vaksinlərin paylanmasında böyük rol oynamalıdır.

Panel iclasında çıxış edən İsrailin sabiq prezidenti, 2006-2009-cu illərdə Knessetin prezidenti Daliya İtzik İsrailin əhalisinin əksəriyyətinin vaksinləşdiyi nadir ölkələrdən biri olduğunu qeyd edib: İsraildə əhalinin böyük əksəriyyəti qısa zamanda peyvəndlənib. 6 milyon əhali birinci doza, 3 milyon isə hər iki doza peyvəndi qəbul edib. 2 milyon əhaliyə isə üçüncü doza vurulub. Ölkədə əhalinin 60 faizi peyvəndlənib. Həmçinin ölkədə 12 yaşdan yuxarı uşaqların peyvəndlənməsinə başlanılıb. Yaş azaldıqca peyvəndləmə göstəricisi də azalır. Gənclər arasında vaksinasiya aparılmasında çətinlik çəkirik. Bu da vaksinlər haqqında dezinformasiyaların yayılması səbəbindən baş verir”.

D.İtzikin xatırladıb ki, qlobal səviyyədə peyvəndlərin paylanması üçün COVAX sistemi yaradılıb. COVAX hər bir ölkənin maraqlarını nəzərə alır: “Bu məsələdə hər bir ölkənin əvvəlcə öz vətəndaşlarının sağlamlığının qayğısına qalması başadüşüləndir, lakin istərdik ki, hər bir ölkə üçün də eyni əlçatımlılıq olsun. Bu sahədə ölkələrin beynəlxalq sazişə qoşulması təqdirəlayiqdir”. İsrailin müxtəlif ölkələrlə əməkdaşlıq etdiyini, peyvənd yardımı göndərdiyini vurğulayıb.

Səhiyyə nazirinin müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev COVID-19-un dünya ölkələrinin səhiyyə sisteminə təzyiqlər göstərməkdə olduğunu diqqətə çatdırıb. Ümumdünya Səhiyyə Təşkilatının vaksinlərin paylanması ilə bağlı statistikasından bəhs edən T.Musayev yüksək gəlirli ölkələrdə hər 100 nəfərə 133 doza vaksin düşdüyü halda aşağı gəlirli ölkələrdə bu rəqəmin 4-ə bərabər olduğunu qeyd edib: “Belə bir şəraitdə pandemiyanı istənilən şəkildə idarə edə bilməyəcək və onun dalğaları qarşısında aciz qalacağıq”.

T.Musayev bildirib ki, Prezident İlham Əliyevin apardığı düzgün siyasət və beynəlxalq münasibətlər nəticəsində Azərbaycan lazımi miqdarda vaksin alıb. Milli Vaksinasiyası Strategiyası hazırlanıb və ölkədə yanvarın 18-dən peyvəndləmə prosesi başlayıb: “Əhalinin hədəf qruplarının 60 faizi iki doza ilə peyvəndlənib. İkinci dozadan 6 ay keçdikdən üçüncü doza ilə peyvəndləmə də aparılır. Azərbaycanda pandemiyanın ilk günlərindən ictimai kampaniya, maarifləndirmə tədbirlərinə başlanıldı. Burada kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyətləri də mühüm rol oynadılar. Ölkəmizdə vaksinasiyadan keçənlərin, virusa yoluxan və sağalanların sayı ilə bağlı rəqəmlər şəffaf şəkildə paylaşılır”.

T.Musayev Azərbaycanda vaxtında görülən tədbirlər nəticəsində COVID-lə bağlı vəziyyətin nəzarət altına alındığını da diqqətə çatdırıb: “İlk gündən Azərbaycan hökuməti bütün strateji imkanlarını həmin qlobal bəla ilə mübarizəyə yönləndirdi. 50 yeni laboratoriya yaradıldı və mövcud şəbəkəyə inteqrasiya edildi, COVID xəstələrinin müalicəsi üçün çarpayıların sayı 50 minə çatdırıldı, ölkəyə süni tənəffüs aparatları gətirildi. Azərbaycan vaksinasiya kampaniyasına qoşulan birinci ölkələrdəndir. COVAX elə platformadır ki, təsis edilməsi insan həyatının xilas edilməsi məqsədi daşıyır. O da sərt, azad ticarət qaydalarına uyğun deyil. Dünya ictimaiyyəti bu platformaya dəstək göstərməlidir ki, vaksinlərin paylanması təmin edilsin. Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan siyasəti vaksinlərin dünya ölkələrinə ədalətli paylanmasına töhfə verəcək.

“Vaksinlərin ədalətsiz paylanması çox ciddi qərarlar qəbul edilməsini şərtləndirir. Qlobal siyasət hazırlanmalı və qəbul olunmalıdır. Azərbaycan ilk gündən “vaksin millətçiliyinə” qarşı mübarizə aparır. Təəssüf ki, hələ də dünyada “vaksin millətçiliyi” davam edir”, - deyə T.Musayev diqqətə çatdırıb.

Sloveniyanın sabiq prezidenti Danilo Turk bildirib ki, COVID-19 dünyanın reallığını, çatışmazlığını, problemlərini üzə çıxardı: “Bu, bizim üçün dərs olacaq və gələcəkdə strategiyaların hazırlanmasında kömək göstərəcək. Hazırda dünyada beynəlxalq əməkdaşlığın zəif olduğu görünür, daha çox milli sistem üzə çıxır. İctimai səhiyyə xidmətləri o qədər güclü deyil. Peyvəndlərlə bağlı millətçilik hökm sürür. Biz buna tənqidi yanaşmalı, ədalətsiz paylanmanın qarşısını almalı, qlobal bir platforma üzərində səylərimizi birləşdirməliyik. Yüksək səhiyyə standartları ilk növbədə insan hüquqlarını təsvir edir. Səhiyyə xidmətləri əlçatan olmalıdır”.

Panel iclasında çıxış edən Latviyanın sabiq Baş naziri Lamdota Strauyuma deyib: “Hesab edirəm ki, az inkişaf etmiş və xüsusilə kasıb dövlətlərə COVID-19 vaksinlərinin əlçatanlığı üçün yardımımızı əsirgəməməliyik. Beynəlxalq əməkdaşlıq gücləndikcə vaksinlərin istehsalı işinin səmərəliliyi də artır. Onu da qeyd edim ki, Latviya Avropa İttifaqının üzvüdür və dövlətimiz pandemiya dövründə vaksinlərin işlənib hazırlanması işinə 2.5 milyard dollar vəsait yönəldib. Bundan başqa, vaksinlərin təhlükəsizliyi və təchizatı məsələsinə də diqqət yetirmək lazımdır. Pandemiya dünya ölkələrinin ictimai səhiyyə sistemindəki boşluqları ortaya çıxardı. Bir sıra ölkələrdə tibb işçiləri çatışmazlığı və monitorinq işinin zəifliyinin şahidi olduq. Hesab edirəm ki, problemlərin həlli və təkmilləşdirilmiş səhiyyə xidmətlərinin təşkili üçün beynəlxalq əməkdaşlığı artırmaq lazımdır. Təəssüf ki, səhiyyə sistemi hələ də çaşqınlıq dövrünü yaşayır. Hazırda COVID-19 əleyhinə vaksinasiya infeksiya ilə ən yaxşı mübarizə üsuludur”.

Tacikistan Respublikasının Prezidentinin Sosial inkişaf məsələləri və ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Emomali Nasriddinzoda təşkilatçılığa görə Azərbaycan dövlətinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib və belə mötəbər qlobal forumda çıxış etməkdən məmnunluğunu ifadə edib. COVID-19 pandemiyasının bütün dünya ölkələrinin təhsil sisteminə mənfi təsirindən danışan təmsilçi qeyd edib ki, bu təsir təhsilin bütün pillələrində müşahidə edilib.

“Pandemiyanın əvvəllərində, yəni 2020-ci ildə 124 ölkədə təhsil müəssisələri tamamilə, 11 ölkədə isə qismən dayandırılıb. Sonrakı müddətdə isə 188 dünya ölkəsində təhsil ocaqlarının fəaliyyətinə məhdudiyyət qoyulub. Nəticədə, 1,5 milyard təhsilalan tədris prosesindən məhrum qalıb. Yəni COVID-19 pandemiyasından ən çox zərər görən sahələrdən biri də təhsildir. Həmçinin BMT-nin məlumatına görə, koronavirus pandemiyası aztəminatlı ailələrə daha çox mənfi təsir göstərib. Bu kimi mənfi təsirlərin aradan qaldırılması, qlobal problemlərin həll edilməsi üçün Tacikistan Respublikası bütün vacib tədbirləri həyata keçirməyə hazırdır”, - deyə E.Nasriddinzoda vurğulayıb.

Qeyd edək ki, VIII Qlobal Bakı Forumu öz işini noyabrın 6-da başa çatdıracaq.

# *Qlobal Bakı Forumunun yeddinci panel iclası:* *“Gənclər danışır, biz düşünürük”*




“COVID-19-dan sonrakı dünya” mövzusunda keçirilən VIII Qlobal Bakı Forumu noyabrın 5-də işini panel iclasları ilə davam etdirib.



AZƏRTAC xəbər verir ki, forumun “Gənclər danışır, biz dinləyirik” mövzusunda keçirilən yeddinci panel iclasında gənclərin dünyadakı qlobal problemlərə və onların həllinə baxışları müzakirə olunub.

Əvvəlcə moderator - 2005-2010-cu illərdə Ukraynanın birinci xanımı olmuş Katerina Yuşşenko müzakirə edilən məsələlər haqqında qısa məlumat verib. Bildirib ki, iştirakçılar - gənc liderlər qlobal boşluqlarla bağlı fikirlərini bölüşəcək, iştirakçıları maraqlandıran sualları cavablandıracaqlar.

Qeyd olunub ki, forumda müzakirə edilən məsələlər, tövsiyə olunan istiqamətlər gələcək nəsillərin yaşayıb işləyəcəyi mühiti formalaşdıracaq. Buna görə də qərar qəbul edərkən gənclərin fikirlərini dinləmək çox vacibdir. Biz onlardan yeni tendensiyalar, dəyərlər, perspektivlər və texnologiyalar haqqında çox şey öyrənə bilərik ki, bu da daha yaxşı qərarlar qəbul etməyə və daha davamlı strategiyalar hazırlamağa ruhlandıra bilər. Qlobal Bakı Forumunda iştirak edən gənc liderlər gələcək nəslin ən yaxşı və parlaq nümayəndələrini təmsil edirlər.

Qaqauziya Muxtar Ərazisinin rəhbəri İrina Vlax çıxış edərək bu gün dünyanın, xüsusən də Moldova gənclərinin qarşılaşdığı problemlərdən söz açıb. Bildirib ki, yaşadığın ölkədə əmin-amanlığın olması, iqtisadi-siyasi inkişaf, azad düşüncə, əlçatan və keyfiyyətli təhsil, xoşbəxt və firavan həyat hər bir gəncin gələcəyi ilə bağlı xoş arzusudur. O, gəncləri daha gözəl bir dünya naminə siyasi və mənəvi yüksəlişə səsləyib.

Sonra gənc liderlər dünyanın qarşılaşdığı başlıca problemlər - sülh və təhlükəsizlik, qlobal iqlim dəyişikliyi, ekoloji təhlükəsizlik, enerji təhlükəsizliyi, ərzaq çatışmazlığı, qida təhlükəsizliyi, əlçatan və keyfiyyətli təhsil, dördüncü sənaye inqilabının üstünlükləri və bəşəriyyət üçün təhdidləri, süni intellektin tətbiqi vasitəsilə yaradılmış yeni nəsil silahların bəşəriyyət üçün yarada biləcəyi təhlükələr ətrafında geniş müzakirə aparıblar.

Çıxışlarda müasir dövrdə ali təhsildə qlobal tendensiyalara və dəyişən paradiqmalara diqqət yetirilib, təhsildə və gənc nəslin tərbiyəsində yeni modellərin, yanaşmaların və sistemlərin tətbiqi, o cümlədən təhsilə, qadın təhsilinə diqqətin artırılmasının vacibliyi vurğulanıb.

Gənc liderlər qlobal istiləşmənin və iqlim dəyişikliyinin qarşının alınmasında dövlətlərin ekoloji təhlükəsizlik üçün daha optimal, alternativ enerji mənbələrinin axtarılmasına, onların istifadəsinin tətbiqinə, ətraf mühitə atılan tullantıların utilizasiyasına diqqət yetirməli olduğunun vacibliyini qeyd ediblər.

Müzakirələrdə aşağı inkişaf səviyyəsində olan ölkələrdə qadın hüquqlarının müasir vəziyyəti, qız uşaqlarının oğurlanması, qadınların təhsildən kənar qalması kimi məsələlərə də diqqət ayrılıb.

# *Viktor YUŞŞENKO:* “Forumun gündəliyindəki məsələlər çox aktualdır”

“Forumun işini təqdirəlayiq hesab edirəm. Gündəlikdəki məsələlər çox aktualdır, məhsuldar debatlar var”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ukraynanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Viktor Yuşşenko jurnalistlərə müsahibəsində deyib. O, qeyd edib ki, forum çox əlamətdar günlərə - Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin ildönümünə təsadüf edir. Forumun keçirilmədiyi son iki ildə bölgədə çox müxtəlif hadisələr baş verib. Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Ona uğurlar arzulayıram.

# VIII Qlobal Bakı Forumu çərçivəsində ərzaq və qida təhlükəsizliyinin təşviqi məsələləri müzakirə olunub

Noyabrın 5-də VIII Qlobal Bakı Forumu çərçivəsində “Ərzaq və qida təhlükəsizliyinin təşviqi” mövzusunda altıncı panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının keçmiş vitse-prezidenti İsmail Serageldinin moderatorluğu ilə keçən panel iclasında Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün dünyada yoxsulluğun və aclığın aradan qaldırılması istiqamətində göstərilən səylər, sosial müdafiə və bufer ehtiyatları vasitəsilə davamlılığın yaxşılaşdırılması, qida sistemlərinin işləməsinin təmin olunması, yerli dəyər zəncirinin gücləndirilməsi, qidalanmanın yaxşılaşdırılması, dayanıqlı qida istehsalının genişləndirilməsi və digər məsələlər müzakirə edilib.

Panel iclasında çıxış edən Quraq Torpaqların Meliorasiyası üzrə Beynəlxalq Komissiyanın sədri, Misirin sabiq kənd təsərrüfatı və meliorasiya naziri Adel El Beltaqi iqlim dəyişikliyi ilə bağlı Şotlandiyada keçirilən Qlazqo Forumu barədə danışıb. Bildirib ki, iqlim dəyişikliyinə təsir göstərən amillərlə bağlı davamlı maarifləndirmə mühüm əhəmiyyət daşıyır.

Mavritaniyanın sabiq Prezidenti Amina Qurab-Fakim çıxışında koronavirusa yoluxmanın yayıldığı vaxtda, xüsusilə Afrika qitəsində biomüxtəlifliyin qorunub saxlanılmasından danışıb. Biz əsasən bu məsələlərə kənd təsərrüfatının inkişafının necə düzgün təmin edilməsi baxımından yanaşmalıyıq. O, bitki bankının yaradılmasının nadir bitki toxumlarının toplanması, biomüxtəlifliyin qorunub saxlanılması baxımından çox vacib olduğunu deyib.

ABŞ Dövlət Departamentinin elm məsələləri üzrə sabiq müşaviri Nina Fedoroff çıxışında bildirib ki, dənli bitkilərin becərilməsi yararlı olan ərazilər şimaldan cənuba yönələcək. İqlim dəyişikliyi qlobal kənd təsərrüfatının məhsuldarlığının 20 faiz azalacağını bildirib. İqlim dəyişikliyinin bizə qarşı işlədiyini və hazırda yeganə yolun innovativ texnoloji üsullardan, ağıllı texnologiyalardan istifadə edərək bu məhsuldarlığı artıraraq kənd təsərrüfatının inkişafını təmin edə bilərik. O, həmçinin iqtisadi və ekoloji amillərə toxunaraq kənd təsərrüfatına olunan sərmayələrin artdığını deyib. Təəssüflə bildirib ki, bu sərmayələrin əsas hissəsi inkişaf etmiş ölkələrin payına düşür. O, bitki və dən genlərini dəyişmək vasitəsilə elmi texnoloji tərəqqidən istifadə etməklə bəzi kənd təsərrüfatı mallarının məhsuldarlığının artırılması barədə danışıb. Sonda genetik araşdırmaların və tədqiqatların aparılması üçün investisiyaların daha da artırılmasının vacibliyini vurğulayıb.




BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş elmi işçisi İsmahane Elouafi qida zəncirinin dəyişilməli olduğunu qeyd edib. Artıq böhran dövrünü keçdiyi bildirən alim bildirib ki, bunun üçün biz kənd təsərrüfatının dayanıqlı inkişafini təmin etməliyik. Təklif edərdim ki, süni zəkadan istifadə edərək dayanıqlı qida istehsalını genişləndirə bilərik. Müasir texnologiyalardan, innovasiyalardan, ucuz başa gələn texnologiyalardan istifadə etməyin vacibliyini bildirib. Kənd təsərrüfatının yenidən təşkili zamanı DİM-in gündəliyində duran məsələləri də nəzərə almaq lazımdır.

Müzakirələr zamanı bildirilib ki, yoxsulluğun aradan qaldırılmasına töhfə vermək üçün modernləşdirilmiş qida və qidalanma sistemi qida dəyəri zəncirinin bütün aktorları üçün tam və məhsuldar məşğulluğu, layiqli əməyi təşviq etməli, dünyanın ən yoxsul insanları üçün riskləri azaltmalı, sahibkarlıq mühiti yaratmalı və resurslara əlçatanlıqda bərabərsizlikləri aradan qaldırılmalıdır. Vurğulanıb ki, insanlar təbiətə qarşı deyil, onunla işləməyi öyrənməli, bununla da biomüxtəlifliyini itirilməsini, çirklənməni, sudan istifadəni, torpağın deqradasiyasını və istixana qazı emissiyalarını azaltmalıdırlar.

Panel iclası müzakirələrlə davam edib.

Qeyd edək ki, VIII Qlobal Bakı Forumu öz işini noyabrın 6-da başa çatdıracaq.

# Mərkəzi Bank Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksində Zəfər günü ilə bağlı tədbir keçirmişdir







Mərkəzi Bankın təşəbbüsü və təşkilatçılığı ilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə aparılmış 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun tarixi Zəfərinin ildönümü ərəfəsində Şəhid Mübariz İbrahimovun adını daşıyan Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksində böyük qələbəyə həsr olunmuş "açıq dərs" tədbiri keçirilmişdir.

Şəhid ailələrinin, Milli Qəhrəman M.İbahimovun atası Ağakərim İbrahimovun, qazilərin, rayon rəhbərliyinin, Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli və digər qonaqların iştirak etdiyi tədbirdə Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış edərək bildirmişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz möhtəşəm Zəfər çalaraq otuz ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi, tarixi ədalət bərpa olundu, dövlətçilik tariximizin yeni, qürurverici səhifələri yazıldı. Hərb meydanında əldə olunan bu şanlı Zəfər Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan, uzun illər ərzində həyata keçirilən məqsədyönlü və uzaqgörən siyasətin, milli iqtisadi potensialın artırılması, müasir və qüdrətli ordu quruculuğu sahəsində görülən nəhəng işlərin və xalqımızın ölkə Prezidenti ətrafında sıx birləşməsinin, Xalq-Prezident birliyinin təcəssümüdür.

Böyük qürur hissi ilə qeyd edildi ki, Mərkəzi Bankın 12 nəfər əməkdaşı, həmçinin liseyin üç müəllimi də İkinci Qarabağ müharibəsinə qatılaraq hərbi əməliyyatlarda bilavasitə iştirak etmişdir. Onlar Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə medallarla, həmçinin yüksək nəticələr əldə etdiklərinə görə fəxri fərmanlarla təltif olunmuşlar.

Bildirildi ki, xalqımızın, şanlı ordumuzun bütün bu qəhrəmanlıqları Mübariz İbrahimov kimi igid vətən oğullarının böyük şücaəti hesabına başa gəlmişdir. 44 günlük şanlı savaş XXI əsrin müharibəsi oldu. Yüksək hərbi texnologiyalarla aparılan bu haqq savaşı bir daha göstərdi ki, xalqımızın indiki və gələcək nəsilləri içərisindən sarsılmaz mənəvi və vətənpərvərlik ruhlu savadlı mütəxəssislər, o cümlədən ən son texnoloji biliklərə malik ağıllı hərbçilər yetişdirilməlidir. Bütün bunlar isə Biləsuvar Lisey kompleksi kimi müasir və güclü təhsil ocaqlarından başlayır.

Qeyd edildi ki, liseyin Milli Qəhrəman Şəhid Mübariz İbrahimovun adına layiq böyük uğurları var. Bütün illərdə məktəbin məzunlarının hamısı müvəffəqiyyətlə ali məktəblərə qəbul olmuş, o cümlədən bir qrupu xarici universitetlərdə təhsil almaq hüququ əldə etmişlər. Kompleks 2015-ci ildən bəri 5 dəfə ardıcıl olaraq respublikanın lider məktəbi hesab edilmişdir. Liseydə ötən tədris ilindən başlayaraq beynəlxalq təhsil proqramlarına start verilmişdir. Liseyin məzunları bakalavr pilləsindən sonra təhsillərini Türkiyə, Almaniya, İspaniya, İtaliya, Macarıstan kimi dövlətlərin qabaqcıl universitetlərində davam etdirirlər. Bütün bunlar onu göstərir ki, Mərkəzi Bankın "Mübariz Liseyi"ni yaratmaqla qarşıya qoyduğu müasir kompetensiyalı, analitik təfəkkürə malik insan kapitalının formalaşdırılması ideyası uğurla həyata keçirilir.

Liseydə şəhid ailələri və qazilərə böyük diqqət var. Burada şəhid və qazi ailələrinin övladlarının daha yaxşı təhsil alması məqsədilə bütün imkanlar səfərbər edilmişdir. Belə ki, cari tədris ilində kompleksdə 11 şəhidin 17 övladının və bir şəhid qardaşının tam ödənişsiz, 9 qazi övladının isə şagirdin akademik göstəricilərinə əsasən müvafiq güzəştlə təhsil alması təmin edilmişdir.

Digər çıxışlarda da vurğulandı ki, Müzəffər Ali Baş Komandanın böyük sərkərdəliyi, şəhidlərimizin müqəddəs qanı, qazilərimizin misilsiz qəhrəmanlığı, bütövlükdə xalqımızın rəşadətli əzmi ilə başa gələn böyük Zəfər xatirələrdə əbədi yaşayacaq, müstəqil və güclü Azərbaycan daim var olacaqdır.

Tədbir lisey kompleksinin binasında yerləşən elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) mərkəzinin qonaqlara təqdim edilməsilə davam etmişdir. Burada II Qarabağ müharibəsi qazisi olan lisey əməkdaşlarının iştirakı ilə "Zəfər tarixi" adlı açıq dərs, "Dəmir yumruq" şahmat turniri, həmçinin "110 kitab" layihəsi üzrə Vətən müharibəsindən bəhs edən hekayənin müzakirəsi təşkil olunmuşdur.

Daha sonra liseydə çalışan Vətən müharibəsi iştirakçılarına hədiyyələr təqdim edildi. Şəhid ailələrinə ərzaq yardımları paylanıldı. Biləsuvar və Cəbrayıl rayonlarından olan şəhid ailələri ilə görüş keçirildi.

*"Azərbaycan"*

# "AzerGold" Qapalı Səhmdar Cəmiyyətində "Yüksəliş" müsabiqəsinin qaliblərindən biri ilə görüş keçirilib



Görüşdə mentorluq proqramının iştirakçısını "Yüksəliş" müsabiqəsində qaliblər sırasında yer alması münasibətilə təbrik edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov qaliblərdən biri olan Nazim Novruzovun idarəçilik sahəsində təcrübəsinin artırılması üçün zəruri dəstək göstəriləcəyini bildirib.

Layihənin idarəçi rəhbərlərindən biri olaraq "AzerGold" QSC-nin İdarə Heyətinin sədri birillik fərdi inkişaf planı əsasında müsabiqə qalibi ilə sıx əməkdaşlıq edəcəyini, onunla təcrübəsini bölüşəcəyini və beləliklə, öz potensialını üzə çıxarmasına kömək göstərəcəyini diqqətə çatdırıb.

"Yüksəliş" müsabiqəsinin idarəçi rəhbərlər heyətinin tərkibinə iqtisadiyyat naziri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, energetika naziri Pərviz Şahbazov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, kənd təsərrüfatı naziri İnam Kərimov, maliyyə naziri Samir Şərifov, xarici işlər naziri Ceyhun Bayramov, gənclər və idman naziri Fərid Qayıbov, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, ombudsman Səbinə Əliyeva, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, "Kapital Bank"ın İdarə Heyətinin sədri Rövşən Allahverdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "BP" şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov daxildirlər.

Müsabiqənin şərtlərinə əsasən, qalib bir il müddətində müsabiqənin idarəçi rəhbəri ilə mentorluq proqramı çərçivəsində əməkdaşlıq edərək təcrübə keçəcək.

"Yüksəliş" müsabiqəsi 21-51 yaş aralığında, ikiillik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan Respublikasının vətəndaşlarını əhatə edir. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqədə ümumilikdə 11.760 nəfər qeydiyyatdan keçib. Onlardan 9.775 nəfəri müsabiqəyə qəbul edilib.

# Vətən müharibəsində media nümayəndələri qələmlərini süngüyə çevirməyi bacardılar

Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində 44 günlük Vətən müharibəsində iştirak etmiş media nümayəndələri ilə görüş keçirilib.



Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun şücaəti nəticəsində qazanılan şanlı Zəfərin ildönümünə həsr olunmuş tədbir torpaqlarımızın azadlığı uğurunda canından keçmiş Vətən övladlarının, o cümlədən bu ilin iyunun 4-də öz vəzifə borclarını yerinə yetirərkən Kəlbəcərdə mina partlaması nəticəsində şəhid olan Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun və "AzərTAc"ın əməkdaşı Məhərrəm İbrahimovun xatirələrinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun xalqın birliyindən ruhlanaraq torpaqlarımızı işğaldan azad etməsinin tarixi əhəmiyyətini vurğulayıb. "44 günlük Vətən müharibəsində media nümayəndələri öz qələmlərini süngüyə çevirməyi bacardı", - deyən Əhməd İsmayılov bildirib ki, Azərbaycan jurnalistlərinin ön cəbhədə hərbçi və reportyor kimi iştirakı yüksək qiymətləndirilir. Tədbir iştirakçılarına Medianın İnkişafı Agentliyinin jurnalist peşəkarlığının artırılmasında rolu və agentlik tərəfindən keçirilən təlimlər barədə məlumat verilib. Həmçinin jurnalistikanın müxtəlif sahələri üzrə ixtisaslaşmış klubların yaradılmasına dair müzakirələr aparılıb.

Görüşdə media savadlılığının artırılmasına dair fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
*"Azərbaycan"*

# Dövlət hər zaman vətəndaşının yanındadır



44 günlük Vətən müharibəsinin şanlı qələbəmizlə başa çatmasından bir il ötür. Ərazilərimizin düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlər verdik, yaralananlarımız oldu. Müharibə başa çatdıqdan sonra dövlət dərhal şəhid ailələrinin və qazilərin sosial-məişət şəraitini yaxşılaşdırmaq üçün zəruri tədbirlər görməyə başladı.

Şəhid ailələrinə, qazilərə təqaüdlər, mənzillər verilir. Qazilər yüksək səviyyədə hazırlanan protezlərlə təmin olunur. Bununla yanaşı, həssas kateqoriyadan olan bu insanların məşğulluğunun təmin edilməsinə də diqqət yetirilir. Bir sözlə, şəhid ailələri və qazilərlə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri icra edilir. Dövlətin göstərdiyi dəstək sayəsində 31 min şəxs artıq bu imkandan faydalanıb.

Ötən dövr ərzində 11 min şəhid ailəsinə və müharibə əlilinə mənzil və fərdi ev verilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamla 2021-2025-ci illərdə bu kateqoriyadan olan daha 11 min insanın mənzillə və fərdi evlə təmin edilməsi nəzərdə tutulub. Cari ildə şəhid ailələrinə və müharibə əlillərinə 3 min mənzilin verilməsi proqnozlaşdırılmışdır ki, bunun da 1850-si verilib. İlin sonuna kimi qalan mənzillərin də digər ailələrə verilməsi təmin olunacaq.

Dövlət hər zaman vətəndaşın yanındadır. Belə ki, bundan əvvəl qaçqın və məcburi köçkünlər mənzil və fərdi evlərlə təmin edilirdi. İndi həmin insanlar doğma yurdlarına qayıtmağa hazırlaşır. Buna görə də dövlət başçısı onlar üçün tikilən mənzillərin şəhid ailələrinə və müharibə əlillərinə verilməsini tapşırdı. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən Sumqayıtda 1242 mənzilli qəsəbə tikilməkdədir. Qeyd edək ki, bu qəsəbənin tikintisinə cari ilin ortalarından başlanıb, gələn ilin ortalarında tikintinin başa çatması planlaşdırılıb. Prezident İlham Əliyevin tapşırığına əsasən, qəsəbədə inşa edilən mənzillər şəhid ailələrinə və müharibə əlillərinə veriləcək.

Qazilərin və şəhid ailəsi üzvlərinin sağlamlığı da diqqət mərkəzindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən ilin dekabrından qazilərin yüksək texnologiyalı protezlərlə təminatı başlanıb. Vətən müharibəsində yaralanaraq aşağı və yuxarı ətraflarını itirmiş qazilərimizdən artıq 157 nəfəri 166 yüksək texnologiyalı son nəsil protezlə təmin edilib. 144 nəfər aşağı ətraflarını itirmiş qazilərdir. Onlara təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Bu protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə addımlamağa, müxtəlif məkanlarda maneəsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

Digər 13 nəfər yuxarı ətraflarını itirmiş qazilərdir ki, onlar "ÖSSUR Touch Bionics" protezləri ilə təmin olunub. Bu protezlər yuxarı ətrafları amputasiya olunmuş şəxslərə xüsusi proqram təminatı vasitəsilə sosial həyata daha tez və rahat inteqrasiya imkanı yaradır. "ÖSSUR i-Limb Ultra" bioelektrik əl darağının 18 fərqli tutma variantı mövcuddur. Komplektə istifadəçinin seçiminə uyğun fərqli rəng və ölçülərə malik 6 silikon əlcək da daxildir.

Nazirlik tərəfindən bu ilin iyun ayında başladılan "Məşğulluq marafonu"na isə bu günədək 568 işəgötürən qoşularaq 3269 vakansiya təqdim edib. "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən marafonun məqsədi, adından da göründüyü kimi, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna kömək etməkdir.

Marafona təqdim edilən vakansiyalar üzrə artıq həmin kateqoriyalardan olan 1024 nəfər (160 şəhid ailəsi üzvü və 864 qazi) işlə təmin olunub. Hazırda vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən icra olunan özünüməşğulluq proqramının icrasında həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir. Cari ilin ötən dövründə proqrama 1300-ə yaxın əlilliyi olan şəxs cəlb edilib. Onlar təlimlərdə iştirak edib, kiçik biznesin təşkili və idarəedilməsi üzrə bilik və bacarıqlara yiyələniblər. Həmin şəxslər proqram çərçivəsində seçdikləri sahələr üzrə mal və materiallarla təmin olunaraq öz təsərrüfatlarını qurub. Hazırda da özünüməşğulluq proqramının icrası, xüsusilə həssas qruplardan olan işsiz şəxslərin proqrama cəlb olunması, onlar üçün təlimlərin təşkili işləri davam edir.

***Rüstəm KAMAL,***
*"Azərbaycan"*

# Zəfər günü münasibətilə Dövlət Sərhəd Xidmətinin struktur qurumları arasında futzal və stolüstü tennis yarışları keçirilib







Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda Vətən müharibəsində qazanılmış tarixi Zəfər münasibətilə təşkil edilən silsilə tədbirlər çərçivəsində noyabrın 5-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində Dövlət Sərhəd Xidmətinin (DSX) struktur qurumları arasında futzal və stolüstü tennis yarışlarının final oyunları keçirilib.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, tədbirin açılışında Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Abbas Xəlilov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində düşmən üzərində qazanılmış tarixi Qələbənin ildönümünün ölkəmizin hər bir guşəsində böyük təntənə ilə qeyd olunduğu, müqəddəs savaşda şücaətlə döyüşmüş, qəhrəmanlıq nümunələri göstərmiş sərhədçilərin bu şanlı Zəfər gününü yüksək coşqu ilə qarşıladıqlarını vurğulayıb.

Çıxışda sərhədçilərin ölkəmizin adını hər zaman beynəlxalq idman tədbirlərində, mötəbər yarışlarda zirvələrə ucaltdıqları qeyd edilib və hazırkı tədbirin sərhəd mühafizə strukturları arasında ilk Zəfər yarışı kimi əlamətdar olduğu vurğulanıb.

Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov, "Sərhədçi" İdman Olimpiya Mərkəzinin rəis müavini, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti polkovnik-leytenant Firdovsi Umudov final mərhələsinə yüksəlmiş bütün iştirakçılara qələbə əzmi və uğurlar arzulayıblar.

Sonra komandalar arasında futzal və stolüstü tennis oyunlarının final mərhələsinə start verilib. Futzal üzrə 8 komanda arasında finala yüksəlmiş komandaların maraqlı və həyəcanlı mübarizəsinin qalibi "Çevikçilər", ikinci yerin sahibi "Vətən" komandası, üçüncü yeri isə "Şahinlər" komandası tutub. Qadınlar arasında stolüstü tennis üzrə final yarışının nəticəsinə görə birinci yerə baş miçman Günay Kərimova, ikinci yerə kapitan Rəna Mehdiyeva, üçüncü yerə isə kapitan Ülkər Nəzirova çıxıblar. Tədbirin sonunda mükafatlandırılma mərasimi və ən yaxşı hakim, oyunçu və qapıçı nominasiyasında qaliblər təltifləndirilib.

Sonda komandalar ilə xatirə fotoşəkilləri çəkdirilib.

# Hərbi qulluqçuların xidmət və sosial şəraitinin yaxşılaşdırılması işləri davam etdirilir

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə azad olunan ərazilərdə yeni hərbi şəhərciklərin açılışı davam etdirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əsaslı təmir olunan hərbi hissənin açılışında iştirak edən müdafiə nazirinə məruzə edilib ki, şəhərcik hərbi qulluqçuların bütün zəruri ehtiyaclarının tam təmin edilməsi üçün müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub. Mərkəzi istilik sistemi quraşdırılan hərbi hissədə silah otağı, yataqxana, yeməkxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-camaşırxana-qazanxana kompleksi, avtomobil parkı mövcuddur. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Hərbi qulluqçuların asudə vaxtını səmərəli keçirmələri üçün lazımi şərait yaradılıb. Ərazidə abadlıq işləri aparılıb və müxtəlif növ ağaclar əkilib. Müdafiə naziri hərbi qulluqçuların xidmət və sosial şəraitinin daha da yaxşılaşdırılması, döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, xüsusilə də azad olunan ərazilərdə xidmət edən şəxsi heyətin bütün zəruri ehtiyaclarının təmin olunması barədə müvafiq tapşırıqlar verib.

Sonda Zəfər günü münasibətilə hazırlanan tort kəsilib və general-polkovnik Z.Həsənov şəxsi heyətlə birgə nahar edib.

# AZAL Səudiyyə Ərəbistanının Ciddə şəhərinə xüsusi reyslər yerinə yetirəcək

**5 noyabr 2021-ci il, Bakı - "Azərbaycan Hava Yolları" Milli aviadaşıyıcısı Ciddəyə xüsusi reyslərin həyata keçirilməsinə başlayır.**

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, uçuşlar noyabrın 25-dən etibarən həftədə bir dəfə, cümə axşamı günləri Airbus A319/Airbus A320 hava gəmilərində yerinə yetirəcək.

Aviabilet satışı aviaşirkətlərin www.azal.az rəsmi saytında, həmçinin aviadaşıyıcıların akkreditə olunmuş agentliklərində həyata keçirilir.



Reyslərə yalnız COVID-19 pandemiyası ilə əlaqədar tətbiq edilən mövcud məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq. Səudiyyə Ərəbistanına səyahət planlaşdıran Azərbaycan vətəndaşları bu ölkə ərazisinə giriş hüququna malik olmalıdırlar. Pandemiya dövründə Səudiyyə Ərəbistanına giriş qaydaları aviaşirkətin saytında qeyd edilmişdir: https://www.azal.az/az/information/covid-saudi-arabia

Azərbaycanda COVID-19 testindən keçə biləcəyiniz klinikaların siyahısı aviaşirkətin rəsmi saytında dərc edilmişdir: https://www.azal.az/az/information/covid-clinics

Səudiyyə Ərəbistanının şəhərlərindən Azərbaycana uçuş zamanı COVID-19 testini dövlət tərəfindən akkreditə olunmuş və PCR testi vasitəsilə analiz götürən istənilən klinikada və ya laboratoriyada keçmək mümkündür. Arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə olunur. QR-kod hava limanında rəsmiləşdirmə prosedurlarından keçidi sürətləndirməyə imkan yaradacaq.

COVID-19 testinin nəticələri uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

# "Azercell"dən avtomatik balans artırılması imkanı

## "Birbank" mobil tətbiqində lider operatorun abunəçiləri üçün avtomatik ödəniş xidməti yaradılıb

5 milyondan artıq abunəçinin seçimi olan "Azercell Telekom" istifadəçilərinin həyatını rahatlaşdırmaq üçün yeni texnoloji həlləri hazırlamaqda davam edir. Gündəlik iş və məişət qayğıları bəzən mobil nömrənin balansına vaxtlı-vaxtında nəzarət etməyə əngəl törədir. Məhz bu prosesi sadələşdirmək üçün "Azercell"in təqdim etdiyi növbəti yenilik bütün "Azercell" Fakturasız Xətt abunəçilərinə öz nömrələrində balansı avtomatik artırmaq imkanı verir.

Noyabr ayından etibarən "Azercell" şirkəti "Kapital Bank" ASC-nin "BirBank" mobil tətbiqin daxilində "Mobil nömrənin balansının avtomatik artırılması" xidmətini istifadəyə verməklə abunəçiləri üçün mobil tətbiqə bağlı olan bank kartı hesabından avtomatik qaydada nömrəsinin balansına ödənişləri həyata keçirməyi mümkün etdi.

Ödənişləri bir neçə meyara uyğun olaraq tənzimləmək mümkündür. Abunəçi istərsə, ödəniş üçün müəyyən tarix




seçə bilər. Bu zaman hər ay həmin tarixdə nömrənin balansı avtomatik olaraq "Birbank" tətbiqində qeydiyyatda olan bank hesabından artırılacaq.

Avtomatik ödəniş üçün digər meyar - mobil nömrənin balansının minimum müəyyən edilmiş həddə çatması ilə bağlıdır. Bu funksiya seçildiyi halda nömrənin balansı həmin həddə çatdıqda, avtomatik olaraq ödəniş baş tutacaq.

Abunəçi avtomatik ödəniş üçün mobil nömrə balansının son istifadə tarixini də seçə bilər. Abunəçilər bu xidməti aktivləşdirmək üçün "BirBank" mobil tətbiqində müvafiq imkanlardan birini seçməlidirlər. Qeyd edək ki, bu imkan ilk olaraq "Azercell" Fakturasız Xətt abunəçiləri üçün istifadəyə verilib.

Avtomatlaşdırılmış balans artırılması xidmətinin tətbiqi abunəçilərin vaxtına qənaət etməsinə imkan yaradır, onların işini asanlaşdırır. Artıq abunəçilərin daim balansı izləməsinə, balansın tükənməsi və istifadə imkanın aşılması üzündən xəttin bağlanması kimi məqamlar üçün narahat olmasına lüzum qalmır. Avtomatik ödəniş xidməti aktivləşdirib müvafiq meyarlardan birini seçməklə "Azercell"in Fakturasız Xətt abunəçisi nömrəsinin daim işlək olmasından əmin olacaq.

Müştəri məmnuniyyətini öz işinin əsas prinsipi hesab edən "Azercell" gündəlik həyatı rahatlaşdıran rəqəmsal xidmətlərin çeşidini artırmağı qarşısına məqsəd qoyub.

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
## 330/110/10kV-luq "Gəncə" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: LOT - 1. 330/110/10kV-luq "Gəncə" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması.

**İştirak haqqı - 2 000 (iki min) manat**

**İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürməlidirlər.**

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

İddiaçılar iştirak haqqını köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-26-96; 490-09-27, 598-05-56;

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların və yarımstansiyaların tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 dekabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **21 dekabr 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **22 dekabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən geyimlərin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 16 sentyabr 2021-ci il tarixli qərarına əsasən, Cədvəl 1 üzrə fiziki şəxs Elvin Əkbərov, Cədvəl 2 üzrə isə "M Tekstil" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri üzrə dərman vasitələrinin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibləri 2 iddiaçı - "R-Pharm" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

08.10.2021-ci ildə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsilə "R-Pharm" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 976.64 (doqquz yüz yetmiş altı manat 64 qəpik) manat və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 54 143.12 (əlli dörd min yüz qırx üç manat 12 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Məişət zorakılığından müdafiə vasitələrinə etimadın, övladlığa götürmənin təşviqi və həssas qruplardan olan şəxslərə cəmiyyətdə xüsusi diqqətin təbliği", "Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərin reabilitasiyasından sonra cəmiyyətə adaptasiya olunması", "Əlilliyi olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı
## *müsabiqələr keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1 yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 25 noyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 26 noyabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
## 110/35/10 kV-luq "Laçın (Qorçu)" Yarımstansiyasının tikintisi və istismara verilməsi işlərinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: LOT - 1. 110/35/10 kV-luq "Laçın (Qorçu)"

Yarımstansiyasının tikintisi və istismara verilməsi işlərinin satın alınması.

İştirak haqqı - 2 000 (iki min) manat

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürməlidirlər.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

İddiaçılar iştirak haqqını köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır. Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-26-96; 490-09-27, 598-05-56;

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların və yarımstansiyaların tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. - iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 dekabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **21 dekabr 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına, Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların tender təklifləri **22 dekabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

# 1650 qazi və yaxınları, habelə şəhid ailəsi üzvləri sosial-psixoloji və reabilitasiya xidmətləri ilə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi kütləvi informasiya vasitələri nümayəndələrinin Vətən müharibəsi qazilərinə göstərilən reabilitasiya və sosial-psixoloji xidmətlərlə tanışlığı məqsədilə Bakı Reabilitasiya Mərkəzinə mediatur təşkil edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq son illərdə müasir tələblərə uyğun qurularaq istifadəyə verilən reabilitasiya mərkəzləri şəbəkəsi Vətən müharibəsində yaralanmış qazilərin bərpa müalicəsi və sosial-psixoloji xidmətlərlə təminatında xüsusi rol oynayır. Bu məqsədlə 2019-2021-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib. Postmüharibə dövründə reabilitasiya müəssisələrində müharibədə yaralanmış qazi və yaxınlarının, habelə şəhid ailəsi üzvlərinin sosial-psixoloji və reabilitasiya xidmətləri ilə təminatı həyata keçirilir. İndiyədək 1650 nəfər həmin xidmətlərlə əhatə edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələri mərkəzdə yaradılan şəraitlə və Vətən müharibəsi qazilərinə göstərilən xidmətlərlə, burada tətbiq olunan fizioterapevtik prosedurlarla tanış olublar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Qubadlı rayon prokurorunun köməkçisi

**RƏCƏB MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Ağcabədi rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor Nicat Zamanzadəyə atası

**NAMƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə

**VİDADİ MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mərkəzi Bankın baş direktoru Akşin Vəliyevə atası

**VƏZİR VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi AMEA-nın müxbir üzvü, professor Əli Nuriyevə oğlu

**MURAD NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvləri qocaman memar

**TELMAN MƏMMƏD OĞLU BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sədri və kollektivi Abşeron Rayon Məhkəməsinin hakimi Vaqif Həsənova atası

**İSKƏNDƏR HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sədri və kollektivi Bakı şəhəri Sabunçu Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Cavid Muradova atası

**VİDADİ MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2172
Qiyməti 40 qəpik